Xalqın qəzeti!

# Xalq qəzeti

№ 62 (30756) 2 aprel 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

**Azərbaycan–İran: pozitiv gündəlik perspektiv üçün böyük təminatdır**



Səhifə ⇨ 9

## Azad Qarabağ çağdaş tərəqqiyə qovuşur



Səhifə ⇨ 2

## Almaniya Prezidenti Azərbaycanda




**Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer aprelin 1-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayeri hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

## Populist Sarkis və Ostap Bendersayağı sevinc

**Əlbəttə, bilə bilmərik ki, Azərbaycan Milli Məclisinin deputatı, parlamentin xarici əlaqələr komitəsinin sədri Səməd Seyidov erməni həmkarı Sarkis Xandanyana həqiqətən "populist" deyib, ya yox. Ancaq ikinci belə bir durumla üzləşdiyini iddia edir.**

Deməli, Ermənistan parlamentinin xarici əlaqələr daimi komissiyasının sədri S.Xandanyan özünün "X" sosial şəbəkəsindəki hesabında S.Seyidovun onu "populist" adlandırdığını yazıb. Hesab edirik ki, erməni hakim komandasını, konkret olaraq, baş nazir Nikol Paşinyanın "Vətəndaş sazişi" Partiyasını təmsil edən nəinki bu şəxs, ümumən sözügedən komandanın digər üzvləri də eyni xarakterin daşıyıcılarıdır. Onlar hətta çox ucuz populistdirlər. O qədər ucuzdurlar ki, manipulyativ dəst-xətlərini oxumaq heç bir çətinlik törətmir. Necə deyərlər, dəvə başını samanlığa salıb gizləndiyini düşünür...

*(ardı 10-cu səhifədə)*



# Ortaq dəyərlər Azərbaycan və İranın qonşuluq münasibətlərinin özülüdür

### Prezident İlham Əliyev İran Prezidentinin siyasi məsələlər üzrə müşavirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də İran İslam Respublikası Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayini qəbul edib.**

Qəbula görə minnətdarlığını bildirən Mehdi Sənayi İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Ölkəmizə daha əvvəllər də səfər etdiyini xatırlayan qonaq Azərbaycanın davamlı inkişafının şahidi olduğunu dedi.

Mehdi Sənayi İranın qonşu dövlətlərlə, xüsusilə tarixi, dini, mədəni bağlılığı olan Azərbaycan ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini vurğuladı, hazırda ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə inkişafından məmnunluğunu bildirdi.

Dövlətimizin başçısı da öz növbəsində Azərbaycanın və İranın ortaq dəyərləri bölüşdüyünü qeyd edərək, son dövrlərdə ikitərəfli qarşılıqlı səfərlərin dinamikasını müsbət qiymətləndirdi.

Prezident İlham Əliyev Mehdi Sənayinin Azərbaycana səfərinin ikitərəfli gündəliklə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvarlığını ifadə etdi.

Görüşdə ölkələrimiz arasında nəqliyyat, xüsusilə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair müzakirələr aparıldı, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunuldu.

Söhbət zamanı Ağbənd istiqamətində Araz çayı üzərində körpünün tikintisi prosesi ilə bağlı fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# Sülhdənqorxma sindromu

### *İrəvan Bakının barışıq əlini sıxmağa tərəddüd edir*



**Bəli, paradoksal səslənsə də, Ermənistan hakimiyyəti Azərbaycanla sülhə gəlməkdən qorxur. Və bu qorxunu şərtləndirən amillər heç də, kənardan göründüyü kimi sadə və asanlıqla aşılan maneələr deyil. Sülh sazişinin 17 bəndi üzrə razılığın əldə edildiyini, müqaviləni imzalamağa hazır olduğunu bəyan edən baş nazir Nikol Paşinyan ardınca qarşı tərəfə ünvanlanan ikibaşlı, qeyri-müəyyən suallar və açıqlamalar səsləndirir.**

Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycanın sülh sazişinin mətninə təklif və əlavələri bütün mübahisəli məsələlərin həll edilməsi üçün baza prinsipləridir və onların hər biri beynəlxalq hüquqa tam uyğundur. Yəni, bütün problemləri ikitərəfli dialoqda, danışıqlar masası arxasında həll etməyə hazırdır və sülh müqaviləsinin imzalanmasında maraqlıdır. Amma, təəssüf ki, Ermənistan Azərbaycanın bu sülhpərvər mövqeyini lazımınca qiymətləndirməyi bacarmır və xaricin diktəsi ilə "ikibaşlı oyunu" davam etdirir.

* * *

Daha İrəvanın arxada gizlətməyə kartı qalmayıb. Hər şey masanın üzərindədir. Ermənistan hakimiyyətinin sülhün bir addımlığında yenə xaricdəki tərəfdarlarının, erməni lobbisinin, ona maliyyə və hərbi yardımlar edən "güclərin" diktəsi ilə hərəkət etdiyini bilməyən yoxdur. İntəhası, indiki həlledici mərhələdə də İrəvan Bakıya kənardan təzyiq diplomatiyasından əl çəkmək istəmir. Bu, heç bir halda bölgədə sülh, əmin-amanlıq, qarşılıqlı etimada söykənən əməkdaşlıq mühitinin yaranmasını arzulayan tərəfin davranışları kimi qəbul edilə bilməz. Son vaxtlar "kollektiv Qərb"in anti–Azərbaycan kampaniyasına Ermənistanın xarici ölkələrdəki diplomatik korpusları da qoşulublar. "Sülh sazişinin bağlanması təkcə ikitərəfli nailiyyət olmayacaq. Bu, qlobal əhəmiyyətli, daha geniş, Cənubi Qafqaz regionunun təhlükəsizliyi və iqtisadi inkişaf üçün ciddi nəticələri olan bir məsələdir". Bunu Ermənistanın Böyük Britaniyadakı səfiri Varujan Nersesyan "The Critic" jurnalında dərc etdirdiyi "Sülh ikitərəfli bir küçədir" sərlövhəli məqaləsində yazır.

*(ardı 10-cu səhifədə)*

# Süni intellekt və Azərbaycanın rəqəmsal gələcəyi



Səhifə ⇨ 13

# Azad Qarabağ çağdaş tərəqqiyə qovuşur

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında










**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Ağdam rayonunun Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma burada yaradılmış şərait barədə məlumat verib.**

Qeyd edək ki, Ağdam rayonunda quruculuq işlərinin geniş vüsət aldığı yerlərdən biri də Sarıcalı kəndidir.

Kənd Birinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il iyulun 23-də işğal olunmuşdu. İşğal dövründə kənd viran qoyularaq xarabalığa çevrilmişdi, burada evlərlə yanaşı, məktəb, uşaq bağçası, səhiyyə, ticarət, iaşə obyektləri də vəhşicəsinə məhv edilmişdi. Vətən müharibəsində Ordumuzun şanlı Qələbəsindən sonra üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana qaytarılıb. Sarıcalı kəndi işğaldan azad edildikdən sonra burada azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb. İşğaldan əvvəl kənddə 239 ailə, ümumilikdə 1024 nəfər əhali yaşayıb.

Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub.

Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub.

Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Burada sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kəndində yerli icra strukturları üçün inşa olunmuş çoxfunksiyalı inzibati binanın açılışında iştirak ediblər.

Kəndin girişində inşa edilmiş bu binada bir sıra qurumlar fəaliyyət göstərəcək. Bu isə öz növbəsində əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına və vətəndaş məmnunluğunun təmin edilməsinə imkan yaradacaq. Binada müxtəlif iclas və iş otaqlarında işçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün bütün şərait mövcuddur.

Qeyd edək ki, kənddə inşa olunmuş bütün qeyri-yaşayış binalarının, o cümlədən inzibati binanın damında günəş panelləri quraşdırılıb. Bu panellər vasitəsilə binaların elektrik ehtiyacları təmin ediləcək.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kəndində yeni inşa edilmiş fərdi yaşayış evlərində yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, birinci mərhələ üzrə buraya 895 nəfərin (203 ailə) köçürülməsi planlaşdırılır. Artıq 203 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kənd körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, müasir standartlara uyğun inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi və onların sağlam mühitdə yetişmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Burada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafının təmin edilməsi, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması kimi meyarlara xüsusi diqqət yetiriləcək. Körpələr evi-uşaq bağçasında 5 qrup fəaliyyət göstərəcək.

Bağçanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb, geniş abadlıq işləri görülüb.

Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların vətənpərvər, bilikli, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində Azərbaycan dövləti mühüm işlər görür. Bu məsələ işğaldan azad edilmiş ərazilərimizdə də diqqət mərkəzində saxlanılır. Bu bölgələrimizdə bir çox uşaq təhsil-tərbiyə müəssisələrinin yaradılması prosesinin geniş vüsət alması bunu aydın nümayiş etdirir.

* * *

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kənd tam orta məktəbinin binasının açılışında iştirak ediblər.

Bildirilib ki, 14 sinif otağı olan 360 şagird yerlik məktəbdə təhsil prosesinin səmərəli şəkildə həyata keçirilməsi üçün lazımi şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib. Burada laboratoriyalar, texnologiya, biologiya və informatika otaqları, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.



Məktəbin ərazisində idman meydançası inşa olunub. Bu meydançadan şagirdlərlə yanaşı, dərsdənkənar saatlarda kənd əhalisi də istifadə edə biləcək. Ərazidə oyun və istirahət sahələri yaradılıb, yaşıllıqlar salınıb.

Qeyd edək ki, 30 ilə yaxın davam etmiş işğal nəticəsində həmin rayonlardakı təhsil müəssisələri də tamamilə dağıdılıb. İşğaldan azad edilmiş ərazilərdə təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm və ardıcıl işlər görülür. Bu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda da öz əksini tapıb. Yeni məktəb binalarının inşası işğaldan azad olunmuş ərazilərimizə köçən şagirdlərin savadlı və bilikli yetişməsi məsələsinə Azərbaycan dövlətinin nə qədər həssaslıqla yanaşdığını aydın nümayiş etdirir.

* * *

Sonra dövlətimizin başçısı və birinci xanım yeni mənzillərə köçən sakinlərlə görüşüb və onlara evlərin açarlarını təqdim ediblər. Dövlətimizin başçısı tədbirdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

**Prezident İlham Əliyev:** Sarıcalıya xoş gəlmisiniz.

**Sakinlər:** Siz də xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sizi ürəkdən təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** İlk növbədə, qarşıdan gələn Ramazan bayramı və Sarıcalı kəndinin bərpası münasibətilə sizi təbrik edirəm. Yəni, bu gün ikiqat bayramdır. Bu bayram ərəfəsində kəndi istifadəyə vermək, keçmiş köçkünlərin sərəncamına vermək xüsusi hadisədir.

Bu yaxınlarda Novruz bayramını qeyd etmişik. Novruz bayramı ərəfəsində Ağdərə rayonunun Həsənriz kəndinin sakinləri ilə görüşmüşdüm, onlara evlərinin açarlarını təqdim etmişdim. Bu gün isə burada - Ağdam rayonunun bərpa edilmiş birinci kəndinin sakinləri ilə görüşmək, əlbəttə ki, böyük xoşbəxtlikdir. Uzun fasilədən sonra siz doğma torpağınıza qayıtmısınız. Burada sizin üçün gözəl şərait yaradılıb.

Mən işğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərim zamanı onlara müvəqqəti yaşayış evlərini təqdim edərkən hər dəfə deyirdim ki, torpaqlar azad olunandan sonra daha da gözəl şərait yaradılacaq və biz sizi öz doğma torpağınıza qaytaracağıq. Bu gün də o sözlərimin təsdiqi bir daha öz yerini tapır. Artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər qayıdırlar. Bütün keçmiş köçkünlər üçün gələcəkdə bu cür şərait yaradılacaq. Ağdam rayonunun işğaldan sonra birinci yaşayış məntəqəsi keçmiş köçkünlərin sərəncamına verilir. Ancaq bu il digər kəndlərə də ağdamlılar qayıdacaqlar. Kəngərli, Xıdırlı kəndlərinə bu il qayıdış nəzərdə tutulub, digər kəndlərdə inşaat işləri gedir. Təbii olaraq, Ağdam şəhəri sıfırdan qurulur, yenidən qurulur və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcək.

Ağdam şəhəri də, rayonun bütün kəndləri də mənfur düşmən tərəfindən tamamilə dağıdılmışdı, bir dənə də salamat bina qalmamışdı. Bu, bir daha düşmənin xislətini göstərir, bizə tamamilə əsassız olan düşmənçiliyi göstərir. Təsadüfi deyil ki, bəzi xarici ekspertlər, jurnalistlər Ağdama səfər edərkən öz təəccübünü və hətta hiddətini gizlədə bilmirlər. Çünki uzun illər işğal dövründə xarici vətəndaşlar Ağdam bölgəsinə, Ağdam şəhərinə, şəhərdən qalan o yerlərə gələ bilmirdilər. İşğala son qoyulandan sonra həm Azərbaycan vətəndaşları, həm xarici qonaqlar gəlməyə başladılar və gördülər ki, biz hansı düşmənlə üz-üzə idik.

*(ardı 3-cü səhifədə)*

# Azad Qarabağ çağdaş tərəqqiyə qovuşur

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında








*(əvvəli 2-ci səhifədə)*

Yəni, işğal dövründə şəhər tamamilə söküldü, yerlə-yeksan edildi və Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar. Amma fərq ondadır ki, Xirosima atom bombası nəticəsində viran qoyulmuşdur, Ağdamı isə 30 il ərzində oğrular, talançılar, erməni talançılar sökərək daşlarını da aparıb müxtəlif yerlərdə satırdılar. Yəni, bu, misli görünməmiş vəhşilikdir. Mən bunu dəfələrlə demişdim, erməni faşizmi faşizmin ən yüksək nöqtəsidir. Biz Ağdamı yenidən qururuq və quracağıq. İndi genişmiqyaslı quruculuq işləri aparılır. İşğaldan sonrakı dövrdə bir çox önəmli infrastruktur obyekti istifadəyə verilib, ilk növbədə, yollar. Ağdam-Bərdə yolu yenidən quruldu. Heç sovet dövründə bu gözəllikdə yol olmamışdır. Ağdam-Xankəndi yolu inşa edilir. Bu da Bərdə-Ağdam yolu kimi dördzolaqlı olacaq. Dəmir yolu çəkilir, yəqin ki, bu il istifadəyə veriləcək. Yəni, Ağdama dəmir yolu ilə rahat gəlmək mümkün olacaq. Vağzal kompleksi inşa edilir. Ağdam məscidi bərpa edilmişdir. Mənfur düşmən bütün müsəlmanları, dünya müsəlmanlarını təhqir etmək üçün orada heyvan saxlayırdı. Birinci bərpa olunan bina Ağdam məscidi olmuşdur. Muğam Mərkəzi inşa edilir. "İmarət" Kompleksi bərpa edildi. Natəvanın qəbri bərpa olundu, düşmən tərəfindən dağıdılmış abidəsinin eynisi yenidən tikildi. Xaçınçay su anbarı yenidən quruldu. Düşmən onu da qurutmuşdu. Məktəb binası inşa edilir, xəstəxana tikilir, böyük sənaye kompleksi fəaliyyət göstərir. Artıq bir neçə müəssisə orada fəaliyyət göstərir və bu, Qarabağ, Şərqi Zəngəzur bölgəsinin ən böyük sənaye kompleksi olacaq. Təbii ki, yaşayış evləri, bir neçə yaşayış kompleksi inşa edilir, bu il istifadəyə veriləcək.

Bununla bərabər, bölgənin turizm imkanları nəzərə alınaraq iki mehmanxana artıq fəaliyyətə başlayıb və həm Ağdam, həm Füzuli, həm ətraf bölgələrə xidmət göstərəcək. Bax, biz belə şəhər qururuq. Yadımdadır, işğaldan sonra ilk dəfə Ağdamda ağdamlılarla görüşəndə və yeni şəhərin təməlini qoyanda mən demişdim, elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq.

Bütün bunlar öz gücümüzə həll olunan layihələrdir, məsələlərdir. Azərbaycan dövləti bu gün bu işləri görməyə qadirdir. Mən təkcə Ağdam rayonunda gedən işləri sadaladım. Amma əgər bütövlükdə azad edilmiş torpaqlarda gedən işləri götürsək, qısa müddət ərzində bu qədər bərpa işləri heç bir ölkədə heç vaxt görülməmişdir.

İkinci Qarabağ müharibəsi təbii olaraq, tarixdə bizim şanlı tariximiz kimi, şanlı səhifəmiz kimi əbədi qalacaq. Bildiyiniz kimi, müharibə zamanı Ağdam istiqamətində fəal hərbi əməliyyatlar keçirilmirdi, çünki düşmən güclü istehkamlar qurmuşdu və hər tərəf minalanmışdı. Ona görə biz Ağdam istiqamətində artıq Hadrut, Cəbrayıl, Füzuli, Şuşa azad olunandan sonra hərəkət etməyə başlamışdıq və faktiki olaraq, düşmənin qüvvələri mühasirədə qalmışdı. Azərbaycan yenə də humanistlik göstərdi və düşmənə şans verdi ki, öz xoşu ilə bu torpaqlardan çıxsın. Əks təqdirdə, bu bölgədə mühasirədə qalmış 10, bəlkə də 15 minlik Ermənistan ordusunun kontingenti tamamilə məhv ediləcəkdi. Yəni, yenə də Azərbaycan dövləti humanistlik göstərdi o ünsürlərə ki, onlar buna layiq deyillər. Çünki bizə qarşı heç bir humanistlik göstərilməmişdi. Bizə qarşı soyqırımı törədilmişdi. Xalqımız böyük əzab-əziyyətlərə məruz qalmışdır. Bizim şəhərlərimiz viran qoyuldu, kəndlərimiz, şəhərlərimiz dağıdıldı. Körpələrimiz, qadınlarımız vəhşi düşmən tərəfindən qətlə yetirildi. Amma mən müharibə zamanı demişdim, biz qisasımızı döyüş meydanında alırıq və almışıq.

İkinci Qarabağ müharibəsi nəticəsində Ağdam şəhəri və o vaxt işğal altında olan kəndlər bir güllə atılmadan geri qaytarıldı. Ağdamla bərabər, Laçın və Kəlbəcər rayonları da. Biz onsuz da bu torpaqları azad edəcəkdik, ancaq müharibə davam etsəydi, çoxlu itkilər olacaqdı. Biz ona görə müharibəni vaxtında dayandırdıq, ancaq öz siyasətimizdən bir addım geri atmadıq. Ondan üç il sonra tam nəzarəti ələ götürdük, suverenliyi, ərazi bütövlüyümüzü bərpa etdik və bu gün separatizmin kökü kəsildi. Bu gün burada insanlar rahat yaşayacaqlar, heç kimdən qorxmadan, ləyaqətlə yaşayacaqlar. Əminəm ki, xoşbəxt yaşayacaqlar. Çünki artıq həm torpaqlar geri qaytarıldı, eyni zamanda, xalqımızın milli ləyaqəti bərpa edildi. Ermənistan 30 il ərzində hər vəchlə çalışırdı ki, bir santimetr torpaq da bizə qaytarılmasın. Onun arxasında duran xarici qüvvələr də onlarla həmrəy idi, əlbir idi. Amma onlar bir şeyi nəzərə almamışdılar, o da Azərbaycan dövlətinin gücü, iradəsi, cəsarəti və Ordumuzun qəhrəmanlığıdır. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah Ordumuzun, Silahlı Qüvvələrimizin şəxsi heyətinin başını həmişə uca eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində bax, bu gün biz burada durmuşuq və bu gün bu gözəl bayram ərəfəsində görüş keçirilir.

Bundan sonra bərpa işləri davam edəcək. Sarıcalı kəndinin, sadəcə olaraq, birinci mərhələsinin inşası başa çatdı. Burada hazırda 200-dən çox ev var. Amma ikinci mərhələ başa çatandan sonra təqribən evlərin sayı 400-ə çatacaq. Yaşamaq üçün bütün şərait var. Gözəl, yaraşıqlı evlər, elektrik, su, qaz, istilik, gözəl məktəb, uşaq bağçası, tibb məntəqəsi, idman meydançası, ictimai xidmət yerləri, hətta bazar kompleksi də var. Evlərin həyətyanı sahəsi də kifayət qədər böyükdür - 12 sot. Eyni zamanda, ətraf ərazilərə su veriləndən sonra o torpaqlarda da əkin-biçin işləri aparmaq mümkün olacaq. Sərsəng su anbarı və Suqovuşan su anbarı bu imkanı bizə yaradacaq. Sadəcə olaraq, vaxtilə inşa edilmiş kanallar bərpa edilməlidir. Bu istiqamətdə də iş gedir. Yaxşı bilirsiniz, həm



Sərsəng, həm Suqovuşan su anbarları Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmişdi ki, o cümlədən Ağdam və bir neçə ətraf rayon suvarma suyu ilə təmin olunsun. İşğal dövründə düşmən suyumuzu da kəsmişdi. İndi biz öz su resurslarımıza da sahib olduq. Xaçınçay su anbarı artıq bərpa edilib və Suqovuşandan gələn kanal vasitəsilə Ağdamın bütün ərazisi və qonşu rayonların əraziləri suvarılacaq. Bu gün təqribən 100 min hektar suvarılmayan torpağa su gətiriləcək.

Ona görə Ağdam rayonunda yaşayacaq vətəndaşlar buna hazır olmalıdırlar. Burada işlə təmin etmək üçün lazımi addımlar atılır, eyni zamanda, kənd təsərrüfatı da sahibkarlar tərəfindən inkişaf etdirilməlidir.

Bir daha sizi ürəkdən təbrik edirəm, cansağlığı arzulayıram. Xoşbəxt yaşayın.

**Sakinlər:** Çox sağ olun.

***

Sonra açarların təqdim edilməsi mərasimi oldu və xatirə şəkilləri çəkdirildi.

***

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənd sakinləri ilə söhbət etdilər.

**Sakin:** Bu gün bizim hazırda durduğumuz yer bağ idi, meşə idi bura, burada böyük palıd ağacları var idi.

**Prezident İlham Əliyev:** Bəs evlər harada idi?

**Sakin:** Evlər bir az bundan aşağıda idi.

**Prezident İlham Əliyev:** Orada idi?

**Sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Bu, Sarıcalının bağı idi?

**Sakin:** Meşə idi, qoz ağacları, palıd ağacları var idi.

**Prezident İlham Əliyev:** Qırdılar.

**Sakin:** Onların hamısını məhv etdilər.

**Prezident İlham Əliyev:** Siz işğal dövründə harada yaşamısınız?

**Sakin:** Bərdədə yaşamışam.

**Prezident İlham Əliyev:** Bərdədə hansı şəraitdə?

**Sakin:** Məktəbdə yaşayırdıq. Hazırda beşmərtəbələrdə oluruq. Çox sağ olun, Allah Sizə kömək olsun. Allah şəhidlərimizə rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Cavanlar da gəlib. Həvəslə gəlmisiniz?

**Sakinlər:** Bəli, əlbəttə.

**Prezident İlham Əliyev:** Onlar heç görməyiblər buraları.

**Sakin:** Görməyiblər. Yəni, görməyənlər də belə gəlib görmək istəyirlər ki, işğaldan azad olunmuş torpaqlarımız nə cür bərpa olunur. Allah həmişə dövlətimizin bayrağını uca etsin.

**Prezident İlham Əliyev:** Sağ olun. Otuz il ərzində ədalətsizliklə üzləşmişdik. Bu ədaləti biz özümüz bərpa etdik və biz hər gün ədalət təntənəsini görürük.

**Sakinlər:** Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Azad edilmiş ərazilərdə indi 40 mindən çox insan yaşayır və çalışır. İlin sonuna qədər də təqribən 30 min, 40 min qayıtmalıdır. İndi Ağdam rayonunun ilk sakinləri sizsiniz. Amma yaxın aylarda qonşularınız da gələcək, Xıdırlıya, – yəqin ki, görmüsünüz, böyük inşaat işləri gedir, – Kəngərliyə, ilin sonuna qədər Ağdam şəhərinə. Burada rahat, xoşbəxt yaşayacaqsınız.

**Sakin:** İnşallah. Çox sağ olun, minnətdarıq. Allah Sizi var eləsin, Allah Sizi qorusun!

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakinlər:** Sağ olun, çox sağ olun.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yenidən qurulan Şuşada



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak edib, iaşə obyektlərində yaradılan şəraitlə, Qarabağ küçəsində, Şuşa Müalicə-Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri ilə tanış olublar.**



Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak ediblər.

Qeyd olunub ki, məsciddə bərpa işləri Heydər Əliyev Fondu tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə aparılıb. Bərpa işlərinə 2023-cü ildən başlanılmışdı.

Ötən müddət ərzində məscidin həyətinin deformasiyaya uğrayan əksər döşəmə daşları sökülərək möhkəmləndirilib və fərş döşəmə bərpa edilib. Dəmir giriş qapısı və hasar üzərindəki məhəccərlər Qarabağ memarlığına xas bəzəklərlə hazırlanıb.

Yerli daşdan tikilmiş məscidin fasadının dağılmış hissələri tam bərpa olunub, təhlükəli vəziyyətə düşmüş atma və guşə daşları çıxarılaraq yenidən restavrasiya edilib. Mərtəbələrarası taxta örtük konstruksiyası quraşdırıldıqdan sonra yaranan eyvan şüşəbəndlə tamamlanıb.

Məscid giriş hissə, ibadət zalı və köməkçi otaqlardan ibarətdir. Şuşanın digər məscidlərindən fərqli olaraq, burada giriş sağ tərəfdən daş pillələrlə təmin edilib. Açıq tamburdan otağa və ibadət zalına keçid var.

Məscidin inşasında istifadə olunan daşlar bərpa edilib, mehrab yenidən qurularaq üzərinə "Qurani-Kərim"dən ayələr və naxışlar işlənib.

Çöl Qala məscidinin yaxınlığında yerləşən və XIX əsrə aid olan Çöl Qala bulağı da bərpa edilib. Dördbucaqlı formada olan bulaq yaxınlıqdakı məscidlərin üslubunda inşa edilib. Bərpa prosesində bulağın orijinal memarlıq üslubu qorunub, strukturu möhkəmləndirilib və əvvəlki görünüşü özünə qaytarılıb.



Qeyd edək ki, Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Bu tarixi abidə XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib.

Məscid və bulaq Şuşa şəhərinin işğalından sonra ermənilər tərəfindən dağıdılmış və talan edilmişdi.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Qarabağ küçəsində dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində aparılan tikinti işləri və iaşə obyektlərində yaradılan şəraitlə də tanış olublar.

Məlumat verilib ki, bu küçədə ümumilikdə müxtəlif təyinatlı 10 binanın inşası aparılır. Onların arasında mehmanxana, ofislər, iaşə obyektləri, Şuşa Qoruq İdarəsinin binası da var. Tikinti işləri yüksək keyfiyyətlə və şəhərin ümumi görünüşünə uyğun həyata keçirilir. Bu binaların inşası tarixi Azərbaycan şəhəri olan Şuşanın inkişafı istiqamətində atılan addımların bir hissəsidir.

***

Sonra dövlətimizin başçısı və birinci xanım Şuşa Müalicə-Sağlamlıq Mərkəzində aparılan tikinti işləri ilə tanış olublar.

Xatırladaq ki, təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan bu tibb ocağı 90 çarpayılıqdır və 6 korpusdan ibarətdir.

Stasionar xidmət sahəsində terapiya, pediatriya, cərrahiyyə, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Mərkəzin Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən avadanlıqla təchiz olunacaq.

Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin ərazisində, eyni zamanda, Gigiyena və Epidemiologiya Mərkəzi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunub.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə Azərbaycan dövləti tərəfindən digər sahələrlə yanaşı, tibb xidmətlərinin müasir səviyyədə təşkili üçün də genişmiqyaslı işlər həyata keçirilir. Şuşada bu cür tibb ocağının yaradılması bunun əyani göstəricisidir. Şuşa Müalicə Sağlamlıq-Mərkəzi şəhərdə yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində icra olunan sosial infrastruktur layihələrindən biridir.

***

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.

Qeyd edək ki, bu məscidin təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulub. Məscid tarixi şəhərdə modern memarlıq nümunəsi kimi göz oxşayacaq. Onun memarlıq həlli rəmzi xarakter daşıyır. Belə ki, Prezident İlham Əliyevin tapşırığı ilə məscidin forması 8 rəqəmini əks etdirəcək və bu, noyabrın 8-də Şuşanın işğalçılardan azad olunmasını, Zəfər Gününü simvolizə edəcək.

Məscidin iki minarəsi isə 11 rəqəmini əks etdirəcək. Bu, Şuşanın və Qarabağın işğaldan on birinci ayda azad edilməsinin rəmzidir. Minarələrin hündürlüyü 72 metr olacaq. Şuşanın yuxarı hissəsində inşa edilən məscid həm də şəhərin ən uca yerində olacaq.

Məscidin layihələndirilməsini azərbaycanlı və italiyalı memarlar birgə həyata keçiriblər. Bu ibadət ocağının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək.

Hazırda ərazidə dəmir beton, metal konstruksiya və elektrik işləri davam etdirilir.

# Prezident İlham Əliyev Şəfiqə Məmmədovaya "İstiqlal" ordenini təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Şəfiqə Məmmədovanı qəbul edib və ona "İstiqlal" ordenini təqdim edib. Şəfiqə Məmmədovanı salamlayan Prezident İlham Əliyev dedi:**



– Hörmətli Şəfiqə xanım, sizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illər ərzində Azərbaycan mədəniyyətinin inkişafında çox önəmli rol oynayırsınız, ölkəmizin teatr və kino sənətinə dəyərli töhfələr vermisiniz. Həm gözəl aktrisa, həm pedaqoq, ictimai xadim kimi xalqımızın hörmət və rəğbətini qazanmısınız. Ulu öndər Heydər Əliyev sizin fəaliyyətinizi həmişə yüksək qiymətləndirirdi, siz bunu yaxşı bilirsiniz. Hələ sovet dövründə siz həm Azərbaycan Respublikasının, həm Sovet İttifaqının dövlət mükafatlarına layiq görülmüsünüz. Müstəqillik illərində, 2000-ci ildə Ulu Öndərin Sərəncamı ilə siz "Şöhrət" ordeni ilə təltif olunmusunuz. Ondan sonra da Azərbaycan dövləti sizin fəaliyyətinizi həmişə yüksək qiymətləndirərək sizi ali mükafatlarla təltif etmişdir. Mənim Sərəncamımla siz "Şərəf", Birinci dərəcəli "Əmək" ordenləri, Fəxri diplom ilə təltif olunmusunuz. Bu gün imzaladığım sərəncam əsasında "İstiqlal" ordeni ilə təltif edilirsiniz. İcazə verin, bu yüksək, ali mükafatı sizə təqdim edim.

Prezident İlham Əliyev "İstiqlal" ordenini Şəfiqə Məmmədovaya təqdim etdi.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Şəfiqə Məmmədova:** Çox sağ olun, minnətdaram, cənab Prezident.

Mən bu gün səhərdən təbii ki, həyəcan içindəyəm. Möhtərəm cənab Prezident, bu gün mənim həyatımın ən xoşbəxt, ən mənalı və nəticəli günlərindən biridir. Hörmətli cənab Prezident, bu gün Siz mənə elə bir zirvəni, elə bir qüruru bəxş etmisiniz ki, mən ömrümün axırına kimi Sizə minnətdar olacağam. Qoy, Ulu Tanrı Sizi hifz eləsin, dövlətimiz üçün, xalqımız üçün, ailəniz üçün və bizim üçün qorusun. Allah Sizə o qədər güc-qüvvə versin ki, Siz bu böyük siyasətdə daha da yüksək zirvələri fəth edəsiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm. Çox sağ olun.

**Şəfiqə Məmmədova:** Var olun. Xahiş edirəm, Sizə və gözəl Mehriban xanıma olan dərin ehtiramımı, hörmətimi, məhəbbətimi qəbul edəsiniz.

**Prezident İlham Əliyev:** Mehriban da sizə salamlarını çatdırır, özü də təbrik edəcək.

**Şəfiqə Məmmədova:** Çox sağ olsun, var olsun. Var olun, cənab Prezident, adınız həmişə işıqlansın.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edi rəm.

**Şəfiqə Məmmədova:** Minnətdaram, çox sağ olun.

# Ş.H.Məmmədovanın "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Şəfiqə Haşım qızı Məmmədova "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 mart 2025-ci il**

# Xalq artisti Şəfiqə xanım Məmmədovaya

**Hörmətli Şəfiqə xanım!**

Sizi – teatr və kino sənətimizin görkəmli nümayəndəsini 80 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan mədəniyyətinin inkişafına dəyərli töhfələr vermiş sənətkarsınız. Özünəməxsus ifa tərzinizə sadiq qalmaqla mənəvi aləminə ustalıqla nüfuz edərək yaratdığınız dolğun, dramatik obrazlar hər zaman həyatiliyi ilə seçilmiş və yaddaşlarda silinməz iz qoymuşdur. Milli Dram Teatrının səhnəsində canlandırdığınız müxtəlif xarakterlər və kinematoqrafiyamızın qızıl fondunda fəxri yer tutan filmlərdə uğurlu ekran həyatı verdiyiniz qəhrəmanlar Sizə geniş şöhrət qazandırmışdır.

Aktyorluq sənətinin sirlərinə gənclərin yiyələnmələri üçün mahir pedaqoq olaraq böyük əmək sərf etmisiniz. Ölkəmizin mədəni-ictimai həyatında fəal iştirakınız vətəndaş mövqeyinizin bütövlüyünün bir təzahürüdür.

Yaradıcı şəxsiyyət kimi səmərəli fəaliyyətiniz daim yüksək qiymətləndirilmiş və dəfələrlə təltiflərə layiq görülmüşdür.

Sizə bu əlamətdar gündə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı və nailiyyətlər arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 mart 2025-ci il**

# Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız "Qurani-Kərim"in nazil olduğu Ramazan ayı insanları gözəl niyyətlər və savab əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq və bərabərlik yoluna dəvət edir. Bu ayda müsəlmanlar oruc tutmaqla Allah və din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi-əxlaqi kamilliyə ucalmaq fürsəti qazanırlar.

Orucluq mərasimləri bütün İslam aləmində olduğu kimi, Azərbaycanda da hər il böyük fərəh və məmnunluq hissi ilə keçirilir. Ölkəmizdə milli-mənəvi həmrəyliyin, humanizmin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən Ramazan ayında dövlətimizin rifahı və tərəqqisi üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad olunur. İnanıram ki, insanların qəlbini və ruhunu ilahi hikmətlərlə nurlandıran mübarək Ramazan günlərində dua və diləkləriniz, saf niyyətləriniz Tanrı dərgahında qəbul olunacaq, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir.

**Əziz bacı və qardaşlarım!**

Bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza Ramazan təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Allah orucunuzu və dualarınızı qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 mart 2025-ci il**

# Pakistan İslam Respublikasının Baş naziri Zati-aliləri cənab Məhəmməd Şahbaz Şərifə

**Hörmətli cənab Baş nazir!**
**Əziz Qardaşım!**

Pakistan İslam Respublikasının milli bayramı – Pakistan Günü münasibətilə Sizi və qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Pakistan strateji tərəfdaşlığının hazırkı səviyyəsi, gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımız böyük məmnunluq doğurur. İqtisadiyyat, nəqliyyat-logistika, energetika, investisiya, müdafiə sənayesi və qarşılıqlı maraq doğuran bir sıra digər sahələrdə uğurlu birgə fəaliyyətimiz əlaqələrimizi şərtləndirən başlıca amillərdəndir. Eyni zamanda beynəlxalq məsələlərdə mövqelərimizin üst-üstə düşməsi və qarşılıqlı dəstəyimiz Azərbaycan-Pakistan qardaşlığının bariz ifadəsi olaraq ölkələrimizin və xalqlarımızın ümdə mənafelərinə xidmət edir.

Biz qardaş xalqlarımızın bir-birinə bəslədiyi dərin rəğbət, hörmət və etimaddan irəli gələn, ortaq mədəni dəyərlər və həmrəylik kimi möhkəm təməllər üzərində qurulmuş münasibətlərimizin hərtərəfli inkişafına müstəsna əhəmiyyət veririk. Ali səviyyədə səfərlərin, görüşlərin və təmasların intensivliyi əməkdaşlığımızın yüksək inkişaf dinamikasının göstəricisidir.

Sizin keçən ay Azərbaycana həyata keçirdiyiniz dövlət səfəri çərçivəsində Sizinlə qarşılıqlı etimad, anlaşma və səmimiyyət şəraitində keçən məhsuldar görüşümüzü, apardığımız fikir mübadilələrini və müzakirələri son dərəcə yüksək qiymətləndirirəm. Səfər əsnasında müxtəlif sahələr üzrə Azərbaycan-Pakistan əlaqələrinin gələcək fəaliyyət istiqamətlərinə dair əldə etdiyimiz razılaşmalar, o cümlədən imzalanmış çoxsaylı sənədlər ikitərəfli gündəliyimizin əhatə dairəsinin daha da genişləndirilməsinə, müxtəlif istiqamətlər üzrə iqtisadi-ticari potensialımızın reallaşdırılmasına töhfələr verəcəkdir.

Əminəm ki, xalqlarımızın sınaqdan çıxmış qardaşlığı və birliyindən güc alan Azərbaycan-Pakistan ənənəvi dostluq münasibətləri və strateji tərəfdaşlığı bundan sonra da birgə səylərimizlə möhkəmlənməyə və dərinləşməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 mart 2025-ci il**

# Banqladeş Xalq Respublikasının Prezidenti Zati-aliləri cənab Məhəmməd Şahabuddinə

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan-Banqladeş münasibətlərinin genişləndirilməsinə və əməkdaşlığın yeni məzmunla zənginləşdirilməsinə böyük əhəmiyyət veririk. Ölkələrimiz arasında formalaşmış dostluq münasibətləri bunun üçün yaxşı imkanlar yaratmışdır.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, əməkdaşlığımızın potensialının reallaşdırılması istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Fürsətdən istifadə edərək qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə Sizə və dost Banqladeş xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 mart 2025-ci il**

# İsmayıllı rayonunun İvanovka kəndində əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına dair tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** İsmayıllı rayonunun İvanovka kəndində 1250 hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə ilkin olaraq 5.000.000,0 (beş milyon) manat ayrılsın.

**2** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən əkin sahəsinin suvarma suyu ilə təminatının başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 aprel 2025-ci il**

# Gənc istedadlara xüsusi təqaüdlərin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 noyabr tarixli 2368 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Gənc istedadların "Qızıl kitab"ı və xüsusi təqaüdü haqqında Əsasnamə"nin 1.4-cü bəndinə uyğun olaraq **qərara alıram:**

**1** Adları "Qızıl kitab"a yazılmış gənc istedadlara xüsusi təqaüdlərin verilməsi məqsədilə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 98794 (doxsan səkkiz min yeddi yüz doxsan dörd) manat məbləğində vəsait ayrılsın.

**2** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**4** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 aprel 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident, Əziz Qardaşım!**

Təbiətin yenidən canlandığı, torpağın oyandığı və ümidlərin çiçəkləndiyi Novruz bayramı münasibətilə Zati-alinizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Çoxəsrlik qədim ənənəmiz olan Novruz bu il də sülhün, qardaşlığın, həmrəyliyin əhəmiyyətini xatırlamağımıza vəsilə olur. Ümid edirəm ki, Novruz dünya sülhü ilə bağlı ümidlərin bəsləndiyi, beynəlxalq dialoq və əməkdaşlığın yeni səviyyələrə çatdığı bir dövrün müjdəçisi olacaq. Ölkələrimiz arasında dərin köklərə malik dostluq və qardaşlıq tellərinin möhkəmlənməsi, əməkdaşlığımızın daha da güclənməsi bu Novruz bayramında da səmimi arzumuzdur.

Bu mənalı gün münasibətilə Zati-alinizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, rifah və firavanlıq dolu gələcək arzulayıram.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Novruz – bahar bayramı münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Rusiya-Azərbaycan münasibətləri tərəfdaşlıq və müttəfiqlik ruhunda uğurla inkişaf edir. Əminəm ki, biz birgə səylərlə gələcəkdə də dost xalqlarımızın rifahı naminə, Cənubi Qafqazda və Xəzərdə təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi maraqlarına uyğun olaraq qarşılıqlı faydalı ikitərəfli əlaqələri fəal şəkildə gücləndirəcəyik.

Hörmətli İlham Heydər oğlu, bu əziz bayram günündə Sizə ürəkdən möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına isə xoşbəxtlik və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Bahar bayramı münasibətilə təbrik məktubunuza görə Sizə səmimi-qəlbdən minnətdarlığımı bildirməkdən şərəf duyuram. Ənənəvi Novruz bayramı münasibətilə Çin hökuməti və xalqı adından Sizə və bütün Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Hazırda Çin-Azərbaycan strateji tərəfdaşlıq münasibətləri dinamik şəkildə inkişaf edir, siyasi qarşılıqlı etimad möhkəmlənir, "Bir kəmər, bir yol"un birgə tikintisi çərçivəsində əməkdaşlıq güclənir, beynəlxalq arenada məhsuldar qarşılıqlı fəaliyyət dərinləşir.

Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm və Sizinlə birlikdə ənənəvi dostluğumuzun möhkəmlənməsində, iki ölkənin xalqlarının rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsində bundan sonra da səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və əmin-amanlıq, dost Azərbaycan xalqına isə xoşbəxtlik və tərəqqi arzulayıram.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

***

**Mərhəmətli və rəhmli Allahın adı ilə!**
**Zati-aliləri!**

Təbiətin yenidən canlandığı, firavan gələcəyin ümidli şəfəqi və Hicri-şəmsi təqvimi ilə 1404-cü ilin başlanğıcı olan Novruz bayramı münasibətilə Sizi və Azərbaycan Respublikasının hörmətli xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bahar təbiətin ahənginin təcəssümüdür, mehribanlıq, şəfqət və həyatın yenilənməsinin mənbəyidir. Ümid edirəm ki, bu yeni il bizim ölkələrimizin dost münasibətlərinə müstəsna transformasiya gətirəcək və xalqlarımızın rifah və firavanlığına xidmət edəcək.

Uca Allahdan Zati-alinizə cansağlığı və uğurlar diləyir, Azərbaycan Respublikasının xalqına isə xoşbəxtlik və tərəqqi, o cümlədən Novruz bayramını qeyd edən xalqların regionunda əlaqələrin və əməkdaşlığın daha da genişləndirilməsini arzulayıram.

***Məsud PEZEŞKİAN,***
***İran İslam Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Beynəlxalq Novruz bayramı münasibətilə Sizə və Sizin timsalınızda Azərbaycan Respublikasının qardaş xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Dünyanın bir çox ölkəsində geniş şəkildə qeyd olunan bu gözəl bayram baharın başlanğıcını və təbiətin oyanmasını özündə təcəssüm etdirir. Novruz bayramı müxtəlif ölkələr və mədəniyyətlər arasında mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsində əsas rol oynayır. Bu işıqlı bayram müasir dünyada humanist hisslərin yaranmasına və möhkəmlənməsinə ilham verən ümid simvoludur.

Qoy bu gözəl bayram Sizin və ölkənizin bütün xalqı üçün xoşbəxtlik, sevinc və yeni uğurlar gətirsin!

**Dərin hörmətlə,**

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

**Hörmətli İlham Heydər oğlu!**
**Dəyərli qardaşım!**

Baharın oyanışı və yenilənməsi bayramı – Novruz bayramı münasibətilə Sizə və bütün Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Qardaş xalqlarımız əsrlər boyu bu bənzərsiz bayramı qarşılıqlı mərhəmət və qayğı, xeyirxahlıq, birlik və dostluq kimi ali dəyərləri tərənnüm edən, insanı daim təbiətlə ahəngdar şəkildə yaşamağa səsləyən mübarək bayram kimi geniş qeyd edir və dəyərləndirirlər.

Son illərdə birgə səylərimiz nəticəsində ikitərəfli münasibətlərimizin bütün prioritet sahələrdə ardıcıl inkişaf edərək strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlməsi bizi sonsuz sevindirir.

Əminəm ki, bundan sonra da fəal dialoqlarımız, ortaq səylərimiz və birgə məqsədyönlü fəaliyyətimiz sayəsində dostluğumuz və hərtərəfli əməkdaşlığımız dinamik inkişaf edəcəkdir.

Bu əzəmətli və nurlu anlarda Sizə və bütün ailə üzvlərinizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə böyük uğurlar, dost Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, davamlı inkişaf və rifah arzulayıram.

**Səmimi ehtiramla,**

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

***

**Möhtərəm cənab Prezident!**

Təbiətin canlanmasının və torpağın oyanışının rəmzi olan, Türk xalqlarının hər il qeyd etdikləri çoxəsrlik tarixə malik Novruz bayramı münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Qədim tariximizin və irsimizin bir parçası olan Novruz bayramı ortaq adət-ənələrimizin, mənəvi dəyərlərimizin qorunması və təşviqi, eləcə də Türk birliyinin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Bu əlamətdar bayram münasibətilə Zati-alinizə, dost və qardaş Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirəm.

**Dərin hörmətlə,**

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

***

**Hörmətli İlham Heydər oğlu!**

Təbiətin oyanışının və həyatın yeni mərhələsinin başlanğıcının, daha yaxşı gələcəyə inamın rəmzi olan gözəl Novruz bayramı münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Belarus ilə Azərbaycan arasında mövcud olan xoşniyyətli münasibətlər dövlətlərimizin xalqlarının rifahı naminə ikitərəfli əlaqələrin bütün sahələrdə bundan sonra da genişlənməsinə kömək edəcək.

Bu əlamətdar bayram günündə Sizə möhkəm cansağlığı və planlarınızın uğurla həyata keçməsində uğurlar, ölkənizin əhalisinə sülh və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

***

**Möhtərəm İlham Heydər oğlu!**

MDB Parlamentlərarası Assambleya Şurasının – Müstəqil Dövlətlər Birliyi iştirakçılarının adından Novruz bayramı münasibətilə təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bu qədim bayram yeni həyatın rəmzidir, Birlik ölkələrinin bir çoxunun mədəni irsinin ayrılmaz hissəsidir.

MDB məkanında yaşayan xalqlar xeyirxahlıq, dostluq və qonaqpərvərlik ideyalarının təcəssümü olan Novruz ənənələrini qoruyub saxlayır və əziz tuturlar.

Möhtərəm İlham Heydər oğlu, bu gözəl bayram münasibətilə Sizə və dost Azərbaycan xalqına xoşbəxtlik, əmin-amanlıq, sülh və uğurlar arzulayıram.

**Hörmətlə,**

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibi***

***

**Zati-aliləri!**

Yeniləşmə və ümid bayramı olan Novruz bayramı münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına təbriklərimi çatdırır, yeni imkanlar, uğurlar və firavanlıq dolu bir mövsüm arzu edirəm.

Bu əlamətdar bayramın bizim regional əməkdaşlığımıza dair ümumi öhdəliyimizi daha da gücləndirməsini diləyirəm.

Fürsətdən istifadə edərək, həmçinin Zati-alinizi mübarək Ramazan bayramı münasibətilə də təbrik edirəm. Qoy bu bayram hamımıza sülh, firavanlıq və xoşbəxtlik gətirsin, bölgəmizdə birlik və həmrəyliyi daha da möhkəmləndirsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Əsəd Məcid XAN,***
***İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi***

**Zati-aliləri!**

Sizi və dost Azərbaycan xalqını əlamətdar Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bu bahar, yenilənmə və birlik bayramında Sizə xoşbəxtlik, möhkəm cansağlığı, ölkənizə isə sülh, tərəqqi və firavanlıq arzulayıram.

Novruz bayramı əsrlər boyu ölkələr arasında qarşılıqlı hörmət, dostluq, mehribanlıq rəmzi olmuşdur. Çoxəsrlik adət-ənənələrə və mədəni irsə malik olan Novruz xalqlar arasında qarşılıqlı hörmət əsasında qurulan əlaqələrin, sülhün və mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsində böyük əhəmiyyət daşıyır.

Mən qəti şəkildə inanıram ki, Gürcüstan ilə Azərbaycan arasında uzunmüddətli dostluq və strateji tərəfdaşlıq gələcəkdə də inkişaf edərək regional sülh və sabitliyi daha da möhkəmləndirəcək.

Zati-aliləri, Sizə dərin ehtiramımı bildirir, bu əlamətdar bayram münasibətilə dost Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm.

**Hörmətlə,**

***Mixeil KAVELAŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

***

**Zati-aliləri!**

İcazə verin, Gürcüstan hökuməti və gürcü xalqı adından Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edim. Bu bayram yeni həyat, birlik, rifah rəmzidir və bizim ölkələr arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq kontekstində əhəmiyyət kəsb edir. Sizə və Azərbaycan xalqına sülh, əmin-amanlıq, rifah arzulayır və ən xoş arzularımı çatdırıram.

Gürcüstan və Azərbaycan Respublikası arasında mövcud olan əlaqələrin səviyyəsini yüksək qiymətləndirirəm. Bu əlaqələr xalqlarımız arasında mövcud olan ənənəvi səmimi və mehriban qonşuluq münasibətlərinin təzahürüdür. Ümumi regional maraqlarla şərtlənən, ölkələrimiz arasındakı müxtəlif sahələrdə səmərəli və çoxtərəfli əməkdaşlığımız nümunəvidir və xalqlarımızın rifahı və inkişafı üçün möhkəm zəmin yaradır.

Əminəm ki, mövcud əməkdaşlığımız birgə səylərimizlə daha da möhkəmlənəcək. Qlobal çağırışlar fonunda regionda sülh və sabitliyin qorunub saxlanılması üçün bizim əməkdaşlığımızın olduqca böyük əhəmiyyət kəsb etdiyini bir daha vurğulamaq istərdim.

Zati-aliləri.

Fürsətdən istifadə edərək, bir daha Sizə ən yüksək ehtiramımı ifadə edirəm.

**Hörmətlə,**

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

***

**Zati-aliləri, hörmətli cənab Prezident!**

Baharın, yenilənmənin və rifahın rəmzi olan Novruz bayramı münasibətilə Sizi təbrik edirəm.

Bir çox xalqların qeyd etdiyi bu qədim bayram quruculuğun və birliyin ahəngini təcəssüm etdirir, bizə zəhmətsevərliyin, qarşılıqlı anlaşmanın və dəyişikliyə can atmağın vacibliyini xatırladır. Novruz əsrlər boyu olduğu kimi, bu gün də yalnız təbiət bayramı deyil, həm də dostluq ənənələrinin, anlaşmanın, qarşılıqlı hörmətin möhkəmlənməsinə xidmət edir.

Qoy bu bayram bizi yeni nailiyyətlərə, uğurlu əməkdaşlığa və cəmiyyətin rifahı naminə məhsuldar fəaliyyətə ruhlandırsın.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq, ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***German QREF,***
***Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Beynəlxalq Novruz bayramı münasibətilə ən səmimi təbriklərimizi və ürəkdən gələn xoş arzularımızı qəbul etməyinizi xahiş edirəm.

Qədim tarixə malik bu bayram mədəni irs və çoxəsrlik ənənələrin vəhdətinin təcəssümü kimi sülh və təhlükəsizlik, qarşılıqlı hörmət və dəstək ideyaları əsasında onun coğrafiyasındakı xalqlar arasında əlaqələrin inkişafında mühüm rol oynayır.

Novruzun əbədi yaradıcılıq ənənələri bizi xalqlarımız və ölkələrimiz arasında dostluq və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsi üçün daim səy göstərməyə sövq edir.

Tacikistan strateji tərəfdaşlıq çərçivəsində Azərbaycanla dövlətlərarası münasibətlərin indiki səviyyəsindən məmnunluq ifadə edir.

Əminəm ki, ölkələrimiz bu qədim bayramın yüksək ümumbəşəri dəyərlərinə əsaslanaraq çoxşaxəli münasibətlərinin məzmununun zənginləşdirilməsi üçün bundan sonra da birgə səy göstərəcək.

Bu əlamətdar günlərdə Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, ölkənizin qardaş xalqına isə xoşbəxtlik, firavanlıq, sülh və əmin-amanlıq, davamlı tərəqqi və rifah arzulayıram.

**Dərin hörmətlə,**

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli Prezident, Əziz Qardaşım!**

Zati-alinizin Ramazan bayramını səmimi-qəlbdən təbrik edirəm.

İslam aləminə və bütün bəşəriyyətə sülh, əmin-amanlıq gətirməsini arzu etdiyim mübarək bayramımız münasibətilə Cənabi-Haqqdan həmrəyliyimizi və birliyimizi gücləndirməsini diləyirəm.

Xalqım adından və öz adımdan Zati-alinizə cansağlığı, xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına isə xoş günlər və rifah arzulayıram.

**Hörmətlə,**

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

***

**Hörmətli Prezident!**

Sizi müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm, xoşbəxtlik və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

***

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Zati-alinizə mübarək Ramazan bayramı münasibətilə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq. Sizə cansağlığı və xoşbəxtlik arzulayırıq.

Allahdan diləyirik ki, bu mübarək bayramda Zati-alinizə və qardaş xalqınıza daha çox tərəqqi və firavanlıq nəsib etsin, həmçinin İslam ümmətimizi qüdrətli və sabit etsin.

Zati-alinizə salamlarımızı çatdırır və ehtiramımızı bildiririk.

**Qardaşınız,**

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı***

***

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Müqəddəs Ramazan bayramı münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm. Sizə cansağlığı və səadət diləyirəm.

Uca Allahdan bu mübarək bayramın hamınıza xeyir və bərəkət gətirməsini arzu edirəm. Həqiqətən O, duaları eşidən və qəbul edəndir.

Zati-aliləri, Sizə olan hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir***

***

**Cənab Prezident, Əziz Qardaş!**

Mübarək Ramazan bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycan Respublikasına daha da çox tərəqqi, rifah və əmin-amanlıq arzu edirəm. Birgə səylərimizlə ölkələrimizin və xalqlarımızın, həmçinin İslam ümmətimizin xoşbəxtliyi naminə Uca Allaha dua edirəm.

Bayramınız mübarək!

**Hörmətlə,**

***Əhməd əl-ŞARAA,***
***Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Mübarək Ramazan bayramı münasibətilə Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Uca Allahdan Sizə möhkəm cansağlığı, İslam ümmətinə xeyir-bərəkət və firavanlıq nəsib etməsini arzulayıram.

Bayramınız mübarək!

***Məhəmməd Yunis Əl-MƏNFİ,***
***Liviya Dövləti Prezident Şurasının Sədri***

***

**Zati-aliləri!**

Müqəddəs Ramazan bayramı münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırıram.

Zati-alinizə ən xoş arzularımı bildirir, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

***

**Zati-aliləri, Əziz Qardaşım!**

Müqəddəs Ramazan bayramı münasibətilə Əlcəzair xalqı, hökuməti adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş xalqınıza daha böyük tərəqqi və rifah arzulayıram. Uca Allahdan bu bayramı bizə və bütün İslam ümmətinə əmin-amanlıq, xeyir və bərəkət ilə yenidən nəsib etməsini diləyirəm.

Bu əlamətdar bayram münasibətilə qardaş xalqlarımızın mənafeyinə uyğun olaraq ölkələrimiz arasındakı qardaşlıq əlaqələrini gücləndirmək, İslam ümmətimizin rifah və sabitlik şəraitində tərəqqisinə töhfə vermək öhdəliyinə sadiqliyimizi bir daha ifadə etmək istəyirəm.

Zati-aliləri, Əziz Qardaşım, ən yüksək ehtiramımı və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə səmimi təbriklərimi çatdırır, xoşbəxtlik, əmin-amanlıq və uğurlar arzulayıram.

**Hörmətlə,**

***Abiy Əhməd ƏLİ,***
***Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri***

***

**Çox hörmətli İlham Heydər oğlu.**

Sizi və bütün həmvətənlərinizi möhtəşəm Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimizi çoxəsrlik dostluq, qardaşlıq və qarşılıqlı hörmət ənənələri ilə birləşdirən bu əlamətdar bayram təbiətin yenilənməsini simvolizə edir. Qoy bu bayram xalqlarımıza bol sevinc və səadət gətirsin!

Əminəm ki, Novruz bayramının müqəddəs dəyərləri xalqlarımızın rifahına, yüksək məqsəd və istəklərə nail olmağa yönəlmiş dövlətlərarası münasibətlərimizin daha da inkişafına töhfə verəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu gözəl bayram münasibətilə Sizə möhkəm cansağlığı və tükənməz qüvvət, ailənizə firavanlıq, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq və rifah arzu edirəm.

**Dərin hörmətlə,**

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu.**

Sizi və qardaş Azərbaycan xalqını İslam ümmətinin böyük bayramı – Ramazan münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Qoy bəşəriyyətin mənəvi saflaşmasının və hərtərəfli təkmilləşməsinin başlanğıcı olan bu müqəddəs bayramda xalqlarımızın birliyi möhkəmlənsin, xoşbəxtliyi artsın.

Hörmətli İlham Heydər oğlu, bütün müsəlmanların səbirsizliklə gözlədiyi və böyük sevinclə qeyd etdiyi bu müqəddəs bayram münasibətilə Sizə xoşbəxtlik və məsuliyyətli işinizdə böyük uğurlar, Azərbaycan xalqına isə əmin-amanlıq və firavanlıq arzu edirəm.

Allah niyyətlərimizi, xeyirxah əməllərimizi qəbul etsin, hamımız bir Ramazandan o biri Ramazana, bir ildən digərinə uğurla keçək.

Ramazan bayramınız mübarək!

**Ən xoş arzularla,**

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə, Azərbaycan Respublikasının hökumətinə və qardaş xalqına ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Ramazan bayramı mənəvi düşüncə, birlik və yenilənmə dövrüdür, dünyadakı müsəlmanları şəfqət, xeyirxahlıq və sülh ruhunda bir araya gətirir. Bu mübarək bayramın Azərbaycan xalqına və hökumətinə sevinc, rifah və davamlı harmoniya gətirməsini arzulayıram.

Somali Federativ Respublikası ölkələrimiz arasında olan dostluq və əməkdaşlıq əlaqələrinə önəm verir. Biz gələcək illərdə bu ikitərəfli əlaqələrin daha da gücləndiriləcəyinə ümidvarıq.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin. Sizə möhkəm cansağlığı və davamlı uğurlar arzulayıram.

**Hörmətlə,**

***Hasan Şeyx MAHMUD,***
***Somali Federativ Respublikasının Prezidenti***

***

**Zati-aliləri cənab Prezident!**

Müqəddəs Ramazan bayramı münasibətilə Zati-alinizə şəxsən öz adımdan və İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi və qurumları adından səmimi təbriklərimizi, ən xoş arzularımızı çatdırmaqdan şərəf duyuram.

Uca Allahdan Azərbaycan Respublikasının davamlı tərəqqisi, firavanlığı, İslam ümmətinin əmin-amanlığı, təhlükəsizliyi və rifahı üçün dua edirik.

Zati-aliləri cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Hissein Brahim TAHA,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

***

**Zati-aliləri, hörmətli cənab Prezident.**

Novruz bayramı münasibətilə Sizə və Azərbaycan xalqına Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Canlanmanı, ümidi və birliyi təcəssüm etdirən bu qədim bayram ailələri və icmaları sülh və firavanlıq ruhunda bir araya gətirərək dərin əhəmiyyət kəsb edir. Bu bayram münasibətilə şəxsən Sizə və Azərbaycan xalqına xoşbəxtlik, cansağlığı və davamlı uğurlar arzulayıram.

Mən əməkdaşlığımızın davamlı olmasını diləyir, xalqlarımız arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsini səbirsizliklə gözləyirəm. Bu arzularla bayramınızı bir daha təbrik edirəm.

**Hörmətlə,**

***Jelka TSVİYANOVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

***

**Hörmətli İlham Heydər oğlu.**

Sizi möhtəşəm bahar bayramı olan Novruz münasibətilə təbrik edirəm. Qoy bu bayram xalqlarımızın dostluğunu, birliyini daha da möhkəmləndirsin, hər bir ailəyə sevinc və bolluq gətirsin. Ortaq dəyərlərimizə və adət-ənənələrimizə əsaslanan Novruzun ölkələrimizə əmin-amanlıq, firavanlıq bəxş etməsini arzulayıram.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar bayram münasibətilə Sizə möhkəm cansağlığı, ailənizə firavanlıq, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq və sabitlik diləyirəm.

Ən xoş arzularla,

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

***

**Cənab Prezident!**

Müsəlman icmasının müqəddəs Ramazan bayramını qeyd etdiyi bir vaxtda Sizə, ailənizə səmimi təbriklərimi, cansağlığı, xoşbəxtlik və firavanlıq arzularımı çatdırıram.

Ramazan ayı müsəlmanlar üçün sülh, əmin-amanlıq və yüksək mənəviyyat dövrüdür. Bu ay həm də şəxsi inkişaf mənbəyi, təfəkkür və ünsiyyət baxımından mühüm əhəmiyyətə malikdir.

Ümid edirəm ki, bu mübarək ay ümumbəşəri paylaşma, həmrəylik və alicənablıq dəyərlərinin möhkəmləndirilməsinə töhfə verəcək, bu günün əsas çağırışları qarşısında fəaliyyətimizi birləşdirəcək.

Cənab Prezident, Sizə ən yüksək ehtiramımı bildirirəm.

***Bris Kloter Oliqi NQEMA,***
***Qabon Respublikasının keçid dövrü Prezidenti***

***

**Cənab Prezident, Əziz Qardaşım!**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə dostluq və qardaşlıq ruhunda ən səmimi təbriklərimi və salamlarımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Uca və Mərhəmətli Allah orucumuzu və dualarımızı qəbul etsin, İslam ümmətinə əmin-amanlıq, tərəqqi, həmrəylik və xoşbəxtlik bəxş etsin!

Cənab Prezident, Əziz Qardaşım, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Umaru Sisoku EMBALO,***
***Qvineya-Bisau Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Müqəddəs Ramazan bayramı münasibətilə Maldiv Respublikasının hökuməti və xalqı adından Sizə, Azərbaycan hökumətinə və xalqına səmimi təbriklərimizi çatdırırıq.

Ramazan ayı mənəvi yenilənmə, düşüncə və birlik dövrüdür, insanları imana, mərhəmətə və xeyirxahlığa ilhamlandıran aydır. Bu müqəddəs ayın başa çatmasını qeyd etdiyimiz vaxtda qoy bu bayram bizim dostluq əlaqələrimizi, əməkdaşlığımızı daha da möhkəmləndirsin, ölkələrimizə əmin-amanlıq və firavanlıq gətirsin.

Dua edirəm ki, Uca Allah Zati-alinizə və Azərbaycan xalqına sonsuz ruzi-bərəkət bəxş etsin. Bu Ramazan bayramında Sizə möhkəm cansağlığı və davamlı uğurlar arzu edirəm.

Həmçinin bu xoş fürsətdən istifadə edib İordan çayının qərb sahilində və Qəzzada fələstinlilərin iztirablarının yüngülləşdirilməsi və Fələstin xalqının öz müqəddəratını təyinetmə və paytaxtı Şərqi Qüds olmaqla müstəqil Fələstin Dövlətinin yaradılması işinə ədalətli və davamlı həll yolunun təmin edilməsi məqsədilə İslam ümmətini səylərimizi birləşdirməyə çağırıram.

**Hörmətlə,**

***Məhəmməd MUİZZU,***
***Maldiv Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Çoxmillətli Qaraçay-Çərkəz xalqı adından və şəxsən öz adımdan Sizi və günəşli Azərbaycan Respublikasının bütün müsəlmanlarını müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm.

Əminəm ki, Azərbaycanda müsəlmanlar Ramazan sınaqlarından dərin etiqad və ləyaqətlə çıxıb, mənəvi təmizliyə, mükəmmelləşməyə və yüksək idealların həyata keçməsinə səy göstəriblər. Bu müqəddəs ay bizə prioritetləri düzgün seçməyi, ruhun gücünü artırmağı və həyatda şəfqətin, quruculuğun, mərhəmətin və qarşılıqlı hörmətin əsas olduğunu öyrədir. Bu əbədi dəyərlər milli mənsubiyyətindən və etiqadından asılı olmayaraq bütün insanları birləşdirir.

Hörmətli İlham Heydər oğlu, bu müqəddəs bayram münasibətilə Sizə, yaxınlarınıza və Azərbaycanın bütün əhalisinə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və tərəqqi arzulayıram.

Qoy həmişə sülh, əmin-amanlıq və sevinc Sizinlə olsun, Azərbaycan isə öz ənənələrini qoruyub saxlayaraq və xalqlarımız arasında dostluğu möhkəmləndirərək inkişafa davam etsin.

**Hörmətlə,**

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

***

**Hörmətli İlham Heydər oğlu!**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Səmimi-qəlbdən inanıram ki, insanlığın ən böyük dəyərləri olan mənəvi təmizlik və yüksək əxlaqi keyfiyyətləri tərənnüm edən bu nurlu bayram ölkələrimiz arasında əlaqələrin inkişafına, dostluğun, qarşılıqlı dəstəyin və bütün müsəlman ümmətinin həmrəyliyinin möhkəmlənməsinə bundan sonra da töhfə verəcək.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və rifah arzulayıram. Qoy bütün dualarınız və xeyirxah əməlləriniz Uca Allah tərəfindən qəbul olunsun.

**Dərin hörmətlə,**

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu.**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Ümid edirəm ki, yüksək mənəvi dəyərləri tərənnüm edən, humanizmin, xeyirxahlığın və sülhpərvərliyin rəmzi olan bu nurlu bayram bütün müsəlman ümməti arasında qarşılıqlı anlaşmanın və etimadın möhkəmlənməsinə bundan sonra da töhfə verəcək.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və rifah arzulayıram. Qoy Uca Allah bütün dualarınızı qəbul etsin və bütün xeyirxah əməllərinizdə Sizə hər zaman uğur bəxş etsin.

**Dərin hörmətlə,**

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri***

***

**Hörmətli İlham Heydər oğlu.**

Beynəlxalq bayram – Novruz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı Sizə göndərməkdən şərəf duyuram.

Baharın gecə ilə gündüzün bərabər olduğu günlərində qeyd olunan beynəlxalq Novruz bayramı bəşəriyyətin ən qədim mədəni irslərindən biridir. Kökləri minilliklərin dərinliklərinə qədər uzanan bu gözəl bayram təkcə təbiətin oyanışının deyil, həm də qarşılıqlı ehtiramın, dinc yanaşı yaşamağın, qarşılıqlı anlaşmanın və zəhmətsevərliyin rəmzidir.

Qoy, bu əziz bayram Sizin və ölkənizin bütün xalqı üçün sülh, sevinc və yeni nailiyyətlərlə əlamətdar olsun.

**Dərin hörmətlə,**

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri,***
***Türkmənistan Xalq Məsləhətinin sədri***

***

**Hörmətli cənab Prezident!**

TÜRKSOY-un Baş Katibliyi, Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını qədim Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Türksoylu xalqların əziz Novruz bayramı səmimiyyət, xeyirxahlıq, dostluq və birlik rəmzi olaraq böyük mədəniyyət bayramıdır. Novruz mövzusu qardaş xalqlarımızın nəğmələrində, folklorunda, aşıq mahnılarında, milli oyun və meydan tamaşalarında, rəssamlıq və kino əsərlərində geniş tərənnüm edilir.

Qədim Türk yurdu olan Azərbaycanda bu bayram əsrlər boyu əziz tutulub, zəngin Novruz ənənələri qorunub yaşadılıb və bu gün də Zati-alinizin qayğısı və dəstəyi sayəsində geniş qeyd edilməkdədir.

Beynəlxalq TÜRKSOY təşkilatı yaradılandan etibarən Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin və incəsənət ustalarının da iştirakı ilə müxtəlif tədbirlər təşkil edərək mədəni sərvətimiz olan Novruzun zəngin milli-mənəvi dəyərlərini və ənənələrini dünyada geniş şəkildə təqdim etməkdədir.

Zati-alinizi, doğmalarınızı və qardaş Azərbaycan xalqını bu əziz bayram münasibətilə bir daha təbrik edir, möhkəm cansağlığı və xoşbəxtlik diləyir, Novruzun ölkənizə sülh, əmin-amanlıq və ruzi-bərəkət gətirməsini arzulayıram.

Ən dərin hörmət və ehtiramla,

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

***

**Möhtərəm cənab Prezident!**

Sizi təbiətin oyanışından xəbər verən, ülvi niyyətlər bayramı olan Novruz münasibətilə ürəkdən təbrik edir, fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı arzulayıram.

Novruz təbiətə, cəmiyyətə yeni nəfəs gətirərək ölkəmizdə hər bir ailəyə sevinc bəxş edir. Bu gün Sizin rəhbərliyinizlə ölkəmizin işğaldan azad olunmuş torpaqlarında böyük bərpa işləri həyata keçirilir, vaxtilə doğma torpaqlarından didərgin düşmüş həmvətənlərimiz öz yurdlarına qayıdır və onlar üçün müasir tələblərə cavab verən şərait yaradılır. Siz işğaldan azad olunmuş bölgələrimizi tez-tez ziyarət edərək göstərirsiniz ki, Azərbaycanın hər qarış torpağı Zati-aliniz üçün doğma və əzizdir, orada işlər Sizin ciddi nəzarətiniz altında həyata keçirilir.

Möhtərəm cənab Prezident, Sizin xalqa arxalanaraq Azərbaycanın bütövlüyü uğrunda apardığınız fövqəladə vacib siyasətiniz ölkəmizin hər bir vətəndaşı tərəfindən dəstəklənir.

Sizə ali dövləti fəaliyyətinizdə böyük uğurlar, cansağlığı və ailə səadəti arzulayıram.

**Dərin hörmətlə,**

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

***

**Çox hörmətli İlham Heydər oğlu!**

Dünyanın ən əziz və sevilən bayramlarından biri olan nurlu Novruz bayramı münasibətilə səmimi təbriklərimi və Sizə olan dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Novruz bəşəriyyətin zəngin mədəni irsinin ayrılmaz bir hissəsidir və özündə qarşılıqlı hörmət, sülhsevərlik və mehriban qonşuluq ənənələrini ehtiva edir, xalqlar arasında birliyin və dostluğun möhkəmləndirilməsində mühüm rol oynayır.

Bu bayram münasibətilə Sizə, doğmalarınıza və yaxınlarınıza, həmçinin bütün Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik və xeyirxahlıq arzulayıram.

**Dərin hörmətlə,**

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının***
***Həştərxan vilayətinin qubernatoru***

***

**Hörmətli İlham Heydər oğlu!**

Novruz bayramı münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Qədim dövrlərdən bəri dünyanın müxtəlif yerlərində yaşayan milyonlarla insan üçün bu bayram baharın gəlişini, təbiətin oyanmasını, həyatın yenidən başlanmasını, yaradıcılıq gücünü simvolizə və ifadə edir.

Qonaqpərvərlik və mehriban qonşuluq kimi ən gözəl xalq ənənələrini ehtiva edən Novruz bayramı cəmiyyətdə dostluğun və qarşılıqlı anlaşmanın möhkəmlənməsində xüsusi əhəmiyyət kəsb edir. Bu dəyərləri qoruyub saxlamaq və nəsildən-nəslə ötürmək çox vacibdir. Onlar əbədi mərhəmət, xeyirxahlıq və yaxınlara qayğı göstərmək ideallarına əsaslanır və bu gün də ümumbəşəri əhəmiyyətə malikdir.

Qoy yeni bahar Sizin və ölkənizin bütün qardaş xalqı üçün sevinc və xoş dəyişikliklərlə yadda qalsın!

Sizə bahar əhvali-ruhiyyəsi və cansağlığı diləyirəm.

**Hörmətlə,**

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri***

***

**Zati-aliləri, hörmətli cənab Prezident.**

Mübarək Ramazan bayramı münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Mərhəmət, dərin düşüncə və mənəvi saflıq dövrü olan Ramazan ayı nurlu bayram sevinci ilə başa çatdı. Mənəvi saflıq rəmzi olan bu bayramda ortaq dəyərləri bölüşən insanlar sülh və qarşılıqlı anlaşma ab-havasında bir araya gəlirlər. Bu əlamətdar günü qeyd edərkən əməkdaşlığın, qarşılıqlı hörmətin və tərəfdaşlığımızı möhkəmləndirən birgə səylərin əhəmiyyəti haqqında düşünürük.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və bütün təşəbbüslərinizdə uğurlar arzulayıram.

Qoy bu Ramazan bayramı Sizi yeni-yeni nailiyyətlərə ruhlandırsın.

Hörmətlə,

***German QREF,***
***Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri***

# Azərbaycan Prezidentinin Ramazan bayramı təbrikləşməsi

**Martın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müqəddəs Ramazan bayramı münasibətilə Prezident İlham Əliyevə və xalqımıza təbriklərini çatdırıb, ölkəmizə firavanlıq və ruzi-bərəkət arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib, öz növbəsində Rəcəb Tayyib Ərdoğanı, qardaş Türkiyə xalqını bayram münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıb.

Rəcəb Tayyib Ərdoğan təbriklərə görə Azərbaycan Prezidentinə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı dövlət başçıları qardaşlıq və müttəfiqlik münasibətlərinə əsaslanan Azərbaycan-Türkiyə əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıb və tezliklə yenidən görüşəcəkləri ilə bağlı ümidvarlıqlarını ifadə ediblər.

***

**Martın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında telefon danışığı olub.**

Pakistanın Baş naziri dövlətimizin başçısını və Azərbaycan xalqını müqəddəs Ramazan bayramı münasibətilə təbrik edərək, ən xoş arzularını çatdırıb.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev öz növbəsində Məhəmməd Şahbaz Şərifi və Pakistan xalqını bayram münasibətilə təbrik edib, qardaş Pakistana firavanlıq və ruzi-bərəkət arzulayıb.

Pakistanın Baş naziri təbriklərə görə təşəkkürünü bildirib.

Məhəmməd Şahbaz Şərif bu il ölkəmizə dövlət səfərini və Prezident İlham Əliyev ilə apardığı müzakirələri məmnunluqla xatırlayıb, səfər çərçivəsində verilmiş tapşırıqlara uyğun olaraq aidiyyəti dövlət qurumları tərəfindən ikitərəfli əməkdaşlığın inkişafı istiqamətində fəaliyyətin davam etdirildiyini qeyd edib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidenti və Pakistanın Baş naziri ölkələrimiz arasında iqtisadi, ticarət, enerji, sərmayələr və digər sahələrdə əməkdaşlığın inkişafına dair müzakirələr aparıblar.

***

**Martın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev arasında telefon danışığı olub.**

Şavkat Mirziyoyev Prezident İlham Əliyevi və qardaş Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib, xalqımıza firavanlıq və xoşbəxtlik arzulayıb.

Təbrikə görə təşəkkürünü bildirən dövlətimizin başçısı da öz növbəsində Özbəkistan Prezidentinə və qardaş özbək xalqına ortaq mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin təcəssümü olan Novruz bayramı münasibətilə təbriklərini çatdırıb, ruzi-bərəkət və firavanlıq arzu edib.

Telefon söhbəti zamanı qardaş xalqlarımızın iradəsindən irəli gələn Azərbaycan-Özbəkistan strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etməsindən, dövlət başçıları tərəfindən qarşıya qoyulan tapşırıqların ardıcıl surətdə icrasından və əməkdaşlığımızın gücləndirilməsi üçün birgə layihələrin həyata keçirilməsindən məmnunluq ifadə olunub. Bu xüsusda ticarət dövriyyəsinin artması, maşınqayırma, tekstil, elektrotexnika, enerji, aqrar, turizm və bir çox digər sahələrdə icra olunan layihələr qeyd edilib.

Azərbaycan və Özbəkistan prezidentləri qarşılıqlı maraq doğuran məsələlər və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

***

**Martın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon danışığı olub.**

Məsud Pezeşkian müqəddəs Ramazan bayramı münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib, ən xoş arzularını çatdırıb.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirərək, öz növbəsində İran Prezidentini və xalqını bayram münasibətilə təbrik edib.

Məsud Pezeşkian təbriklərə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Telefon danışığı əsnasında ölkələrimiz arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin dinamikasından məmnunluq ifadə olunub, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunulub, iqtisadi, ticarət, nəqliyyat, enerji və digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

# Birinci vitse-prezidentə təbrik məktubları

**Hörmətli Birinci vitse-prezident!**

Zati-alinizin və qardaş Azərbaycan xalqının Ramazan bayramını səmimi-qəlbdən təbrik edir, bu mübarək bayramın İslam aləmi və bütün dünya üçün sülhə, əmin-amanlığa və səadətə vəsilə olmasını diləyirəm.

Zati-alinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**Hörmətlə,**

*Cevdet YILMAZ,*
*Türkiyə Respublikasının*
*Vitse-prezidenti*

***

**Möhtərəm Mehriban xanım!**

Təbiətin oyanışı və yenilənməsi, xalqlarımızın minillik ənənələri və xeyirxah adət-ənənələrinin bənzərsiz təcəssümü olan Novruz bayramı münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Şərq Yeni ilində Sizə və ailə üzvlərinizə xoşbəxtlik, uğur və gözəl əhvali-ruhiyyə arzulayıram. Doğma ölkənizə rifah, abadlıq və əmin-amanlıq diləyirəm.

**Dərin ehtiramla,**

*Ziroatxon MİRZİYOYEVA,*
*Özbəkistan Respublikasının*
*birinci xanımı*

***

**Möhtərəm xanım, Zati-aliləri!**

Bütün müsəlman ümmətinin böyük sevinc və şadlıqla qarşıladığı mübarək Ramazan bayramı münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı və dərin ehtiramımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Uca Allah bütün dualarınızı, arzularınızı, ehsanlarınızı və xeyirxah əməllərinizi qəbul etsin, qardaş xalqlarımız arasındakı əzəli dostluq və mehribanlıq telləri daha da möhkəmlənsin.

Möhtərəm xanım, Zati-aliləri, qəlblərimizin mübarək Ramazan ayının nur və bərəkətindən işıqlandığı bu əlamətdar bayram günündə Sizə möhkəm cansağlığı, ailə səadəti, ocağınıza bərəkət və bolluq arzulayıram.

**Dərin hörmətlə,**

*Ziroatxon MİRZİYOYEVA,*
*Özbəkistan Respublikasının*
*birinci xanımı*

# Heydər Əliyev Fondunun şəhid ailələrinə Ramazan töhfəsi

**Aprelin 1-də Heydər Əliyev Fondunun dəstəyi ilə Ramazan bayramı münasibətilə tədbir keçirilib.**

Şəhid ailələrinin iştirak etdikləri bayram süfrəsində "Qurani-Kərim"dən ayələr oxunub, şəhidlərimizin ruhuna dualar edilib.

"Fire Land Group"un "Mənim oğlum qəhrəmandır" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunan tədbirdə daha sonra Azərbaycanın tanınmış incəsənət xadimləri çıxış ediblər.





# Almaniya Prezidenti Administrasiyası bu ölkənin Prezidentinin sosial media profilində yerləşdirilmiş postla bağlı Azərbaycan tərəfinə üzrxahlıq edib

**Almaniya Prezidentinin sosial media profilində artıq keçmişin qalığı olan qondarma rejimin bayrağının yerləşdirilməsi və onun altında yazılan mətn Azərbaycan tərəfinin ciddi narazılığına səbəb olub. Dərhal iki ölkənin Prezident administrasiyaları və Xarici İşlər nazirlikləri arasında təmaslar başlayıb. Almaniya tərəfi bu postun səhvən yerləşdirildiyini etiraf edərək onu dərhal çıxarıb. Almaniya Prezidenti Administrasiyasının rəhbəri adından ünvanlanmış məktubda baş vermiş bu hadisəyə görə üzrxahlıq ifadə olunaraq, məktubun mediaya verilməsinə razılıq bildirilib.**



Head of the Office of the President of the Federal Republic of Germany
State Secretary Dr. Dörte Dinger

31. März 2025

To
Hikmet Hajiyev
Assistant to H.E. the President of Azerbaijan
Baku

Honourable Hikmet Hajiyev,

For a short period of time, the wrong depiction of a flag and the accompanying text in reference to a region of Azerbaijan were published on the Federal President's social media. Once the mistake was detected, the post was immediately retracted.

The post was published due to a technical mistake and bears no significance with regard to Germany's well-known position on the territorial integrity of Azerbaijan.

I am very unhappy about this mistake. I would like to sincerely apologise for the wrong impression the post has created among some people in Azerbaijan.

The upcoming visit of the Federal President intends to strengthen the Azerbaijan-German partnership and support the ongoing peace process in the region.

Yours sincerely

D. Dinger

**AZƏRTAC məktubu və onun Azərbaycan dilində tərcüməsini təqdim edir.**

**Almaniya Federativ Respublikasının**
**Prezidenti Administrasiyasının rəhbəri**
**Dövlət katibi Dörte Dinger**
**31 mart 2025-ci il**

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevə**

**Hörmətli Hikmət Hacıyev.**

Federal Prezidentin sosial media hesabında qısa müddət ərzində Azərbaycanın bir regionuna aid bayrağın yanlış təsviri və onunla bağlı mətn dərc olunub. Səhv aşkar edildikdən sonra paylaşım dərhal silinib.

Bu paylaşım texniki səhv səbəbindən dərc edilib və Almaniyanın Azərbaycanın ərazi bütövlüyünə dair məlum mövqeyi ilə bağlı heç bir məna kəsb etmir.

Belə bir səhvə yol verilməsinə görə çox məyusam. Paylaşımın Azərbaycanda bəzi insanlarda yaratdığı yanlış təəssürata görə səmimi-qəlbdən üzr istəyirəm.

Federal Prezidentin qarşıdan gələn səfəri Azərbaycan-Almaniya tərəfdaşlığını möhkəmləndirmək və regionda davam edən sülh prosesinə dəstək vermək məqsədi daşıyır.

**Hörmətlə,**

***D. Dinger***

# Hikmət Hacıyevin İran prezidentinin müşaviri ilə görüşü



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev aprelin 1-də İran İslam Respublikası Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayi ilə görüşüb.**

Bu barədə Hikmət Hacıyev X sosial şəbəkə hesabında bildirib.

Prezidentin köməkçisi qeyd edib: "Görüş zamanı iki ölkənin dövlət başçılarının qoyduqları tapşırıqlara uyğun olaraq Azərbaycan və İran arasında ikitərəfli siyasi münasibətlərə dair geniş fikir mübadiləsi apardıq. Həmçinin 2025-ci ilin fevralında İrana səfər zamanı aparılmış danışıqların davamı olaraq qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlər müzakirə edildi".

**XQ**

# "Qəlbim sənindir" nadir incəsənət kompozisiyası Bakıda







**Aprelin 1-dən Heydər Əliyev Mərkəzində daha bir məşhur əsər nümayiş olunur. Belə ki, bu gün italiyalı heykəltaraş Lorenso Kuinnin (Lorenzo Quinn) nəfis Bohem büllurundan və 6500 illik palıd ağacından hazırlanan "Qəlbim sənindir" ("My heart is yours") əsərinin təqdimatı olub.**

Əsər ilk dəfə məhz Heydər Əliyev Mərkəzində nümayiş etdirilir.

Mərasimi açan Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov Mərkəzdə çoxlu sərgilərin keçirildiyini, mütəmadi olaraq İtaliya incəsənətinə müraciət edildiyini bildirib.

A.Ələkbərov ötən ilin sonunda COP29 çərçivəsində Lorenso Kuinnin "Təbiətdə tarazlıq" sərgisinin təqdimatının keçirildiyini və qonaqların Heydər Əliyev Mərkəzindəki bu sərgini çox bəyəndiklərini qeyd edib, müəllifə, sərginin kuratoruna və ekspozisiyanın ərsəyə gəlməsində əməyi keçənlərə təşəkkürünü bildirib.

"365 Art" şirkətinin təsisçisi, sərginin kuratoru Olqa Daniele "Qəlbim sənindir" əsərinin yekun formasının alınmasında müəllifin keçdiyi yolun kifayət qədər uzun olduğunu diqqətə çatdırıb. Deyib ki, hər hansı bir büllurun formaya salınması üçün onun məhz xüsusi üslubda işlənməsi mütləqdir. Qədim palıd materialı isə 6500 il qədər uzun tarix keçib və əsər üçün istifadə olunub.

Sərginin müəllifi Lorenso Kuinn "Qəlbim sənindir" əsərinin ilk dəfə məhz Heydər Əliyev Mərkəzində nümayiş etdirildiyini bildirib. O, əsərlərin insanları birləşdirməkdən, tarixçələri, ölkələri bir araya gətirməkdən ibarət olduğunu vurğulayaraq deyib: "Mən eşqə, məhəbbətə inanıram. İnsanlar görüşdükdə, onların qəlbləri birləşdikcə, əslində, onlar heç vaxt ayrılmırlar. Bir halda ki, insanlar arasında birləşmə var, o, artıq sarsılmazdır. Qədim palıd materialından hazırlanan "Qəlbim sənindir" əsəri isə daim davam edən münasibətlərin uzun ömrünə dəlalət edir".

Bu əsər nadir incəsənət kompozisiyalarından hesab olunur və kövrəkliyi, zərifliyi təcəssüm etdirir. Müəllif əsərin ifadəsini gücləndirmək üçün bir-birinə əks materiallardan istifadə edib. Belə ki, möhkəmliyi, gücü, qətiyyəti təcəssüm etdirən palıddan yaradılmış ürəyi olduqca həssas material sayılan Bohem kristalından hazırlanan incə əllər əhatələyib. Lorenso Kuinn daha çox insan əllərinin ifadəli təsvirləri ilə tanınıb, lakin o, ilk dəfədir ki, bunun hazırlanmasında büllurdan istifadə edib.

Hazırda Heydər Əliyev Mərkəzində Lorenso Kuinnin "Təbiətdə tarazlıq" fərdi sərgisi davam edir. "Qəlbim sənindir" kompozisiyası da bu sərginin davamı olaraq insanlıq və təbiət arasında əlaqə mesajını bir daha Heydər Əliyev Mərkəzindən ötürür.

***XQ***

# Milli Məclisin növbəti plenar iclası




**Aprelin 1-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib.**

Milli Məclisin sədri əvvəlcə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı danışıb. Sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb.

Parlamentin sədri iclasın gündəliyinə 15 məsələnin daxil edildiyini bildirib. O, ilk 4 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Nəqliyyat haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı çıxışında sənədin səsə qoyulmasını xahiş edib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev "Feldyeger rabitəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən bəhs edib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Konstitusiya Məhkəməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. Qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Sonra Sahibə Qafarova gündəliyin növbəti 7 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) təqdim edilib. "Kredit büroları haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinin mahiyyəti haqqında məlumat verilib. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi təqdim edilib. Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verilib. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) təqdim edilib. "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırılıb. Həmçinin Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin (ikinci oxunuş) mahiyyətindən söz açılıb. Qanun layihələri ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin sədri gündəliyin növbəti 4 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu söyləyib və deputatlardan çıxışlar zamanı birinci oxunuşun tələblərini nəzərə almalarını xahiş edib.

"Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verilib. Ailə Məcəlləsində, Mülki Məcəllədə, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verilib. İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsindən (birinci oxunuş) bəhs edib. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə isə bildirilib ki, layihədə Vergi Məcəlləsinin "Kommersiya və (və ya) vergi sirri" adlanan 30-cu maddəsinə 30.6-18-ci maddəsinin əlavə olunması təklif edilib. Bu qanun layihələri də səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

*XQ*

# İran Prezidentinin müşaviri Xarici İşlər Nazirliyində

**Aprelin 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İran Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayi ilə görüşüb.**



Görüş zamanı Azərbaycan və İran arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub. Azərbaycan-İran münasibətlərinin inkişafında qarşılıqlı səfərlərin və təmasların, o cümlədən mövcud siyasi dialoqun vacibliyi vurğulanıb, ümumi maraq kəsb edən məsələlərin müzakirəsinin əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi qeyd olunub.

İki ölkə arasında bir sıra, o cümlədən siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar sahələri üzrə əməkdaşlığın perspektivlərini müzakirə edən tərəflər xüsusilə Azərbaycan və İran tərəfindən birgə icra olunan bir sıra layihələrin regionumuzdan keçən nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynadığını qeyd ediblər.

Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının müvafiq sahələr üzrə mövcud əməkdaşlıq imkanlarının müzakirəsi baxımından əhəmiyyətli platforma olduğu diqqətə çatdırılıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), D-8 çərçivəsində əməkdaşlığın daha da gücləndirilməsinin əhəmiyyəti qeyd olunub.

* * *

Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Avropa Xarici Fəaliyyət Xidmətinin iqtisadi və qlobal məsələlər üzrə Baş Katibinin müavini Saymon Mordu və Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.

Görüş zamanı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, habelə qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər müzakirə olunub.

Azərbaycan və Aİ arasında iqtisadi, ticarət, enerji təhlükəsizliyi, yaşıl enerji, humanitar və sair istiqamətlər üzrə əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Xüsusilə, energetika sahəsində ölkəmizin təşəbbüsü ilə icra olunan nəhəng layihələrin Avropanın enerji təchizatı və təhlükəsizliyində mühüm rol oynadığı diqqətə çatdırılıb, ənənəvi enerji mənbələri üzrə əməkdaşlığın alternativ enerji sahəsində də davam etdirilməsinin vacibliyi vurğulanıb.

Nazir Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar barədə ətraflı məlumat verib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş insanlar dindirildi





**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası aprelin 1-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Məhkəmənin dünənki iclasında Ermənistanın dövlət qurumlarının, vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, Ermənistan dövləti tərəfindən aparılan təcavüzkar müharibənin gedişində çoxsaylı cinayət faktları törətmiş cinayətkar birliyə təqsirləndirilən şəxs Ruben Vardanyan 2020-ci ilin dekabr ayında qoşulduqdan sonra həmin birlik tərəfindən törədilən cinayətlər nəticəsində zərərçəkmiş şəxslər dindirilib.

İclasa sədrlik edən Zeynal Ağayev dindirmədən əvvəl zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələrini izah edib.



Zərərçəkmiş şəxs, Azərbaycan Müdafiə Nazirliyinin işğaldan azad edilmiş Kəlbəcər rayonunun "N" saylı hərbi hissəsinin maddi-texniki təminat bölməsinin rəisi Söhbət Şükürov ifadə verərək xidmət yerinin Ermənistan silahlı qüvvələri ilə təmas xəttindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, Ermənistan Silahlı Qüvvələrinin keçirdiyi hərbi təxribat zamanı minaatanlardan açılmış atəş nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldığını bildirib.

Bundan başqa, ifadə verən Azərbaycan Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin tibb bölməsinin feldşeri Samir Yusifov Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunda genişmiqyaslı təxribat xarakterli hərəkətlər törədilməsinin qarşısı alınan zaman Azərbaycan Silahlı Qüvvələrinin şəhid olmuş hərbi qulluqçularının meyitlərini atəş altından çıxarmaq istəyərkən Ermənistan silahlı qüvvələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldığını bildirib.

Məhkəmə istintaqı zamanı dindirilən zərərçəkmiş şəxslər Samir Kərimov, Orxan Nəcəfov, Əliyar Məmmədov, Əli Qarazadə, Qurban Qurbanov, Hüseynbala Sayıllı, Rəhman Qasımov, Ülvi Musayev, Ruslan Əliyev, Bəxtiyar Salmanov, Ariz Qəhrəmanov, Azər Abdullayev, Tofiq Abışov, Asif Mikayıllı, Qasım Qəribov, Anar Nəbiyev, Ehtiram Səmədov, Rəşmi Hümbətov, Ceyhun Rzaquliyev, Yunis Abdiyev, Dilqəm Səfərov, Əhməd Əhmədzadə və digərləri təqsirləndirilən şəxs Ruben Vardanyanı media və sosial şəbəkələr vasitəsilə tanıdıqlarını, onunla şəxsi tanışlıqlarının olmadıqlarını bildiriblər.

Onlar hərbi xidmətdə olarkən Kəlbəcər və Ağdam rayonlarında Ermənistanın hərbi təxribatı zamanı müxtəlif təyinatlı silahlardan, o cümlədən snayper tüfəngindən açılmış atəş, minaatanların mərmilərinin partlaması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldıqlarını bildiriblər.

Dindirmədən sonra zərərçəkmiş şəxslər hakimlərin, dövlət ittihamını müdafiə edən prokurorların xidmət yerləri, hərbi təxribatların törədildiyi konkret ərazilər, hadisə nəticəsində yetirilmiş xəsarətlərin ağırlıq dərəcəsi və lokalizasiyası barədə suallarını cavablandırıblar.

Ardınca məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası aprelin 8-nə təyin olunub.

*XQ*

# Almaniya səfiri XİN-ə çağırılıb

**Martın 31-də Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemann Xarici İşlər Nazirliyinə çağırılıb.**

Görüşdə Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Ermənistana səfəri çərçivəsində rəsmi instaqram səhifəsində Azərbaycanın keçmiş işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "bayrağı" paylaşılmaqla ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı edilmiş paylaşıma görə kəskin etiraz bildirilib.

Bölgəyə səfər zamanı bu açıq siyasi təxribatın qəbuledilməz olduğu, Almaniya tərəfinin bu paylaşıma görə ictimai şəkildə üzrxahlıq etməsinin zəruriliyi diqqətə çatdırılıb.

Almaniya Prezidentinin bu paylaşımının Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin dəstəkləndiyi barədə bəyanatlara, davam edən sülh prosesinə zidd olduğu vurğulanıb.

Bununla yanaşı, Qarabağ bölgəsinin erməni sakinləri barədə fikirlər ifadə olunarkən Azərbaycanın keçmiş işğal edilmiş ərazilərindən və Ermənistandan zorla qovulmuş 1 milyondan artıq azərbaycanlının hüquqlarına məhəl qoyulmamasının ölkəmizə qarşı qərəzli münasibətin daha bir göstəricisi olduğu bildirilib.

Azərbaycanın 30 ilə yaxın müddətdə davam etmiş münaqişəni hərbi-siyasi yolla həll etdiyi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdiyi, münaqişənin keçmişdə qaldığı Almaniya tərəfinin diqqətinə çatdırılıb. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi olmadığı xatırladılıb. Ərazilərimizə istinad edilərkən mövcud olmayan, siyasi qərəzli və saxta adlardan istifadədən çəkinməyin zəruriliyi diqqətə çatdırılıb.

*XQ*

# Mövqelərimiz atəşə tutulub

Martın 31-i saat 17:00-dan aprelin 1-i saat 04:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər və Gorus rayonlarının Zərkənd, Zod, Aşağı Şorca, Yuxarı Şorca, İstisu, Xanazax və Xəznəvar yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bu barədə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi məlumat yayıb.

*XQ*

# Milli ideya XXI əsrin yeni geosiyasi çağırışları fonunda



IV MƏQALƏ

## Milli ideya və milli ideologiyanın müqayisəsi

XXI əsrin yeni çağırışları fonunda milli ideyada tarixi yaddaşın cəmiyyəti birləşdirici aspektdə yeri və rolunun konseptual müəyyən edilməsi üçün müəyyən nəzəri təhlillər vacibdir. Bunu milli ideologiya kontekstində reallaşdırmaq gərəkdir.

Müstəqil dövlətlərdə milli ideya bütün hallarda (o cümlədən fəlsəfi və siyasi-nəzəri yanaşmalarda) milli ideologiya fonunda özünü təsdiq edir və eyni zamanda, funksiyasını yerinə yetirir. Milli ideyanın məzmun, mahiyyət və məqsəd sərhədləri milli ideologiya çərçivəsində ola bilər. Həmin anlamda milli ideya milli ideologiyanı məqsəd baxımından aşmamalıdır. Bu, milli ideya ilə milli ideologiyanın fəlsəfi müqayisəsinin mərkəzi tezisidir.

Çünki fəlsəfi yanaşsaq, milli ideya ilə milli ideologiyanı iki anlayışın qarşılıqlı münasibətlərində dərk etməliyik: Birincisi, onları "millilik" birləşdirir, yəni mahiyyətləri, məzmunları və məqsədləri "milli" adlandırılan məfhumun semantik və funksional özəllikləri ilə bağlıdır. İkincisi, onların fəlsəfi anlamda fərqləri "ideya" ilə "ideologiya" anlayışlarının məna yükü ilə müəyyən edilir.

### Millilik

"Millət", "milli", "milli mənsubluq" anlayışlarına fəlsəfə, hüquq, sosiologiya və kulturologiyada fərqli izahlar verilir. Biz burada "millilik" anlayışı altında Vank Olivye (ABŞ) və A.Y.Suxarev (Rusiya) mənasında "vətəndaşlıq" və "milli dövlət" anlayışlarının məna çalarlarının kəsişmə sahəsində mövcud olan, Aristotel anlamında "bu cəmiyyətə və ya bu dövlətə məxsus" olan fenomen kimi qəbul edirik. Yəni bu anlamda etnik mənsubluğu inkar etmədən əsas kimi fərdin vətəndaş olaraq kollektiv identikliyini dərk etməsi dərəcəsi ilə bağlı təsəvvür edirik. Bu mənada da vətəndaşı olduğun dövlətin "milliliyi"ni və üzvü olduğun cəmiyyətin özəlliyini əsas tutaraq düşünmək və yaşamaq qabiliyyəti deməkdir. "Milli fərd" mənsub olduğu etnosun deyil, üzvü olduğu cəmiyyətin və vətəndaşı olduğu dövlətin maraqlarını daha əhəmiyyətli sayır. Burada "milli dövlət" konkret millətin "özünütəyin formasının" (V.Olivye, A.Y.Suxarev) rəmzi ifadəsi kimi dərk edilir.

Deməli, milli dövlət, hər şeydən öncə, cəmiyyətin və xalqın iradəsini ifadə edir. Millilik müasir müstəqil dövlət üçün dövlətçiliklə vətəndaşlığın sintezində anlam kəsb edir. Bu bağlılıqda Azərbaycan Prezidenti İlham Əliyevin həmişə "Dövlət Azərbaycan xalqının iradəsini ifadə edir" fikrini səsləndirməsini xatırlayaq.

O cümlədən, 2024-cü il fevralın 14-də keçirilən andiçmə mərasimində İlham Əliyev demişdi: "44 günlük Vətən müharibəsi, bir daha demək istəyirəm, bizim əyilməz ruhumuzu göstərmişdir, Azərbaycan xalqının iradəsini göstərmişdir, Azərbaycan dövlətinin gücünü göstərmişdir. Xalq bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində bütün tarixi və strateji vəzifələr təmin edildi... Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik".

Məsələnin digər tərəfi isə vətəndaşlıq və vətəndaş cəmiyyətinin yaradılması ilə əlaqəlidir. Dövlət başçısı bu bağlılıqda bəyan etmişdir: "Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var".

Beləliklə, millilik müasir mərhələdə milli dövlətçilik və vətəndaşlıq anlayışları ilə sıx bağlılıqda dərk edilir. Təkrar etmək istərdik: millilikdə dövlətqurucu etnosun etno-mədəni, tarixi, siyasi, idarəetmə təcrübəsi aparıcı yer tutur.

### Artefakt

"Artefakt" latıncadan tərcümədə "insan məharəti qanunları üzrə yaradılmış" məfhumunu ifadə edir. Yəni artefakt insanın yaradıcı fəaliyyətinin məhsuludur. Artefaktın mədəni mahiyyətli olması üçün onun təcrübə vahidi kimi mövcudluq xarakteristikaları ilə simvolik məzmununu sintez etməsi lazımdlr. Bu o deməkdir ki, şüuri hadisə olaraq artefakt real mədəni mahiyyətini o zaman alır ki, birincisi, şüurda mövcudluğu davamlı və dayanıqlı olur, ikincisi, müəyyən rəmzi məzmunu ehtiva edir.

Bu, mürəkkəb idraki prosesdir və burada onun detalları üzərində dayanmaq faydalı olmazdı. İdeya kontekstində əsas məqam artefaktın psixoloji, iradi və məntiqi "fakt" kimi özünütəsdiq əsasında mədəni mühitdə konkret məzmun almasından ibarətdir. Bu, artefaktın idraki məfhum kimi, intellektual fakta çevrilməsi və orada özünü təsdiq etməsi deməkdir. Yəni artefakt intellektin gündəminə gətirilməlidir. Bu halda onun şüuri təcrübə olmaq imkanı meydana gəlir.

Belə alınır ki, artefakt şüuri təcrübə formalarından biri kimi məntiqi məzmun aldıqdan sonra intellektin gündəminə gətirilir və intellektual fakt kimi dərketmə prosesinin elementlərindən biri statusunu alır. Bununla artefaktın psixoloji və şüuri mahiyyəti kültür mühitində intellektual əməliyyat sayəsində özünü təsdiq etməsi nəticəsində o, əyaniləşir, aktuallaşır və reaktuallaşır (təkrar-təkrar özünütəsdiq edir).

Deməli, birincisi, müasir fəlsəfi-elmi baxışlara görə, ideyanın yaranmasında artefakt ciddi rol oynayır, ikincisi, buna baxmayaraq, hər artefakt ideya ola bilmir. Millilik məsələsində də ideyanın milli olması kökündə artefaktın kültür mühiti kontekstində koqnitiv (sırf idraki) və funksional özəllikləri dayanır. Burada artefaktın intellektual fakta çevrilərək rəmzi məna kəsb etməsi həlledici rol oynayır.

### İdeya

İdeya artıq artefaktdan daha çox semantik və funksional anlam kəsb edir. İdeyaya fərqli tərif verirlər, lakin bütün hallarda ideyada məqsəd, dünyanı dərk etməyə istiqamətlənmək və hətta onu dəyişmək çaları əksini tapır. Bu anlamda ideya forma ilə məzmunun vəhdəti də ola bilər. İlahi qaynaqlı şərtlərdən formalaşa və ya birbaşa insan şüurunun özünün yaratdığı fenomen ola bilər.

Bundan başqa, hər bir variantda ideyanın formalaşmasında sosial, psixoloji, məntiqi, intellektual və mədəni artefaktlar ciddi rol oynayırlar. Çünki artefaktlar kökdən insanın fərdi mövcudluğu və fəaliyyəti ilə kollektiv reallıq arasında mənəvi, şüuri və iradi bağlantıları qurur. Artefakt konkret fərdiliyi kollektiv gerçəkliklə uyğunlaşdıran məntiqi-psixoloji proses kimi ideyanın bazasında dayanır. Buna görə də ideyanı daha çox zəka hadisəsi kimi də dərk etmişlər (Platon). Platona görə, ideya əşyanın həqiqi məzmunu, nümunəsi, modelidir. Dekard isə ideyanı əşyanın mahiyyətinin insan şüurunda inikası (əks olunması) kimi təsəvvür edirdi. Hər iki yanaşma üçün ortaq olan məqam ideyanın məzmun, şüuri və intellektual fakt və məqsəd kimi praktiki-tətbiqi aspekti də özündə ehtiva etməsindən ibarətdir.

### Milli ideya

İdeyanın yuxarıdakı təsvirindən belə alınır ki, o, şüuri və intellektual fakt kimi həmişə konkret kollektiv mühitlə sıx bağlıdır. İnsanın artefakları müəyyən məqsəd və məzmunda aktuallaşmasa və özünü təsdiq etməsə, onun ideyaya çevrilməsi prakitiki baxımdan faydasızdır. Bu halda artefakt yalnız sonrakı fəlsəfi, elmi və s. araşdırmalar üçün nəzəri və abstrakt (mücərrəd) arqument rolunu oynaya bilər. İdeyanın isə praktiki-tətbiqi imkanları kontekstində mənası vardır.

Onu vurğulayaq ki, fəlsəfədə ideyadan konseptə və ondan konsepsiyaya məntiqi keçidlər məhz onun reallaşması kontekstində dərk edilir. Belə ki, "konsept" hər hansı hadisələrin dərk edilməsi, izahı üçün müəyyən anlam tərzi, aparıcı ideyalar sistemidir. Lakin bu səviyyədən məntiqi baxımdan daha ümumi və yüksək olanı konsepsiyadır ki, onda anlayışların sistemi mövcuddur.

Bu yanaşma prizmasında milli ideya artefaktın intellektual fakt statusunda kollektiv özşüurda cəmiyyətin mövcudluğu və inkişaf etməsini ehtiva edən əsas faktorlar kompleksidir. Yəni milli ideya milli özşüurun əsas atributudur (ayrılmaz tərkib hissəsi). O, ona görə millidir ki, verilən tarixi mərhələdə bütövlükdə toplumu əhatə edən mühitdə cəmiyyətin mövcudluq və inkişaf şərtlərinə uyğun olan kontekstləri təmsil edir. Yəni ideya o zaman "milli" olur ki, cəmiyyət miqyasında kollektiv şüurun özşüuru üç aspektdə dominant rol oynayır. Birincisi, kollektiv şüurda konkret intellektual artefaktlar aktual yaddaş elementi kimi dayanıqlıdır, ikincisi, özşüur fərdi və toplum miqyaslarında cəmiyyətin maraqlarına köklənir, üçüncüsü, kollektiv şüurun yaddaş keyfiyyəti praktiki müstəvidə feili keyfiyyətin yaranmasında fəal rol oynayır. Xeyli mürəkkəb olan bu fəlsəfi tezisləri daha aydın şəkildə izah edək.

Öncə, şüurun fərdi və kollektiv səviyyələrində ümumi maraqları ifadə edən elə "faktlar" olmalıdır ki, onlar keçici deyil, dayanıqlı və yaddaş olmaq səviyyəsində mövcud olsunlar. Bunun üçün onlar fərd və kollektiv üçün intellektual fakt "gerçəkliyi" statusuna yüksəlməlidirlər. Sonra, intellektual dayanıqlı fakt kimi, şüur vahidləri yaddaşın reaktuallaşması (təkrar-təkrar aktuallaşması) sayəsində davranışın davamlı elementinə çevrilməlidir. Yəni milli şüur özşüurun yaddaş və praktiki fəaliyyət aspektlərinin sintezində formalaşa bilər. Burada cəmiyyət həyatında şüuri faktın mədəni fakta çevrilməsi zəruri və əsas şərtdir. Bundan kənarda milli şüur faktiki mövcud olmur! Daha sonra, milli şüur daim özşüurun (fərdin və toplumun özşüuru statusunda) cəmiyyət maraqlarına köklənmiş artefaktlarını yaddaşın intellektual fakt kimi praktiki fəaliyyətdə təzahür etməsi mexanizmlərini aktiv saxlamalıdır. Yəni milli özşüur özünü aktivləşdirə biləcək mexanizmləri həyata keçirmək üsullarına malik olmalıdır.

Bu qısa izahlardan milli ideyanın fəlsəfi dərki ilə bağlı bir neçə qənaət alınır. Birincisi, milli ideyanın praktiki və tətbiqi olması üçün həmişə yaddaşa (o cümlədən, tarixi yaddaşa) ciddi ehtiyacı vardır. Burada milli ideya tarixi yaddaşın toplumun kollektiv maraqlarına uyğun tərəfinin aktuallaşmasını tələb edir. Lakin tarixi yaddaşın toplum birliyinə əngəl olan artefaktlarını da diqqətdən kənarda saxlamır, çünki cəmiyyətin maraqlarının müəyyən edilməsində onlar neqativ faktlar kimi, istiqamətverici rol oynayırlar. Bu məqam kifayət qədər nəzərə alınmadıqda milli şüur zaman-zaman tənqidi düşüncə qabiliyyətini itirir ki, bu da sonucda ya məhvə, ya da şovinizmə aparıb çıxarır. Toplumda özünə yalançı və əsassız istisnalıq keyifyyəti aşılayır. Belə bir yanaşma tədricən özünütəcrid, riyakarlıq, özündən razılıq, ifrat eqoizm, ultraradikallıq, şovinizm, "kollektiv şizofreniya" və s. kimi təhlükəli amillər meydana gətirir. Dünyada hazırda bu mərəzlərdən ən çox ziyan görən toplumlardan biri erməni cəmiyyətidir. Başqaları da var. Buna görə də fərdi və kollektiv miqyaslarda tənqidi düşüncə mədəniyyətinin daim inkişaf etdirilməsi dövrün tələblərinə uyğun milli ideyanın yaranmasında ciddi rol oynayır.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Azərbaycan–İran: pozitiv gündəlik perspektiv üçün böyük təminatdır

## *Əməkdaşlıq diapazonunun zənginliyi münasibətlərin dərinləşəcəyinə inam yaradır*

**İlk üç ayını yola saldığımız 2025-ci ili Azərbaycan-İran münasibətlərinin intensivliyi baxımından əlamətdar saymaq olar. Bu, nikbinlik yaradır. Artıq əminliklə söyləyə bilərik ki, ölkələr arasındakı münasibətlərin soyuqluq fazası tam şəkildə aradan qalxıb. Buna görə nikbinliyimizdə sevinc payı da var. Sevincimizi şərtləndirən isə qarşılıqlı əlaqələrin geniş diapazona malik olması və daha da zənginləşməsinə bəslədiyimiz dərin inam hissidir.**



Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dünən İran İslam Respublikası Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayi ilə görüşüb. Bu barədə cənab Hacıyev "X" sosial şəbəkə hesabında paylaşım edib.Prezidentin köməkçisi bildirib: "Görüş zamanı iki ölkənin dövlət başçılarının qoyduqları tapşırıqlara uyğun olaraq Azərbaycan və İran arasında ikitərəfli siyasi münasibətlərə dair geniş fikir mübadiləsi apardıq. Həmçinin 2025-ci ilin fevralında İrana səfər zamanı aparılmış danışıqların davamı olaraq qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlər müzakirə edildi".

Yada salaq ki, H.Hacıyev İrana xatırladığı səfəri zamanı da cənab Sənayi ilə görüşmüş, təmas zamanı Bakı–Tehran ikitərəfli əlaqələri və regional əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılmışdı. Görüşdə ölkəmizin H.Hacıyev tərəfindən səsləndirilmiş mövqeyi bu olmuşdu ki, Azərbaycan İranla heç bir məhdudiyyət olmadan və qarşılıqlı fayda əsasında mehriban qonşuluq şəraitində siyasi, iqtisadi və mədəni əlaqələri inkişaf etdirməkdə maraqlıdır. Münasibətlərdə əsas məqam isə etimadın gücləndirilməsi və anlaşılmazlıqların aradan qaldırılmasıdır. Hesab edirik ki, bu mənada H.Hacıyevin "Azərbaycan tərəfdən İrana heç bir təhdid olmayacaq" fikri böyük təminatdır.

Daha bir təminat isə cənab Sənayi dilə gətirmişdi. O demişdi ki, Azərbaycan İran üçün təkcə mühüm və dəyərli qonşu deyil, iki ölkənin xalqları bir-birinə qohum və dostdurlar. Onun fikrincə, Azərbaycan–İran münasibətlərinin səviyyəsi sırf diplomatik formatdan kənara çıxmalı, digər dövlət və özəl sahələrə də yayılmalıdır: "İnsanlar arasında təmasların dərinləşməsi əməkdaşlığın inkişafına böyük təsir göstərəcək. İranın öz qonşuları, o cümlədən Azərbaycan ilə münasibətlərdə əsas məqsədi strateji əlaqələr qurmaq, istənilən gərginlikdən uzaq olmaqdır".

Qeyd edək ki, H.Hacıyev İrana bu ilin fevralındakı səfəri zamanı ölkənin Prezidenti Məsud Pezeşkian tərəfindən də qəbul edilmişdi. O, Prezident İlham Əliyevin səmimi salamlarını və ölkəmizə səfərə dəvətini İranın dövlət başçısına çatdırmışdı. Öz növbəsində cənab Pezeşkian salamlara və dəvətə görə təşəkkürünü bildirmiş və onun da səmimi salamlarını Azərbaycanın liderinə çatdırılmasını xahiş etmişdi.

Onu da bildirək ki, İran Prezidenti ölkəmizin baş naziri Əli Əsədovu da Tehranda qəbul etmişdi. Ölkəmizin hökumət rəhbərinin bu ilin fevralında İrana işgüzar səfəri çərçivəsində reallaşmış görüşdə Azərbaycan–İran əlaqələrinin dostluq və mehriban qonşuluq prinsipləri əsasında inkişaf etdirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın yeni məzmunla zənginləşdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmış, nəqliyyat, energetika və neft-qaz sahələrində həyata keçirilən layihələrin icrası ilə bağlı məsələlər nəzərdən keçirilmişdi. Təmas zamanı Ə.Əsədovun Tehranda iştirakçısı olduğu Üçüncü Xəzər İqtisadi Forumunun əhəmiyyəti vurğulanaraq, Azərbaycanın Xəzər dənizinə sülh, dostluq və əməkdaşlıq dənizi kimi baxdığı bir daha diqqətə çatdırılmış, habelə regiondakı yeni reallıqlar nəzərə alınaraq aktual məsələlər müzakirə olunmuşdu.

Bir məqamı da vurğulayaq ki, bu ilin fevral ayı Azərbaycan-İran hərbi əməkdaşlığının müzakirəsi baxımından da əlamətdar olub. Belə ki, həmin ay Azərbaycan Hərbi Dəniz Qüvvələri komandanının birinci müavini - qərargah rəisi, birinci dərəcəli kapitan Teymur Mürşüdov Pakistanın Kəraçi şəhərində keçirilmiş "AMAN-25" çoxmillətli dəniz təlimi və "AMAN" Dialoqu çərçivəsində İranın Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Şəhram İrani ilə görüşmüşdü. Görüşdə hər iki ölkənin regional maraqlarını özündə birləşdirən Xəzər dənizinin təhlükəsizliyinin təmin edilməsi üçün hərbi dənizçilər arasında münasibətlərin inkişaf perspektivləri ətrafında geniş diskussiya aparılmış, eləcə də qarşılıqlı təcrübə mübadiləsi məqsədilə dəniz sularında birgə təlimlərin təşkilinin vacibliyi vurğulanmışdı.

Hərbi əməkdaşlıqdan söz düşmüşkən, deyək ki, ötən ilin noyabrında İranın Ərdəbil vilayətinin Aslanduz yaşayış məntəqəsi yaxınlığında Azərbaycan Ordusu Quru Qoşunlarının və İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Quru Qoşunlarının xüsusi təyinatlıları ilə "Araz – 2024" birgə taktiki təlimi keçirilmişdi. Təlimdən əvvəl isə hər iki ölkənin nümayəndə heyətlərinin yüksək səviyyəli üzvlərinin qatıldıqları komanda-qərargah iclasında təlimin mərhələləri və epizodlarının icra olunması üzrə ardıcıllıq müəyyənləşdirilmiş, təhlükəsizlik qaydaları diqqətə çatdırılmışdı.

Xatırladaq ki, bu ilin yanvarında ölkəmizin baş nazirinin müavini Şahin Mustafayev Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Dövlətlərarası Komissiyasının 16-cı iclasında iştirak məqsədilə İranda səfərdə olmuşdu. Sözügedən komissiyanın Azərbaycan tərəfindən həmsədri olan Ş.Mustafayevin başçılıq etdiyi nümayəndə heyəti də İranın dövlət başçısı tərəfindən qəbul edilmişdi. Görüşdə Bakı–Tehran əlaqələrinin mövcud vəziyyəti və gələcək inkişaf pespektivləri müzakirə olunmuş, o cümlədən iqtisadiyyat, nəqliyyat, energetika, ticarət, investisiya və humanitar sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi və həyata keçirilən birgə layihələrin önəmi vurğulanmışdı.

Ş.Mustafayev İrana səfəri gedişində ölkənin Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Əkbər Əhmədian ilə də görüşmüşdü. Görüşdə vurğulanan başlıca məqam bu olmuşdu ki, iki qonşu ölkə arasında həyata keçirilən iqtisadi layihələr hər iki dövlətin milli maraqlarına uyğundur. Qarşılıqlı münasibətlərin inkişafı regionda sabitliyin, dayanıqlı inkişafın qarantı ola bilər və bu əlaqələrin inkişafı zəruridir. Təmas zamanı, həmçinin, İran ilə Azərbaycan arasında qarşılıqlı səfərlərin artırılması yollarına nəzər salınmış, eləcə də Qafqaz regionunda baş verən siyasi proseslər ətrafında fikir mübadiləsi aparılmışdı.

İlk üç ayını yola saldığımız 2025-ci il yalnız Azərbaycandan İrana yüksək səviyyəli səfərlər baxımından əlamətdar olmamışdı. İrandan da Azərbaycana səfər gerçəkləşmişdi. Bu baxımdabn İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibafın Asiya Parlament Assambleyasının 15-ci plenar iclasında iştirak məqsədilə ölkəmizdə olması vurğulanmalıdır. Səfər çərçivəsində cənab Qalibaf Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova tərəfindən qəbul edilmişdi. Yeri gəlmişkən, bu, İran İslam Şurası Məclisinin hazırkı sədrinin ölkəmizə ilk səfəri kimi də tarixə düşmüşdü.

Cənab Qalibaf S.Qafarova ilə görüş zamanı bildirmişdi ki, Azərbaycan və İran xalqları ortaq tarixi, dini və mədəni dəyərləri bölüşür, mövcud amil hazırkı münasibətlərin əsasını təşkil edir və təmasların daha da genişləndirilməsi üçün yaxşı təməldir. Xanım Qafarova Prezident İlham Əliyevin Azərbaycanın xarici siyasətinin prinsiplərinə, müasir beynəlxalq münasibətlər sisteminə dair fikirlərini xatırladaraq demişdi ki, ölkəmiz üçün dostluq, bir-birinin daxili işlərinə qarışmamaq, beynəlxalq öhdəliklərə riayət, qarşılıqlı hörmət nümayişi kimi prinsiplər son dərəcə vacibdir.

Görüşdə dövlətlərarası münasibətlərin mühüm istiqaməti olaraq parlamentlər arasında əlaqələrin genişləndirilməsi, beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq məsələləri nəzərdən keçirilmişdi. Söhbət zamanı, eyni zamanda, Cənubi Qafqazda yeni imkanlar və perspektivlər barədə də danışılmış, bu baxımdan Azərbaycanın təşəbbüsü ilə yaradılmış "3+3" əməkdaşlıq formatının əhəmiyyəti qeyd edilmişdi. Ən əsası isə bildirilmişdi ki, kənar xarici qüvvələrin regiona cəlb edilməsi yaxşı heç nə vəd etmir. M.B.Qalibaf da öz növbəsində İranın "3+3" platformasını tam dəstəklədiyini, bu formatın regionda sülhə və sabitliyə, siyasi-iqtisadi əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminliyini ifadə etmişdi.

Təmas zamanı müzakirəsi aparılmış başlıca mövzulardan biri də regiondakı nəqliyyat bağlantılarının, o cümlədən, Şimal-Cənub nəqliyyat dəhlizinin və Şərqi Zəngəzuru Naxçıvanla birləşdirəcək yol bağlantısı olmuşdu. Yeri gəlmişkən, avtomobil və dəmir yolları bağlantılarının yaradılması, İran ərazisindən keçməklə, Şərqi Zəngəzur–Naxçıvan nəqliyyat infrastrukturunun tikintisi, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi və digər birgə layihələrin icra vəziyyəti baş nazir Əli Əsədovun İrana haqqında söz açdığımız səfəri zamanı da gündəmdə olmuşdu. Cənab Əsədovun İranın Birinci vitse-prezidenti Məhəmməd Reza Areflə fevralın 17-də keçirdiyi görüşdə tərəflər, həmçinin Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması, dənizin çirkləndirilməsinin və dayazlaşmasının qarşısının alınması, habelə Xəzər hövzəsində əməkdaşlıqla bağlı bir sıra digər məsələlər barədə mühüm fikir mübadiləsi aparmışdılar.

Azərbaycan–İran münasibətləri ilə bağlı daha bir məqama diqqət yetirək. Məlumdur ki, hazırda iki ölkə arasında ticarət dövriyyəsinin həcmi çox kiçikdir. Bunu İran Prezidentinin müşaviri M.Sənayi Azərbaycan Prezidentinin köməkçisi H.Hacıyevlə haqqında bəhs etdiyimiz görüşündə də vurğulamışdı. O, eyni zamanda, bunları bildirmişdi: "Biz makroiqtisadi və ticarət layihələrini müəyyən etməklə, iş adamlarını mədəni-iqtisadi əlaqələrin inkişafı və genişləndirilməsinə cəlb etməyə çalışmalıyıq. İki ölkənin mənafeyi naminə iqtisadi əlaqələr və ticarət şəbəkəsi yaratmaq üçün lazımi imkanlar və vacib platformalar mövcuddur".

Yuxarıda da vurğuladıqlarımızdan hasil olan qənaət bundan ibarətdir ki, Azərbaycanla İran arasında bir neçə il əvvəl nəzərə çarpmış soyuqluğun tamamilə aradan qalxması həm ümumən yeni əməkdaşlıq məsələlərini gündəmə gətirib, həm də Bakı və Tehran regional təhlükəsizlik strukturunda həmrəylik nümayişi ilə yaşadığımız tarixi coğrafiyanı xarici təhdid və təsirlərdən qorunmasında müştərək mövqeyə malikdirlər. Yazımızda diqqətə çatdırdığımız ayrı-ayrı məqamlardan isə ikitərəfli əməkdaşlığın mühüm perspektivinin nədən ibarət ola biləcəyini də təxmin etmək mümkündür. Söhbət Şimal-Cənub nəqliyyat dəhlizinin və Şərqi Zəngəzuru Naxçıvanla birləşdirəcək yol bağlantısının yüksək prioritetlik dərəcəsindən gedir. Hesab edirik ki, sözügedən bağlantı həm cənab Sənayinin diqqətə çatdırdığı geriliyi aradan qaldıracaq, həm gələcəkdə dövlətlərin qarşılıqlı münasibətlərini qlobal risklərdən sığortalayacaq, həm də hər iki ölkə xalqlarının sülh, rifah və əmin-amanlıq şəraitində yaşamalarını təmin edəcək.

Sonda vurğulayaq ki, əsas olan xoş niyyət və məramdır. Fikrimizcə, hazırda Bakı–Tehran münasibətləri baxımından pozitiv gündəliyin ən başlıca cəhəti Azərbaycan və İran rəsmilərinin ölkələrimizin mehriban qonşuluq və əməkdaşlıqdan savayı seçiminin olmadığını dərk etmələri və buna adekvat fəaliyyətə üstünlük vermələridir.

***R.ƏVƏZ***
***XQ***

# Sülhdənqorxma sindromu

(əvvəli 1-ci səhifədə)

Hay diplomatın yazdığına görə, Ermənistan uzun müddətdir ki, münaqişə səhifəsini çevirməyə hazırlaşır, amma Azərbaycanın hərəkətləri bunu reallaşdıqmağı şübhə altına almağa çalışdığından xəbər verir. Özünü sülh sazişindəki bəndlərdən, eləcə də sonrakı mərhələdə ölkəsinin həllinə təminat verdiyi məsələlərdən xəbərsiz göstərən Nersesyan mövcud durumu özünəməxsus şəkildə təsvir edir: “Tanış və narahatedici mənzərə yaranır: məhz indi, sülh prosesinin başa çatmaq üzrə olduğu məqamda Azərbaycan nəticəni ləngidən yeni tələblər irəli sürür”.

Azərbaycanın sülhü ləngidən hansı tələbləri irəli sürdüyünü açıqlamayan səfir ən böyük narahatlığın “Bakının atəşkəs rejiminin pozulması ilə bağlı səsləndirdiyi əsassız ittihamlar” olduğuna diqqət çəkir. Ardınca Böyük Krallığın məsələnin mahiyyətindən xəbərsiz oxucularını yalan məlumatla çaşdırmağa çalışan Nersesyan Ermənistanın Azərbaycana qarşı “dəmir arqumentini” ortaya qoyur: “Baş nazirimiz qarşı tərəfdən Ermənistanın atəşkəs rejimini pozmasına dair hər hansı sübut ortaya qoymağı xahiş edib, amma Azərbaycan bunu etməyib”. Bu məqamda hay diplomatın məqaləsinə sərlövhə olaraq seçdiyi “Sülh ikitərəfli bir küçədir” fəlsəfi mülahizəsinə toxunmağımız gərəkir. Çünki bunun siyasi-leksikoloji izaha ehtiyacı var. Sülhü küçə və oradakı hərəkət subyektləri ilə müqayisə edən Nersesyan, nədənsə, bu məkanda qaydaları pozanın, nəqliyyat vasitəsini qəsdən əks istiqamətdə sürənin, aşkar qəza vəziyyəti yaradanın məhz Ermənistan olduğunu görməzdən gəlməyə üstünlük verir. Onu da deməyi “unudur” ki, şərti sərhəddə atəşkəs rejiminin pozulması, eləcə də digər insidentlər İrəvanın buraya dəvət etdiyi Avropa İttifaqının müşahidə missiyasının “gözündən yayınır”. Şərti sərhəddəki “binokllu dipolmatlar” qeydə alınan insidentlərə müvafiq reaksiya vermək əvəzinə, susurlar.

Bunun üstündən keçən ingilisdilli hay diplomat son bir ildə İrəvanın yüz dəfə dediyi faydasız və mənasız təklifini təkrarlayır: “Baş nazirlik Bakıya sərhəd pozuntularının araşdırılması üçün birgə mexanizm yaradılmasını təklif edib, amma Azərbaycan hələ də cavab verməkdən yayınır. 2021-ci ildə Ermənistan qoşunların sərhədyanı rayonlardan qarşılıqlı surətdə çıxarılması planını irəli sürüb, lakin Azərbaycan bu təklifi də rədd edib”.

Axı, sülhə sadiqliyini nümayiş etdirəndən populist bəyanatlardan, əmələ söykənməyən sözlərdən savayı həm də inam, etimad, qarşılıqlı hörmət və səmimiyyət tələb olunur. Bu amilləri maskalı halda nümayiş etdirən İrəvan, nəhayət, “sülhdənqorxma” sindromunu aşmalı, yanlış və səmərəsiz taktikasından əl çəkməlidir. Onilliklər boyu davam edən düşmənçiliyə son qoymaq fürsətini dəyərləndirmək Ermənistan hakimiyyətinin boynuna düşən vəzifə, eyni zamanda, onun qurtuluş yoludur.

*

Ola bilsin ki, Nersesyan “Bakının sülhü ləngidən tələblərindən” bəhs edərkən ölkəsinin baş qanununda yer alan Azərbaycana qarşı ərazi iddiasının aradan qaldırılması, ATƏT-in Minsk qrupunun ləğvi məsələlərini nəzərdə tutub. Bəli, Bakı açıq şəkildə Qarabağa ərazi iddialarını ehtiva edən müddəaların Ermənistan konstitusiyasından, digər qanunvericiliyindən çıxarılmasını tələb edir. O da məlumdur ki, Paşinyan iqtidarı, hökumətə yaxın analitiklər bunun qeyri-mümkün olduğunu iddia edirlər. Çünki hakimiyyət referendumda qənaətbəxş nəticəni əldə edəcəyinə əmin deyil. Özü-özünü dalana dirəyən İrəvan çıxış yolunu hələ də səhv ünvanlarda axtarmaqdadır. Birinci məsələnin sadə və hüquqi həll variantı mövcuddur. Ermənistan konstitusiyasında Qarabağın adı çəkilmir. Yalnız preambulada irredentist müddəaları özündə əks etdirən Müstəqillik bəyannaməsinə istinad var. Bu istinad isə Ermənistan SSR Ali Sovetinin və “Dağlıq Qarabağ Milli Şurasının” 1989-cu il 1 dekabr tarixli qərarıdır.

İrəvanın bununla bağlı arqumenti ondan ibarətdir ki, artıq bu sənəd tarixə aiddir və heç bir hüquqi qüvvə daşımır. Paşinyanın ətrafındakı erməni siyasətçiləri və ekspertləri bunu bar-bar bağırırlar. Əgər doğrudan da belədirsə, onda hakim “Mülki müqavilə” partiyasının mütləq çoxluğa malik olduğu Ermənistan parlamentinin “Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsi haqqında” qərarını hüquqi cəhətdən etibarsız sayan qətnamə qəbul etməsinə nə mane olur?

**Nersesyana xatırlatma:** 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda, eləcə də Brüssel, Soçi və Praqada imzalanan sənədlərdə birmənalı olaraq “Dağlıq Qarabağ”, eləcə də “status” ifadələri yer almayıb. Yəni, artıq Qarabağ münaqişəsi adında məsələ gündəlikdə yoxdur və bununla bağlı müzakirələr də başa çatıb. İrəvan kapitulyasiya aktına imza atandan sonra, sülhə gəlmək əvəzinə, keçən 4 il 5 ayda nə etməyə çalışdı? Qısaca desək: “Kollektiv Qərb”in sülh prosesinə açıq-aşkar müdaxiləsini, bir mərkəzdən idarə olunan anti–Azərbaycan kampaniyasını, Cənubi Qafqaza yerləşmək planlarından əl çəkmək istəməyən haypərəst “güclərin” Ermənistanı öz əllərində oyuncağına çevirmək cəhdlərini. Ötən müddətdə revanşizmi körükləyən, Ermənistanı militarizmə sürükləyən bu düşərgə yalan vədlərlə, boş xəyallarla hayların başlarını dumanlandırmaqla məşğul oldular. Bundan şirniklənən rəsmi İrəvan isə sanki özünü yenə Cıdır düzündə yallı gedən vəziyyətdə “hiss etdi”, “bəlkə də, qaytardılar” xülyası ilə Qərbin ətəyindən ikiəlli yapışdı. Fransanın, Avropa İttifaqının timsalında “kollektiv Qərb” isə İrəvanı vəd “yağışına” tutur, Ermənistana silah-sursat göndərir, maddi yardım göstərir, 4 il 5 ay bundan əvvəl Azərbaycan əsgərinin qarşısından tülkü kimi qaçan 11 min fərarİdən yeni “ordu” təşkil etməyə çalışır. Daha doğrusu, bunu imitasiya edir.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, sözdə Bakı ilə sülh sazişini imzalamağa, regional əməkdaşlığa hazır olduğunu deyən Ermənistan hakimiyyəti əməldə süni əngəllər yaradır. Rəsmi İrəvanın bunu havadarlarının diktəsi və təzyiqi ilə etməsi şübhə doğurmur. Paşinyanın sülhdən qorxmasının, konstruktiv mövqe nümayiş etdirməkdən çəkinməsinin əsas səbəbi məhz bu amildir.

*İmran BƏDİRXANLI*
*XQ*



## Ekspert rəyi

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq:**



– Görünən odur ki, Ermənistan baş naziri Nikol Paşinyan sülh sazişinin imzalanmasından çox narahatdır. Reallıq isə bir tərəfdən Azərbaycanın əsaslandırılmış və ədalətli şərtləri, digər tərəfdən özünə alternativ çıxış yolu axtarışından yorulan Ermənistan rəhbərliyinin yalan və bəlağətli sülh ritorikası. Paşinyan gec-tez sülh sazişinə imzasını atmalıdır. Bakının tələblərinə gəldikdə isə onlar kifayət qədər şəffaf və reallıqla üst-üstə düşən şərtlərdir. Yaranmış vəziyyətdə İrəvan şərti sərhəddə təxribatlara əl atır, eyni zamanda, guya, sülhə hazır olduğu barədə müxtəlif bəyanatlarla çıxış edir, nədənsə Azərbaycanı günahlandırmağa çalışır. Aydın məsələdir ki, bu zaman, o, xarici qüvvələrin diktəsi ilə hərəkət edir, onların sifarişlərini yerinə yetirir. Hətta yerli müxalifətin maraqlarına cavab verən addımları atmaqdan da çəkinmir. Çünki yaxşı anlayır ki, əks-təqdirdə hakimiyyətini itirə bilər.

Əslində, Paşinyan komandası üçün bu bədbin proqnozun reallığa çevrilməsi ehtimalı da daxili gündəmə gəlməkdədir. Gümrüdəki bələdiyyə seçkilərində paşinyançıların hakimiyyəti itirdiklərini deyə bilərik. Bu faktın özü rəsmi İrəvanı ciddi narahat etməyə başlayıb. Paşinyana yaxın kadrların hakimiyyətdən uzaqlaşdırımasını da müşahidə etməkdəyik. Yəni, o, indiki durumda çapalayır və Azərbaycanı günahlandırır. Baş nazirin sərgilədiyi siyasət gözləmə mövqeyində olmaq, irəliyə doğru heç bir addım atmamaq və xaricdəki qüvvələrin maraqlarına cavab verən addımları ilə satqın olmadığını sübut etməyə çalışır. Bu prosesə Ermənistanın xarici ölkələrdəki diplomatik korpuslarının qoşulması başadüşüləndir. Düşünürəm ki, onu bu zərərli siyasi addımları atmağa vadar edən əsas səbəb də elə budur.

## Ekspert rəyi

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq:**



– Sülh sazişi ilə bağlı o tərəfdə hər kəs ağlına gələni danışır. Ermənistanın İngiltərədəki səfirinin nə deməsindən asılı olmayaraq, heç nə dəyişən deyil. Sülh müqaviləsini Azərbaycan özü təklif edib. Ötən müddət ərzində Ermənistanla müzakirələr məhz həmin sülh sazişinin mətni üzərində aparılıb. Müəyyən dəqiqləşdirmələr, əlavə və dəyişikliklər də edilib. Nəhayət, mətnin son variantı razılaşdırılıb.

Sadəcə olaraq, Bakının sülh sazişinin bəndlərindən başqa şərtləri də var. Həmin şərtlər rəsmi İrəvanın diqqətinə çatdırılıb. İndi zəhmət çəkib konstitusiyalarında, digər qanunverici aktlarında Azərbaycanın ərazi bütövlüyünə təhdid yaradan maddə və müddəaları aradan qaldırsınlar.

İkinci məsələ isə fəaliyyətsiz qalmış Minsk qrupunun ləğvi barədə Azərbaycanla birgə ATƏT-ə müraciət etməklə bağlıdır. Burada vəziyyət tam aydındır. Münaqişə artıq öz həllini tapıb və Minsk qrupuna daha ehtiyac qalmayıb. Dediyimiz məsələlərə kənardan kim necə yanaşır, xaricdəki erməni diasporu, diplomatları hansı şərhləri verirlər, özləri bilərlər. Azərbaycanın tələbləri real, konkret və ədalətlidir. Onların hər birinə əməl olunmalıdır. Nə qədər ki, bunlar yerinə yetirilməyib, Azərbaycan tələm-tələsik hansısa sənədi imzalamaq fikrində deyil. Bakı bu mövqeyi rəsmi İrəvanın diqqətinə dəfələrlə çatdırılıb. Sülhdən yayınmaq üçün başqa üsulları tükənmiş Ermənistan hakimiyyəti siyasi məntiqdən uzaq, əsassız və məntiqsiz mülahizələr ürəi sürməklə heç nəyə nail ola bilməyəcək.

**Replika**

# Populist Sarkis və Ostap Bendersayağı sevinc

## Erməni komissiya sədri nəyi ictimailəşdirir?

(əvvəli 1-ci səhifədə)

Əlqərəz, S.Sarkisyanın dediyinə görə, S.Seyidova sülh razılaşması layihəsi ilə bağlı fikir mübadiləsi aparmağı təklif edibmiş. Əvvəla, bildirək ki, bu təklifin özü anormaldır. Birincisi, müzakirəsi aparılacaq heç nə yoxdur. Çünki sülh sazişinin bütün bəndləri razılaşdırılıb və bu barədə həm Ermənistan, həm də Azərbaycan cəmiyyətinə məlumat verilib. İkincisi, əgər azərbaycanlı və erməni parlamentarilər arasında hansısa diskusiya gedəcəksə, bu Xandanyan kimi birisinin boşboğazlığından qaynaqlanan təklifi əsasında gerçəkləşəcək hadisə ola bilməz. Üçüncüsü, ortada ölkəmizin irəli sürdüyü iki şərt var. Söhbət Ermənistan konstutusiyasının ərazi iddialı istinad mənbəyindən qurtulmasından və ATƏT-in, faktiki olaraq, Azərbaycan torpaqlarının işğalını leqallaşdırmaq missiyası daşımış Minsk qrupunun ləğvindən gedir. Birinci şərtin yerinə yetirilməsi üçün referendum keçirilməli, erməni əsas qanununa dəyişiklik aparılmalıdır. İkinci şərt isə Bakı və İrəvanın müştərək müvafiq müraciət ilə ödənməlidir. Yəni, hər şey bu qədər sadədir. Populizm məhz bu sadəliyin kənarında gəzişməkdir.

Tam əminliklə deyə bilərik ki, Ermənistan Azərbaycanın şərtlərini yerinə yetirməkdən boyun qaçırır və diqqəti əsas məsələdən yayındırmaq üçün məhz populizmə güc verir. Digər tərəfdən, Xandanyanın, ümumən Ermənistan rəhbərliyi təmsilçilərinin populizmi özlərini sülh qaranquşu kimi göstərmələrindədir. Onlar elə təəssürat yaradırlar ki, sanki barış istəyən bunlardır, istəməyən isə Azərbaycan. Məqsəd bəllidir. Rəsmi İrəvan erməni avantürizmi üçün əl yeri saxlamağa çalışır ki, gələcəkdə təcavüzkar niyyətlər gerçəkləşdirmək mümkünləşsin. Bir sözlə, erməni iqtidarı sülh sazişinin özünə sərfəli kazuslarla imzalanmasına səy göstərir.

Bəli, Ermənistan hakimiyyətinin nümayəndələri sadaladığımız iki şərti nəzərə almırlar. Onlar “sülh” deyə bağırıb ağızlarını köpükləndirməkdən yorulmurlar. Nəticə etibarilə beynəlxalq ictimai rəyə tamamilə fərqli gündəm sırımağa çalışırlar. İndiyədək də belə edib, ancaq heç vaxt istəklərinə çatmayıb özlərini gülünc günə qoyublar. Nəzərə alaq ki, populistliyin nəticəsi həm də gülünc duruma düşmək aqibətini yaşamaqdır.



Əlbəttə, erməni siyasi populizminin həyasızlıq meyarı da var ki, S.Xandanyan indiki halda onu ortaya qoymaqla məşğuldur. Adam özünə “populist” deyilməsini elə bölüşür ki, elə bil, yaxşı söz eşidib. İstər-istəməz, yada məşhur “12 stul”un qəhrəmanı Ostap Bender düşür. Bender qəzetlərin onun atın altına düşməsini yazmasından sevinirdi. Ola bilər, Xandanyan da sevinib. Ondan nə desən, gözləmək mümkündür.

Sevinməkdən söz düşmüşkən isə Xandanyan ictimaiyyət üçün agah etdiyi məsələ ilə böyük Seyid Əzim Şirvaninin “Xan və dehqan” satirasının qəhrəmanını da xatırladır. Satirada avam kəndlinin xanın ona “it” deməsindən xoşhallığı əksini tapır.

Yeri gəlmişkən, S.Xandanyan sosial şəbəkə hesabında onu da yazıb ki, əgər sülh təbliğatını aparmaq populistlikdirsə, bu adı qürurla daşımağa hazırdır: “Mənim təklifim qüvvədə qalır. Regionda sülh və sabitlik naminə parlamentlər səviyyəsində inam mühitinin yaradılması üçün tədbirlərdə iştiraka hazıram”.

Onu da deyək ki, Ermənistan iqtidarının təmsilçiləri ayrı-ayrı detalları ictimailəşdirməkdə “ustadırlar”. Bu mənada S.Xandanyandan da betər biri var. Söhbət Ermənistanın Avropa İttifaqındakı səfiri Tiqran Balayandan gedir. Azərbaycan əleyhinə vaxtaşırı qərəz uydurmasa dayana bilməyən Balayan ötən il Aİ rəhbərliyinə donosunda yazmışdı ki, guya, Azərbaycanın sözügedən qurumdakı nümayəndəsi Vaqif Sadıqov onu ölümlə hədələyib. Bu barədə məlumatı isə “Politico” nəşri yaymışdı. Nəşrin bildirdiyinə görə, diplomatik təmsilçilər arasında insident Brüsseldə Türkiyə səfirliyinin Cümhuriyyətin elanının 101-ci ildönümünə həsr olunmuş qəbulunda yaşanıb. Görünür, Balayan tədbirdə özünü yaxşı aparmayıb. Ancaq bu, heç də o demək deyil ki, təcrübəli diplomat olan V.Sadıqov erməni səfiri ölümlə hədələyib.

Yəni, Tiqranın nağıl uydurma “məharətinə” nəzərən Sarkisin də eyni hərəkətə baş vurması mümkündür. Ona görə də əvvəldə cənab Seyidovun S.Xandanyana həqiqətən “populist” deyib-demədiyinə şübhələndik. Ancaq deyibsə, lap yaxşı edib. Çünki hər kəsi öz adı ilə çağırmaq lazımdır.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Azərbaycan – Vyetnam hüquqi əməkdaşlığı yeni mərhələdə

**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnamın baş prokuroru Nquyen Tiyenin dəvəti ilə Hanoya işgüzar səfər edib.**



Nümayəndə heyəti Azərbaycanın Hanoydakı səfirliyinə gələrək xalqımızın Ümummilli lideri Heydər Əliyevin büstünü ziyarət edib, Ulu öndərin əziz xatirəsi dərin ehtiramla yad olunub.

Səfər çərçivəsində Vyetnam Sosialist Respublikasının Prezidenti Luonq Kuonq Azərbaycan nümayəndə heyətini qəbul edib. Baş prokuror K.Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürünü ifadə edərək, Prezident İlham Əliyevin salamlarını Vyetnamın Kommunist Partiyasının Baş katibinə və ölkə Prezidentinə çatdırıb. Prezident Luonq Kuonq dövlətimizin başçısına salamlarına görə minnətdarlığını bildirib, onların da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Görüşdə iki ölkə arasında dost münasibətlərin təməlinin hələ 1959-cu ildə Vyetnamın ilk prezidenti Ho Şi Minin ölkəmizə və 1983-cü ildə Ulu öndər Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini qismində Vyetnama tarixi səfəri zamanı qoyulduğu, SSRİ dövründə Azərbaycanda 5 minədək vyetnamlının təhsil aldığı bildirilib. Vurğulanıb ki, müstəqilliyin bərpasından sonra Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan-Vyetnam əlaqələri dinamik inkişaf edib.

Səfər çərçivəsində, həmçinin Vyetnamın Baş prokuroru Nquyen Tiyen ilə Ali Xalq Prokurorluğunda ikitərəfli görüş keçirilib. Görüşdə Vyetnamın Baş prokuroru Azərbaycanla yüksələn xətlə inkişaf edən tərəfdaşlıq münasibətlərindən məmnunluğunu ifadə edib. Kamran Əliyev səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, hər iki ölkə liderlərinin siyasi iradəsi sayəsində əməkdaşlığın bütün sahələrdə uğurla inkişaf etdiyini deyib.

Martın 25-də Vyetnamın Ali Xalq Məhkəməsinin sədri Li Min Çi ilə də ikitərəfli görüş keçirilib.

Səfər çərçivəsində nümayəndə heyəti Kuannin əyalətinin prokurorluğunda da olub. Əyalətin Baş prokuroru Luonq Pfuk Son prokurorluğun fəaliyyəti barədə məlumat verərək, ölkəmizin bölgə prokurorluqları ilə təcrübə mübadiləsində maraqlı olduqlarını bildirib. Kamran Əliyev baş prokurorluqlar arasında imzalanmış sənədin ölkələrimizin region prokurorluqlarının qarşılıqlı səfərləri üçün faydalı olacağını qeyd edib.

*XQ*

# Su çanağı suda sınar

## *Marin Le Penin üzləşdiyi durum Avropa Parlamentində “korrupsiya karuseli”nin mövcudluğunun sübutudur*

**Fransanın ifrat sağçı Milli Birlik Partiyasının lideri Marin Le Pen və Avropa Parlamentinin daha 8 deputatı, həmçinin 12 parlament köməkçisi bu qanunverici orqanın vəsaitlərini mənimsəmədə təqsirli bilinib. Müvafiq qərarı Paris İslah Məhkəməsi verib.**



Qeyd edək ki, 2024-cü ilin noyabrında dövlət ittihamçısı Marin Le Penə 2 il həbs və 3 il şərti cəza verilməsini, həmçinin 300 min avro cərimə ödəməsini və siyasətçiyə 5 il ərzində seçkili vəzifə tutmasına qadağa qoyulmasını istəmişdi. Məhkəmə martın 31-də vəsatəti qismən təmin edərək partiya liderini iki il elektron qolbaq taxmaqla, dörd il müddətinə həbs və 100 min avro cərimə cəzasına məhkum edib. O, həmçinin növbəti prezident seçkilərində namizədliyini irəli sürməkdən, habelə 5 il müddətinə siyasətlə məşğul olmaqdan məhrum edilib.

Ümumilikdə, bu iş üzrə 27 nəfər mühakimə olunub. Müttəhimlər kürsüsündə Marin Le Pendən başqa, onun bacısı Yan və keçmiş tərəfdaşı Lui Alio da əyləşib. Marin Le Penin atası, 96 yaşlı Jan-Mari Le Pen də müttəhimlər siyahısında idi. Lakin ona səhhətinə görə dinləmələrdə iştirak etməməsinə icazə verilmişdi. 2025-ci ilin yanvarında isə o vəfat edib.

Marin Le Pen parlament köməkçilərinin yalandan işə götürülməsi ilə bağlı cinayət işində dövlət vəsaitini mənimsəmək-də təqsirli bilinib. İş üzrə vurulan ümumi zərərin təxminən 7 milyon avro olduğu bildirilir. Məhkəmə Marin Le Penin Avropa Parlamentinin bu qədər vəsaitini özünün Milli Birlik Partiyasının üzvlərinə ödəmək üçün istifadə etdiyinə qərar verib. Yəni, Le Pen və digər 24 partiya üzvü Avropa Parlamentinin vəsaitlərindən partiyanın Fransadakı fəaliyyətini maliyyələşdirmək üçün deputatların köməkçilərinə ödəmək üçün sui-istifadə ediblər. İş materiallarına görə, Le Pen və onun tərəfdaşları 2004-2016-cı illər ərzində parlament köməkçilərinə maaş vermək üçün nəzərdə tutulan vəsaitlərin partiyanın Fransadakı fəaliyyətini maliyyələşdirmək üçün istifadə olunduğu sxemini təşkil ediblər.

Marin Le Pen özünü təqsirli bilməyib. O, məhkəmə prosesinin ilk günlərindən işin qurama olduğunu deyib, prokurorluğu siyasi motivli ittiham aktı düzüb-qoşmaqda suçlayıb. Bildirib ki, irəli sürülən ittihamların məqsədi onun Fransa prezidenti olmasına əngəl törətməkdir. Müdafiə tərəfi iddia edir ki, ittihamlar bürokratik anlaşılmazlıqlarla bağlıdır və korrupsiya ilə heç bir əlaqəsi yoxdur. Le Pen və müttəfiqlərinin hökmdən apellyasiya şikayəti verəcəyi gözlənilir.

Proses başa çatdıqdan sonra Fransanın TF1 telekanalına müsahibə verən Le Pen məhkəmənin qərarını siyasi sifariş adlandırıb: “Bu, siyasi qərardır. Qəbul edilən qərarla qanunun aliliyi prinsipləri tamamilə pozulub. Hökm Avropa İnsan Hüquqları Konvensiyasının tələb etdiyi kimi, effektiv apellyasiya şikayətinə imkan vermir”.

Beləliklə, Marin Le Pen beş il müddətinə siyasətdən uzaqlaşdırılıb. Bu isə onun 2027-ci ildə keçiriləcək prezident seçkilərində iştirak edə bilməməsi deməkdir. Halbuki, onun seçkidə iştirak və qalib gəlmək şansları yüksək qiymətləndirilirdi. Fransanın “Ifop” ictimai rəy institutunun “Journal du Dimanche” qəzeti üçün keçirdiyi sorğuya əsasən, fransızların 34-37 faizi 2027-ci il prezident seçkilərinin ilk turunda Marin Le Penə səs verməyə hazırdır. Digər namizədlərin daxil olduğu müxtəlif ssenarilərdə də onun dəstəyi sabit qalır. Məsələn, keçmiş baş nazir Eduard Filip (21 faiz) və daxili işlər naziri Bruno Retayo (11 faiz) namizəd olsalar, Le Pen 34 faiz səs alacaqdı. Qabriel Attalın (20 faiz) və Loran Vokyenin (8 faiz) lider olduğu halda isə onun dəstəyi 37 faizə çatır.

Hələ ötən ilin dekabrında Marin Le Pen müsahibəsində Fransa prezidenti Emmanuel Makronun bir siyasətçi kimi tükəndiyini bildirmişdi. 2017 və 2022-ci illərdə keçirilən prezident seçkilərində hazırkı Fransa prezidentinin əsas rəqibi olan Marin Le Pen demişdi: “Makronun prezidentlik müddəti bitib. Mən keçirilməsi labüd olan növbədənkənar seçkilərə hazırlaşıram. Ümumiyyətlə, Makron bir siyasətçi kimi tükənib. Onun reytinqi həm ölkə daxilində, həm də xaricdə çox aşağı düşüb. Vəziyyət o yerə çatıb ki, Makron artıq Avropa İttifaqı çərçivəsində də bütün təsir imkanlarından məhrum olub”.

Yelisey sarayı Le Penin bəyanatına şərh verməsə də, bundan az sonra Fransa lideri istefaya getməyəcəyini açıqlamışdı.

Fransada baş verənlər dünyanın da diqqət mərkəzindədir. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Kreml Marin Le Penlə bağlı çıxarılan qərarı Fransanın daxili işi hesab edir. Onun sözlərinə görə, Le Pen barədə məhkəmə qərarı Fransanın demokratiyaya az arxalandığını göstərir: “Ümumilikdə belə qənaətə gəlmək olar ki, Avropa siyasi proseslərdə demokratiyaya getdikcə daha az arxalanır. Avropa paytaxtları getdikcə daha çox demokratik normaları tapdalamaq yolu ilə gedirlər. Təbii ki, biz Fransanın daxili işlərinə qarışmaq istəmirik, bunu heç vaxt etməmişik və bu, Fransanın daxili işidir. Amma ümumilikdə, Avropa paytaxtları ilə bağlı apardığımız müşahidələr göstərir ki, onlar siyasi proses zamanı demokratiyanın hüdudlarından kənara çıxmaqdan çəkinmirlər”.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Le Penə verilən hökm liberal demokratiyanın aqoniyasını (ölümqabağı əzab-əziyyət–S.H.) göstərir.

Macarıstanın Baş naziri Viktor Orban Le Peni dəstəkləyib. Orban “X” sosial şəbəkəsindəki səhifəsində fransızca yazıb: “Mən Marinəm!”

İtaliya Nazirlər Şurası Sədrinin müavini Matteo Salvini bildirib: “Seçicilərin qərarlarından qorxanlar tez-tez məhkəmələrin qərarları ilə arxayınlıq tapırlar. Onlar Parisdə Marin Le Peni mühakimə etdilər və onu siyasi həyatdan uzaqlaşdırmaq istədilər. Bu, digər ölkələrdə, məsələn Rumıniyada görə biləcəyimiz pis kinodur”.

Onun sözlərinə görə, “Milli Birlik” rəhbərinə qarşı qərar Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen və Fransa prezidenti Emmanuel Makronun döyüş impulslarının qorxuya düşdüyü bir vaxtda Brüsselin “müharibə” elan etməsidir. Salvini əlavə edib ki, “bizi qorxutmaq, dayandırmaq olmaz”.

Avstriyanın sabiq xarici işlər naziri Karin Knaysl deyib ki, Fransa gözlənilməz girdaba sürüklənir və prezidentlik yarışının birinci turunun qalibi Kelin Corcesku-nun namizədliyini irəli sürməsinə qadağa qoyulduqdan sonra Rumıniyada olduğu kimi etirazlarla üzləşə bilər: “Ən pis ssenari parlament münaqişəsinin parlamentdənkənar qarşıdurmaya çevrilməsi, yəni küçələrə çıxmasıdır. Bu, bir çox Aİ ölkələri üçün müəyyən şəxslərin siyasi vəzifələrdə iştirakına qadağa qoyulması üçün təhlükə yaradır. Biz bunu Rumıniyada gördük”.

Bir Azərbaycan vətəndaşı olaraq bizim bu məsələyə dair münasibətimizin necə olduğuna gəldikdə isə deməliyik ki, Fransanın rəsmi siyasəti kimi, müxalifətinin də ölkəmizlə bağlı baxışları üst-üstə düşür. Hər bir məsələ ilə bağlı doğru-düzgün mülahizələr yürüdən Prezident İlham Əliyev bu barədə də öz fikirlərini açıqlamışdır. Dövlətimizin başçısı 2025-ci il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində demişdir: “Əgər fransız siyasi səhnəsində konsensus varsa, həmin konsensus yalnız azərbaycanofobiya zəminində olur. Təəssüf ki, təkcə hazırkı hakimiyyət deyil, hakimiyyətə iddialı olanlar da bir-birindən o qədər də fərqlənmirlər. Hələ Rusiya sülhməramlılarının olduğu dövrdə Qarabağa qanunsuz səfərləri xatırlamaq kifayətdir. Axı, onlar Fransanın indiki prezidentinin rəqibləri idi, Paris meri də, yeri gəlmişkən, o, seçkilərdə namizədliyini irəli sürmüşdü. Parisin daxil olduğu regionun qubernatoru da seçkilərdə prezident Makronun rəqibi idi və bu yaxınlarda qısa müddətdə baş nazir vəzifəsini tutmuş cənab Barnye də bu məsələdə fərqlənir. Yəni, onlar özlərini göstərməli idilər. Burada məsələnin kökünün, necə deyərlər, nədən ibarət olduğunu demək mənim üçün çətindir, amma yəqin ki, hansısa sintez var. İslamofobiya və prinsipcə ksenofobiya fransız siyasi sinfinin fərqli cəhətləridir. Amma təkcə bunlar deyil, yeri gəlmişkən, antisemitizm də. Bu, hamıya yaxşı məlumdur. Üstəlik, ermeni təsiri, ermeni lobbisi və hər kəs ermeni icmaları qarşısında fərqlənməyə və həm indi, həm də gələcəkdə hansısa dividendlər əldə etməyə çalışır. Onlar başa düşürlər ki, hakimiyyətdə qısa müddətdə qalacaqlar, bəzilərində isə, ani xarakter daşıyır. Yəni, gələcək üçün dəstək almaq və “mən sizdənəm” demək, yəqin ki, həmin amillərdən biridir”.

Bəli, özünü demokratiyanın “beşiyi” adlandıran, başqa ölkələrə və xalqlara necə yaşamaq lazım olduğunu öyrətməyə çalışan Fransada hakimiyyət düşərgəsinin əsas rəqibi seçkidə iştirak imkanından məhrum edilir. Fransanın və Avropa Parlamentinin son illərdə ölkəmizlə bağlı yürütdükləri siyasət fonunda baş verənlər bizə təəccüblü gəlməməlidir. Rəsmi Paris və Brüssel Azərbaycana qarşı qarayaxma kampaniyası aparmaqla, böhtan atmaqla, qərəzli siyasət yürütməklə məşğuldurlar. İndi isə Fransada baş verənlər Avropa Parlamentinin özünün dəhlizlərində korrupsiyanın baş alıb getdiyini göstəricisidir. Ona görə baş alıb gedir yazırıq ki, bu, ilk hadisə deyil. İndi isə bu hadisə Fransanın ifrat sağ təmayüllü partiyasının liderinin başına gəlir. Necə deyərlər, su çanağı suda sınar. Marin Le Penin üzləşdiyi durum Avropa Parlamentində korrupsiya “karuseli”nin mövcudluğunun daha bir sübutudur.

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi



**İlyas HÜSEYNOV, politoloq:**

– Fransada baş verən proseslər deməyə əsas verir ki, Makron cəsarətsiz və qorxaq siyasətçi olduğunu bir daha təsdiqləyir. Bir neçə seçkidir ki, sağçılar Makrona qarşı güclü müqavimət nümayiş etdirirlər. Bütövlükdə, Avropa məkanında sağçılar və radikal sağçılar arasında gərgin münasibətlər mövcuddur. Əvvəlki dövrlərdə onlar ancaq miqrantlar əleyhinə radikal, şovinist düşüncələri bölüşərək, bu istiqamətdə fikirlər səsləndirərək təkcə parlamentlərə mandat qazanırdılarsa, bu gün siyasi olimplərə doğru marş edirlər. Bu isə Makron kimi siyasətçiləri qorxudur. Hətta, Makron Avropa Parlamentinə keçirilən seçkilərdən sonra növbədənkənar parlament seçkilərini keçirməyə məcbur oldu.

Yaranmış indiki durumda isə Makronun istefası tələb olunsa da, o, hakimiyyəti qəsb etməkdən əl çəkmir. Marin Le Penə qarşı çox sərt cəzanın çıxarılması da Fransada demokratiyadan əsər-əlamət qalmadığını nümayiş etdirir. Özünün əsas rəqibinə qarşı bu cür sərt mövqedən çıxış etmək Makronun siyasi çəkisini daha da aşağı salır. Həmçinin onun rəqiblərini daha da aqressivləşdirir. Düşünürəm ki, bu siyasət nəticəsində təkcə Fransada deyil, bütün dünyada sağçıların geniş etiraz dalğası müşahidə oluna bilər.

Le Penin ittiham olunması və hökm çıxarılması ilə bağlı epizoda nəzər salanda isə görürük ki, Avropa İttifaqı və Avropa Parlamenti daxilində korrupsiya mexanizmləri geniş vüsət alır. Bundan öncə dəfələrlə bu cür qalmaqallar olub. Biz Avropa Parlamentinin Yunanıstandan olan sədr müavini Yeva Kailidən tutmuş “Qatargeyt” hadisələrinə qədər AP-də çirkin korrupsiya mexanizmlərinin mövcudluğunun şahidi olmuşuq. Le Penlə bağlı məsələdə isə müxtəlif şəxslərin işə cəlb olunması, onların saxlanılması adı ilə pulların mənimsənilməsi halı mövcuddur. Bu hadisə Avropa məkanındakı dövlətlər üçün yeni bir qalmaqal nümunəsi sayıla bilər. Düşünürəm ki, biz qarşıdakı dövrdə müxtəlif cür korrupsiya hallarına və qalmaqallara şahidlik edə biləcik.

**Fransa mediasının anti-Azərbaycan fəaliyyəti hər kəsə yaxşı bəllidir. Zaman-zaman ölkənin ayrı-ayrı kütləvi informasiya vasitələrinin Azərbaycana qarşı qərəz, hikkə və hiddət püskürərək jurnalistikanın bütün norma və prinsiplərinə həqarətli yanaşdıqları da həmçinin. Əslində, bütövlükdə Qərb mediasının eyni yolu tutduğunu söyləmək mümkündür. Deyəsən, bu mənada Almaniya KİV-ləri “Köhnə qitə”dəki həmkarları ilə rəqabətə giriblər. Əgər erməniрərəstliyi ən müxtəlif rəng çalarları ilə ortaya qoymaq yarışına rəqabət demək mümkündürsə.**

Beləliklə, Almaniyanın “Alman Dalğası” (“Doyçe Velle”) ictimai yayım qurumu martın 30-da “Ermənistanın Qafqazda torpaq və kimlik uğrunda mübarizəsi” adlı sənədli filmi efirə verib. Azərbaycan cəmiyyətinin ayrı-ayrı qurumlarının, ictimai təşkilatlarının sözügedən ekran işinə münasibətində, bir qayda olaraq, “Doyçe Velle”nin jurnalistika prinsiplərinə riayət etmədiyi, tərəf tutduğu, qərəzli davrandığı vurğulanıb. Təbii ki, bunlar dilə gətirilməlidir. Bu öz yerində.

Ancaq hesab edirik ki, telekanal rəhbərliyi məsələdən yaxşı xəbərdardır və onun üçün peşə normalarına saygısızlıq çox adi şeydir. onu da öz gücümüzə bərpa etmişik və bundan sonra da edəcəyik.

Əslində, istər “Doyçe Velle”nin, istərsə də Qərbin digər media orqanlarının anti-Azərbaycan kampaniyasının başlıca motivi də ədalət təminatı sahəsində gerçəkləşdirdiyimiz fəaliyyətə maneçilik törətmək, əzmimizin və iradəmizin qarşısına sədd çəkməkdir. Deməli, “Doyçe Velle”nin filmdə din amilini də nə üçün qabartdığı məlumdur. Həm bu amilə yer verməklə, həm də ümumən belə yarıtmaz ekran məhsulunu hazırlamaqda başlıca məqsəd saxta sentimentalizm notları və təhrifçiliklə erməni avantürasının davamlılığı namınə şərait formalaşdırmaqdır.

# “Doyçe Velle”nin qərəzi

## *Yaxud Ermənistan üçün iflas laylası*



Axı ortada erməni lobbi və diaspor təşkilatlarından alınmış rüşvət var. Rüşvətdən söz düşmüşkən, ötən ilin fevralında Almaniyanın daha bir media orqanı ARD telekanalı “Uçurumun kənarında” adlı film çəkmişdi. Özü də filmin təqdimatı birbaşa Almaniya parlamentində gerçəkləşmişdi. Hesab edirik ki, təqdimat yerinin ölkənin ali qanunverici orqanı seçilməsinin özü siyasi motivlərin yaradıcılıq meyarlarını heçə endirdiyini söyləməyə əsas verirdi.

Əlqərəz, Azərbaycan hökumətinin avropalı siyasətçiləri pulla satın aldığının iddia edildiyi “Uçurumun kənarında”nın rejissoru və prodüseri Daniel Harrix ağzını köpüklən-dirə-köpükləndirə bildirmişdi ki, “siyasətçilər biz media işçiləri kimi olmalı, rüşvətlə ələ alınmamalıdırlar”. Gülməlidir. Ancaq həm gülməli, həm də ağlamalı vəziyyət ondan ibarətdir ki, ARD tam qərəzli mövqe tutaraq, heç bir fakta əsaslanmadan absurd teatrına meydan vermişdi.

Məsələyə başqa prizmadan yanaşsaq, ARD yayımladığı filmlə bəlkə də fərqinə varmadan Avropanın ictimai-siyasi sisteminin bərbad vəziyyətini göstərmişdi. Deməli, rüşvət adiləşib. Tutalım, Azərbaycan hakimiyyəti kimisə ələ almaq istəyir, niyə rüşvətə boyun əyənlər tapılır? Görəsən, harda qaldı Avropa dəyərləri? Necə oldu müqəddəs kimi qəbul edilən normalar? Ortada bu kimi suallar varsa, D.Harrixin bildirdikləri ucuz populizmdən başqa bir şey deyil. Mümkündürmü ki, Avropada siyasətçilər rüşvət alsınlar, amma jurnalistlər bundan uzaq dayansınlar? Yəni, ikincilər süddən çıxmış ağ qaşıqdırlar?! Buna kimsə inanardımı?

Yeri gəlmişkən, “Ermənistanın Qafqazda torpaq və kimlik uğrunda mübarizəsi” sənədli filmi Fransanın erməni lobbisi tərəfindən hazırlanıb və tərcümə edilərək, olduğu kimi “Doyçe Velle”də yayımlanıb. Hər halda, Almaniyanın böyük media qurumunun onu avtonom erməni təəssübkeşliyi səbəbindən efirə verdiyi aydındır. Ortada haqqında söz açdığımız rüşvət əməli var. Şübhəsiz, bu əməl olmasaydı, belə cəfəng film efir üzü görməzdi. Cəfəngiyyata və manipulyasiyaya gəlincə, seçilmiş ad hər şeyi deyir. Ancaq deyilən, daha doğrusu, vurğulanan başqa məqamlar da var.

Birincisi, sənədli filmdə ən böyük hiddət doğuran məqam azərbaycanlı qaçqınların görüntülərinin Qarabağı tərk etmiş ermənilər kimi təqdim olunmasıdır. Hesab edirik ki, Avropanın ictimai rəyinin bu cür bəsit şəkildə yanlış yönləndirilməsi cəhdi misli görünməmiş həyasızlıqdır. Bir Avropa, indiki halda qitənin ən inkişaf etmiş ölkəsinin qabaqcıl sayılan media orqanı belə həyasızlığa yol verirsə, söhbət yalnız jurnalistika prinsiplərinə tüpürməkdən getmir. Ümumilikdə, ali dəyərlər tapdaq altına alınır. Tam əminliklə demək olar ki, “Doyçe Velle” kimi KİV-in mövcudluğu, bütövlükdə, “Köhnə qitə”nin media cəməsi üçün utanc və rüsvayçılıqdır. Özünə hörmət edən media orqanı yaramaz əməlinə görə, ən azı, üzr istəməlidir. Əlbəttə, biz “Doyçe Velle”nin üzr istəyəcəyinə inanacaq qədər sadəlövh deyilik. Aydındır ki, telekanal nəyi hansı məqsədlə yayımladığını gözəl bilirdi. Xatırladaq ki, bundan əvvəl fransız-alman “Arte” ictimai yayımçısı da eyni şəkildə azərbaycanlı qaçqınların görüntülərini ermənilər kimi təqdim etmiş, xalqımızın heysiyyatına toxunmuşdu.

Biz “Doyçe Velle”dən Ermənistanın bütün beynəlxalq hüquq normalarını pozaraq Azərbaycan torpaqlarında gerçəkləşdirdiyi təcüvüzü, otuz ilədək davam etmiş işğal nəticəsində bir milyona yaxın insanımızın öz yurd-yuvasından didərgin salınmasını, ölkəmizin şəhər və kəndlərinin viran qoyulmasını, xarabazara çevrilməsini, erməni millətçilərinin törətdikləri çoxsaylı qətliamları və sair bəşəri cinayətləri işıqlandırmasını gözləmirik. Böyük ölçüdə gözləntimiz ədalətdir ki,

Bəli, sənədli filmdə çox incəliklə Ermənistanın xristian dövləti olması önə çəkilir və müsəlman Azərbaycanının, guya, onu əzməyə çalışdığı fikri aşılanır. Bu, tipik erməni təbliğatı metodudur. Erməni millətçiləri hər zaman azərbaycanlılara qarşı mübarizədə din amilindən “yararlanmağa” çalışıblar və zaman-zaman istəklərinə çatıblar. Hazırda isə eyni “metodu” Ermənistan iqtidarı işə salır. “Doyçe Velle” isə irqi ayrı-seçkiliyi və xalqlar arasında nifrəti qızışdırmaqla, medianın təməl prinsiplərinə xəyanət yolunu tutur. Belə “dəst-xətt” region xalqları arasında barış mühitinin formalaşmasının qarşısını almaq niyyətidir. Başqa sözlə desək, alman telekanalının mövqeyi – Avropanın və dünyanın ictimai rəyini yanlış yönləndirmək cəhdi Cənubi Qafqazda vəziyyəti gərgin saxlamaq istəyən qüvvələrin lokal maraqlarının gerçəkləşməsi üçün göstərilən “xidmətdir”.

Nəhayət, Qarabağ amili. Məlumdur ki, Qarabağ məsələsi müasir dövrdə erməni avantürizminin çıxış nöqtəsidir. Sənədli filmdə elə təəssürat yaradılır ki, sanki Azərbaycan bölgəni işğal edib. “İşğal” motivinin üzərinə gəlinərkən ənənəvi erməni təbliğatı klişelərindən istifadə olunur. Məsələn, ölkəmiz tərəfindən Qarabağın, guya, blokadada saxlanılması, Rusiyanın başının Ukraynada müharibəyə qarışması, Azərbaycanın Türkiyənin köməyi ilə təcavüzkar planlar gerçəkləşdirməsi, 2023-cü ilin sentyabrında məqsədinə çatması və nəticədə 100 min erməninin doğma yurd-yuvasından qovulması.

Bəli, “Doyçe Velle”nin yarıtmaz ekran işi tarixin saxtalaşdırılması üzərində qurulub. Guya, Qarabağı Azərbaycana Stalin bağışlayıbmış. Məlumdur ki, Stalin obrazı Qərbin diktator kultu baxımından müstəsna tapıntı kimi hələ də əhəmiyyətini saxlamaqdadır. Sən demə, onun hökmranlığı bir çox xalqlar kimi, ermənilərin də taleyində sağalmaz yaralar açıbmış. Yəqin, bu təqdimata diqqət yetirən sıravi avropalının nə düşünə biləcəyini təsəvvür gətirdiniz. O avropalı ki, Stalinin də idarəçiliyində təmsil olunduğu, hətta fəal rol oynadığı Sovet Rusiyasının, sonra isə onun bilavasitə rəhbərlik etdiyi SSRİ-nin ermənilərə razı salmaq üçün Azərbaycan xalqına hansı məşəqqətləri yaşatdığından xəbərsizdir. Sıravi avropalı, həmçinin tarixi torpaqlarımızdan Sovet Ermənistanına ərazi hədiyyələrinin nəinki olduğunu, habelə sistemli və ardıcıl xarakter daşıdığını da bilmir. “Doyçe Velle”nin hazırladığı sənədli filmdən sonra onun düşüncəsinə hakim kəsilən məzlum erməni obrazıdır. Telekanalın məkrlilik dərəcəsini bu saxta obrazı erməni millətçiliyinin Qarabağ avantürası naminə sipərə çevirmək “əzmi” ilə ölçə bilərik...

Sonda bir daha deyək ki, “Doyçe Velle”-nin “Ermənistanın Qafqazda torpaq və kimlik uğrunda mübarizəsi” adlı sənədli filmi Cənubi Qafqazda sabitliyin, asayiş və firavanlığın formalaşmasına maneçilik törətmək məramından qaynaqlanır. Nəzərə alaq ki, bu film Azərbaycan – Ermənistan sülh gündəminin mövcudluğu şəraitində meydana çıxıb. Daha doğrusu, rəsmi İrəvanın həmin gündəmə zidd fəaliyyətinin getdikcə intensivləşdiyi zaman kəsiyində. Deməli, telekanal erməni avantürası naminə illüziya yaradır ki, bundan təəccüblənməyə dəymez. Çünki Ermənistan hakimiyyətinin xaricdəki hamilərindən gördüyü illüziya dəstəyidir. Bu dəstək ölkəni 2018-ci ildən indiyədək ancaq fəlakətlərlə üzləşdirməkdədir. Fəlakətin isə iflas perspektivi qaçılmazdır. Tam qətiyyətlə demək olar ki, Ermənistan dövləti iflasına doğru gedir. Mövcud durumda “Doyçe Velle”nin bu “yaradıcılıq məhsulu” iflasa məhkum olunmuşlar üçün “oxunan” layladan başqa bir şey deyil.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Azərbaycan xalqına qarşı soyqırımları

*Bu qırğınlar erməni millətçilərinin tarixə vurduqları qanlı ləkədir*

**Azərbaycan xalqının son iki yüzillik tarixində baş verən müharibələr, qanlı toqquşmalar və faciələrin əsas səbəbi Çar Rusiyasının Qafqaz siyasəti ilə bağlı olub. Belə ki, rus yazıçısı Şavrovun ifadəsi ilə desək, “biz Qafqaz siyasətini digər xalqların bura köçürülməsi hesabına həll etməyə başladıq.” Təbii ki, digər xalqlar deyiləndə Şavrov erməniləri nəzərdə tuturdu. Osmanlı və Azərbaycan torpaqları hesabına özünə “böyük Ermənistan” yaratmağı hədəfləyən bu toplum – ermənilər rus siyasətini reallaşdırmaqla yanaşı, özlərinin də ideyalarını reallaşdırmağa cəhd etdilər. Bu proses 1724-cü ildə tarixə Pyotr vəsiyyətləri adı altında daxil olmuş fərmanla başladı. Belə ki, bu fərmanla Rusiyanın işğal etdiyi torpaqlarda ermənilərin yerləşdirilməsi üçün yerlərin ayrılmasına icazə verildi.**

Ondan sonra da ermənilərə münasibətdə Rusiyanın siyasəti eyni xətt üzrə inkişaf etdi. Belə ki, Rusiya–İran müharibəsində Rusiyanın qələbəsindən sonra Azərbaycan torpaqları Çar Rusiyası və Qacar (İran) dövləti arasında bölüşdürülərkən imzalanmış Gülüstan (1813) sülh müqaviləsi hayların Cənubi Qafqaza köçürülməsinin əsasını qoydu.

Ermənilərin köçürülməsi haqqında erməni katolikosu tərəfindən hazırlanmış plan İrəvanı tutduğuna görə İrəvan qrafı titulunu almış çar generalı İ.Paskeviçə və Rusiyanın İrandakı səfiri A.Qriboyedova təqdim edilir. Onlar İran ermənilərinin Azərbaycanın əzəli torpaqlarında məskunlaşdırılmasında xüsusi fəallıq göstərmişlər. İranda yaşayan və rus ağalığının qüdrətli bayrağı altına girmək istəyən 50 minə yaxın erməni müharibə bitdikdən sonra Rusiyanın işğal etdiyi Naxçıvan, İrəvan, Qarabağ xanlıqlarının ərazilərinə köçürülməyi arzu edirdilər. Bunu cani-dildən həyata keçirən Rusiya 1826–1828-ci illər Rusiya–İran müharibəsini sonlayan Türkmənçay müqaviləsinə (1828) ermənilərin köçürülməsini təmin edən ayrıca bənd salmağı özünə borc bildi. Beləliklə, müqavilənin 15-ci maddəsi ermənilərin Rusiya imperiyasının himayəsi altına keçməsini təsdiqlədi.

Köçürmə komitələrinin köməyi ilə yerləşdirilən ermənilərə xüsusi imtiyazlar verildi. Bölgədə demoqrafik siyasəti ermənilərin xeyrinə dəyişmək siyasəti nəticəsində minlərlə azərbaycanlı öz torpaqlarında sıxışdırılaraq çıxarıldı, zorla sürgün edildi, qətlə yetirildi və onların yerlərinə isə təsərrüfata yararlı, əlverişli coğrafi ərazilərdə ermənilər yerləşdirildi.

Ermənilərin bölgəyə köçürülməsi sonrakı dövrlərdə də davam etdirildi. Belə ki, 1828–1829-cu illər Rusiya–Türkiyə müharibəsinin sonunda imzalanmış Ədirnə sülhündən sonra Türkiyədən 90 mindən çox erməni Azərbaycan ərazisinin ən münbit torpaqlarına köçürülərək yerləşdirildi və bu proses durmadan davam etdirildi.

Beləliklə, XIX əsrin ortalarında Şərqi Anadoludan 100 min erməni Qafqazda yerləşdirildi. 1877–1878-ci illər Rusiya–Osmanlı müharibəsindən sonra daha 70 min erməni bölgəyə gətirilib yerləşdirildi. Əsrin sonlarında da ermənilərin miqrasiya prosesi davam etdirildi.

Bu prosesin planlı həyata keçirilməsinin əsas səbəbi bölgədə etnik dəyişiklik etmək, ermənilərin hesabına yerli türk-müsəlman toplumunu sıxışdırmaq və gələcək siyasi planlarda sadiq ermənilərdən müdhiş şəkildə istifadə etmək idi. Bu “erməniləşmə” siyasətinin nəticəsi özünü doğrultdu. Belə ki, bölgənin etnik tərkibində gözlə görüləsi kəskin dəyişiklik özünü gözlətmədi. Əgər XIX əsrin 20-ci illərində təkcə Qarabağ xanlığı ərazisində 20 min ailədən 1,5 mini erməni ailəsi idisə (91%-in 8,4%-ə nisbətində), 80-ci illərdə bu rəqəm kəskin şəkildə artaraq, Şuşa qəzasında azərbaycanlılar ümumi əhalinin 41,5, ermənilər isə 58,2 faizini təşkil edirdilər. 1917-ci ilin statistikasına görə, bu rəqəmlər 40,2 və 52,3 faiz təşkil edirdi. Göründüyü kimi, milli tərkibin dəyişdirilməsi siyasəti öz “bəhrəsini” verməklə bölgədə azərbaycanlıların demoqrafik mövqeyinə zərbə vuruldu. Cənubi Qafqazda çar hakimiyyətinin əsas dayağına çevrilən ermənilər artıq öz dövlətlərini yaratmaq “arzu”larını həyata keçirmək üçün siyasi zəminə sahib idilər.

1978-ci ildə Dağlıq Qarabağın erməni əhalisi buraya gəlmələrinin 150 illiyini təntənəli surətdə qeyd etdilər. İrandan ilk 200 erməni ailəsinin gəlişini qeyd edən ermənilər Ağdərə rayonunun Marağaşen-Leninavan kəndində (indiki Şıxarx kəndində) bu münasibətlə xüsusi bir abidə qoydular. Lakin bu abidə elə ermənilərin özləri tərəfindən söküldü. Belə ki, 1988-ci ildə ermənilər Azərbaycana qarşı ərazi iddialarına başladılar. Ermənilərin bu bölgəyə gəlmə olduğunu, Rusiya siyasi bayrağı altında köçürülüb gəldiyini sübut edən üzərində “Marağa-150” yazılan abidə özünü bu bölgənin əzəli sakinləri olduğunu iddia edən erməniləri elə özləri tərəfindən ifşa edirdi. Abidənin qalıqları hələ də qalmaqdadır.

Dənizdən–dənizə “böyük Ermənistan” xülyasını reallaşdırmaq üçün əzəli Azərbaycan torpaqlarında yerləşdirilmiş ermənilər yerli azərbaycanlı əhaliyə qarşı milli zəmində qırğınlar və terror törətməyə başladılar. XX əsrin əvvəllərində bu daha kütləvi hal almağa başladı. Belə ki, 1905–1907-ci illərdə və 1918-ci ildə Azərbaycanın müxtəlif ərazilərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar soyqırımı siyasətinin tərkib hissəsidir.



1905–1907-ci illərdə Bakıda, İrəvanda, Zəngəzur, Ordubad, Naxçıvan, Qazax və başqa bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar, yerli əhaliyə qarşı qarət, soyğun, talanlar təşkil edildi, minlərlə yerli əhali yaşadığı yerlərdən qovuldu. Təkcə Gəncə və Qazax quberniyalarında 200-ə yaxın kənd dağıdıldı.



Təkcə 1918-ci ilin Mart soyqırımı nəticəsində Bakı şəhərində 15 mindən çox əhali erməni terrorçuları tərəfindən qətlə yetirildi. Bu işə Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyan rəhbərlik edirdi. O, Birinci Dünya müharibəsindən qayıdan erməni əsgər və zabitləri də Bakıda cəmləmiş və milli zəmində həyata keçiriləcək soyqırımına ciddi hazırlıq görmüşdü. V.İ.Leninin də dəstəyini alan daşnak-bolşevik qoşunları və bolşeviklərin əsas zərbə qüvvələrindən olan “Daşnaksütyun”un silahlı dəstələrindən istifadə etməklə yerli türk-müsəlman əhalisinə divan tutuldu. İnsanlığa sığmayan hərəkətlərlə soyqırımı törədən ermənilər qadın, uşaq, yaşlı baxmadan müsəlmanlar yaşayan evlərə girərək dinc əhalini, ümumiyyətlə qarşılarına çıxan hər kəsi qılıncdan keçirmiş, bütün müsəlmanları gülləbaran etmişdilər. Müsəlmanları müxtəlif işgəncələrlə öldürməklə yanaşı, onların evlərini qarət edib qiymətli əşyaları talan edərək özləri ilə aparırdılar. Gülləbaran edilmiş, qətlə yetirilmiş müsəlman meyitlərini ya yandırır, ya da kütləvi şəkildə basdırırdılar.

Öz siyasətlərini vətəndaş müharibəsi adlandıran S.Şaumyan ona qarşı çıxanların hamısını düşmən elan etməklə, əslində, Azərbaycanda bu dövrdə milli ruhun güclənməsini görür və yüksəlməkdə olan milli azadlıq hərəkatının qüvvətlənməsinin də qarşısını almaq istəyirdi.

Lakin Azərbaycan xalqının milli oyanışını daşnakların heç bir siyasəti durdura bilmədi. Xalq başa düşürdü ki, bütün bu özbaşnalıqlara, qırğınlara son qoymaq üçün xalqın özünün dövlətinin olması şərtdir. Beləliklə, Şərqin ilk müsəlman cümhuriyyəti – Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı.

Sonradan Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən bolşevik-daşnak qüvvələrinin yerli türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırımı siyasətini araşdırmaq üçün Xüsusi Tədqiqat Komissiyası yaradıldı. Bu komissiyanın araşdırmalarını incələdikcə insanın qanı damarda donur. İnsanları qətlə yetirərkən xüsusi vəhşilik törətmiş bolşevik-erməni cəlladları uşaqları həm diri, həm ölü yanar evlərin içinə atmış, süngünün uclarına keçirmiş, qadınların müxtəlif orqanlarını kəsib divara mıxlamış, insanları diri-diri yandırmış və s. kimi misli görünməmiş və insanlıqdan kənar hərəkətlərə yol vermişlər.

Bakıdan sonra Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Nəvahi, Kürdəmir, Zəngəzur, Qarabağ, Naxçıvan və başqa bölgələrdə azərbaycanlılara qarşı törədilən qırğın siyasəti məqsədli və əvvəlcədən planlı şəkildə həyata keçirildi. Təkcə Quba qəzasında 162 kənd dağıdıldı, yandırıldı, 16 mindən çox, Şamaxıda 7 min müsəlman qətlə yetirildi.

Cənubi Qafqaz sovetləşdikdən sonra da böyük Sovet dövlətinin tərkibində “qardaş” respublikalar elan edilməsinə baxmayaraq, ermənilərin azərbaycanlılara qarşı münasibəti və ənənəvi siyasəti dəyişmədi. Sovet hökumətinin də dəstəyini almaqla daha da dərinləşdi. Sovet rəhbərliyi də o dövrdə ermənilərin arzularına uyğun olaraq Dağlıq Qarabağ ərazisində yaşayan 80 minlik erməniyə muxtariyyət verdi. Lakin Ermənistanda yaşayan yarım milyonluq azərbaycanlıya belə bir hüquq verilmədi. Göründüyü kimi, Rusiya dövləti müsəlman xalqlarına münasibətdə tarixən yeritdiyi siyasətə sadiq qalmış, Azərbaycanın əzəli torpaqlarına köçürülüb gətirilmiş ermənilər hər cür imtiyazlarla mükafatlandırılmışlar. Beləliklə, Dağlıq Qarabağdan azərbaycanlıların etnik təmizlənməsi həyata keçirilməyə başladı. Burada məqsəd bu bölgədən azərbaycanlıların tamamilə çıxarılması, bölgənin monoton erməniləşdirilməsi və Dağlıq Qarabağı Azərbaycandan qoparmaqla Ermənistan SSR-in tərkibinə daxil edilməsi idi.

Millətçi-separatçı qüvvələrin növbəti addımları Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının həyata keçirilməsi oldu. 1948–1953-cü illər ərzindən 150 mindən çox azərbaycanlı tarixən yaşadıqları etnik ərazilərdən qovuldu. Ermənistan SSR-dən azərbaycanlıların deportasiyası bölgədə yaşayan azərbaycanlıların heç bir hüquqları nəzərə alınmadan amansız formada həyata keçirildi. Təəccüb doğuran hal o idi ki, SSRİ rəhbərliyi tərəfindən ermənilərin apardığı etnik təmizləmə siyasəti nəinki susqunluqla qarşılandı, hətta himayə edildi. Dədə-baba torpaqlarından zorla çıxarılmış azərbaycanlıların yerinə xaricdən gətirilən ermənilər yerləşdirildi.

“Azərbaycanlılarsız Ermənistan” şüarı SSRİ-nin mövcudluğunun son dövrlərində də davam etdirilərək daha kəskin və aqressiv formada təzahür etdi. Belə ki, 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı həm ərazi iddialarının, həm siyasi aqressiyasının fonunda əsrin əvvəllərindən planlı şəkildə azərbaycanlıların etnik təmizlənməsinin son mərhələsi həyata keçirildi. Bu zaman 50 minə yaxın azərbaycanlı ailəsi, başqa sözlə 185519 nəfər azərbaycanlı məcburi şəkildə ata-baba yurdundan çıxarıldı. Deportasiya nəticəsində yüzlərlə azərbaycanlı öldürüldü. Onların bəziləri soyuq havada qaçarkən donaraq, bəziləri ağır işgəncələrə məruz qalmaqla, güllələnməklə, onlarca azərbaycanlı itkin düşdü, yüzdən çoxu diri-diri yandırılmaqla məhv edildi. Müxtəlif bədən xəsarətlərindən azərbaycanlıların öldürülməsinə görə heç bir erməni məsuliyyət daşımamış və cinayət məsuliyyətinə cəlb edilməmişdir. Bütün bunlar Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin Ermənistanın dövlət siyasətinin tərkib hissələrindən biri olduğunu təsdiq edir.

Ermənilərin 1918-ci ilin martın sonlarında Azərbaycanın müxtəlif bölgələrində yerli türk-müsəlman əhalisinə qarşı törətdikləri və xalqımızın tarixinə qanlı hərflərlə yazılan soyqırımına Prezident Heydər Əliyev hüquqi-siyasi qiymət verərək 1998-ci ildə mart ayının 31-ni Azərbaycanlıların Soyqırımı Günü elan etdi. 2013-cü ildə isə Prezident İlham Əliyevin qərarı ilə Quba qəzası ərazisində 1918-ci ildə erməni daşnakları tərəfindən törədilmiş qırğınlar nəticəsində öldürülən yerli əhalinin xatirəsinə Quba Soyqırımı Memorial Kompleksi yaradıldı.

XX əsrin 90-cı illərinin əvvəllərində tarixi Azərbaycan ərazilərini işğal etməklə Ermənistana birləşdirməyi qarşılarına məqsəd qoyan erməni millətçi-separatçı qüvvələri dünyada və SSRİ-də gedən siyasi proseslərdən istifadə edərək öz tarixi məkirli siyasətlərini reallaşdırmağa başladılar. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə müharibə elan edilmədən təcavüz etməsi ilə qanlı münaqişə başladı. Ermənistanın məqsədi Dağlıq Qarabağ ərazisini birdəfəlik Azərbaycandan qoparmaq və Ermənistana birləşdirmək idi. Azərbaycana qarşı silahlı hücumların intensivləşməsi və hərbi təcavüzün doğurduğu müharibə Dağlıq Qarabağın və yeddi Azərbaycan rayonunun işğalı ilə nəticələndi. Birinci Qarabağ müharibəsi zamanı 30 min insan həlak oldu, minlərlə insan itkin düşdü, 1 milyona yaxın azərbaycanlı isə öz dədə-baba yurdundan qaçqın düşdü.

Birinci Qarabağ münaqişəsi dövründə ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş ən qanlı və ən amansız cinayətlərdən biri Xocalı soyqırımıdır. Kütləvi qırğın törətmək üçün Xocalının seçilməsi də təsadüfi deyil. Xocalının Xankəndi yolunun üstündə əlverişli mövqedə yerləşməsi, ərazidə aeroportun olması və şəhərin strateji vəziyyəti onun ermənilər tərəfindən işğalının vacibliyini tələb edirdi. Belə ki, Xocalını işğal etməklə Dağlıq Qarabağın digər şəhərlərinə yol açılır və ermənilər strateji üstünlük qazanırdılar. Belə də oldu. Xocalı hələ 1991-ci ilin payızından mühasirəyə alınmış, rayonla yerüstü əlaqənin kəsilməsi səbəbindən yalnız helikopter vasitəsilə digər rayonlarla əlaqə saxlanılırdı. 1992-ci ilin yanvarından elektrik təchizatı da dayandırılan şəhərin camaatı ağır şəraitdə yaşayırdılar.

Bu genosid hadisəsi 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə separatçı erməni silahlı dəstələri və MDB-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayı tərəfindən reallaşdırıldı. Qaçmaq istəyən şəhər sakinləri pusquya salınıb güllələndi, ya da əsir götürüldü. Dağlara qaçanların çoxu isə qışın soyuğunda donvurmadan həlak oldu. İnsanlıq əleyhinə törədilmiş bu soyqırımı zamanı şəhərin 5379 nəfər əhalisi qışın qarlı-şaxtalı havasında ağır şəraitdə deportasiya olundu, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qaldı. Əsir və girov götürülənlərdən 150 nəfərin taleyi hələ də məlum deyil. Eyni zamanda, 487 Xocalı sakini müxtəlif bədən xəsarətləri aldı, minədək dinc sakin əlil oldu, 8 ailə tam məhv edildi, 613 nəfər, o cümlədən 63 uşaq, 70 qoca, 106 qadın ağılasığmaz işgəncələrlə vəhşicəsinə öldürüldü, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərdən hər ikisini itirdi, Xocalı şəhəri dağıdılaraq xarabalığa çevrildi.

Hadisələrin real görüntüləri 2 gün sonra aşkara çıxdı. Cəsədləri toplamağa gəlmiş iki helikopter ermənilər tərəfindən atəşə tutulduğu üçün onlar bu işi həyata keçirə bilmədilər. Onların içərisində jurnalistlər də var idi. Qarşıya çıxan mənzərə dəhşətli idi. İşgəncələrlə qətlə yetirilmiş hər tərəfə səpilmiş insan meyitlərinin olduğu sahə gələn qrupun nümayəndələrinin qanını dondurmaya bilməzdi. İnsanların kütləvi şəkildə və vəhşicəsinə qətl edilməsi onları və sonra bu görüntüləri görən bütün Azərbaycan xalqını və dünyanı dəhşətə gətirdi.

İnsanlığa sığmayan əməllər törətmiş, ağlasığmaz cinayət hərəkətləri ilə uşağa, yaşlıya, qadına rəhm etməmiş, insanları diri-diri yandırmış, gözlərini oymuş, müxtəlif orqanlarını kəsmiş ermənilər hətta meyitləri belə rahat buraxmayaraq onlara da xəsarət yetirərək çoxunun baş dərisini soymuş, meyitləri təhqir etmişdilər. Erməni qəddarlığı insanların yaxın məsafədən xüsusi qəddarlıqla öldürülməsi, hamilə qadınların qarınları cırılaraq dəlmə-deşik edilməsi, kişilərin baş dərilərinin soyulması, insanların qulaqları, burunları, qolları və başqa orqanları kəsilmiş vəziyyətdə olması, uşaqların amansızcasına işgəncə ilə öldürülməsində özünü açıq göstərirdi.

Bu hərəkətləri yerinə yetirərkən soyuqqanlılıq erməni millətçilərinin azərbaycanlılara nifrət və kinindən irəli gəlir. Bu da təəccüblü deyil. Onlar bu ideologiyada tərbiyə almış və ruhları azərbaycanlıya nifrətlə doyuzdurulmuşdu. Bu ideologiyanı yayan erməni ideoloqlardan biri də Zori Balayan idi. Qarabağ müharibəsinin və Xocalı qətliamının birbaşa iştirakçısı olan Z.Balayanın “Ruhumuzun dirçəlişi” adlı kitabı ilə bu gün hər bir azərbaycanlı və türk tanışdır. Bu kitabın 260-cı səhifəsində Xocalıda törətdikləri soyqırım hərəkətlərini etiraf etməklə yanaşı, əsl erməni xislətini ortaya qoyur.

Daha bir erməni müəllifi David Xerdiyan “Xaç uğrunda” kitabında Xocalıda baş verənlər və amansız qətliamda ermənilərin törətdikləri qeyri-insani əməlləri açıq etiraf edir.

“Artsaxın qəhrəmanı” ordenli Z.Balayan və onun kimilərinin ideyaları ilə, xeyir-duası ilə bu əməlləri törədən ermənilər ağlasığmaz və insanlığa yaraşmayan hərəkətlər törətmişlər. Bu gün hər bir azərbaycanlı onları tanımalı və düşmənin adlarını unutmamalıdır.

Azərbaycan dövləti həm Mart soyqırımı, həm də XX əsrin ən qanlı faciələrindən biri olan Xocalı faciəsinin dünyada və beynəlxaq aləmdə tanıdılması, bu qətliamlara siyasi-hüquqi qiymətin verilməsi, soyqırımı siyasətinin ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı aktı kimi tanınması üçün dövlət siyasəti aparır.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarı ilə hər il fevralın 26-sı “Xocalı Soyqırımı Günü” kimi qeyd olunur. 1995-ci il 24 fevral tarixində Milli Məclis dünya parlamentlərinə və müxtəlif beynəlxalq təşkilatlara Xocalı soyqırımı ilə bağlı müraciət etmişdir. “Xocalıya ədalət!” çağırışına indiyədək 18 dövlət müsbət cavab verməklə bu qanlı faciəni soyqırım aktı kimi qəbul etmişdir. Ulu öndər Heydər Əliyevin 1997-ci il 25 fevral tarixli fərmanı ilə hər il 25 fevral saat 17:00-da Xocalı soyqırımı qurbanlarının xatirəsi bütün ölkə ərazisində sükutla qeyd edilir.

2020-ci ilin sentyabrında İkinci Qarabağ müharibəsindəki tarixi qələbə və 2023-cü ilin 19–20 sentyabrında Azərbaycan ordusunun lokal xarakterli antiterror tədbirləri nəticəsində torpaqlarını tamamilə işğaldan azad edən Azərbaycan Respublikası Qarabağ müharibəsində tarixi zəfər çalmaqla özü tarixi ədaləti bərpa etmiş oldu. Dünyanın bir sıra aparıcı dövlətlərinin Ermənistana açıq dəstək vermələrinə, silahlandırmalarına baxmayaraq, Azərbaycan tarixi torpaqlarını separatçılardan təmizləməyə nail oldu. Prezident İlham Əliyev 44 günlük müharibədən sonra Ağdamda çıxışında Z.Balayan və digərlərini yalançı qəhrəman adlandırmış və sinələrinə taxdığı dəmir-dümürləri tullamağı təklif etmişdi. O, Xocalı qatillərinə “Siz öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız” demişdi. Prezident İlham Əliyev Xocalı sakinləri ilə görüşdə qeyd edirdi: “Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik. Və nəhayət, o tarixi an 2023-cü ildə yaşandı”. 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı qaldırılmaqla tarixi ədalət bərpa olundu.

Bu gün bizə əsrlərdən bəri düşmən münasibəti bəsləyən, bunu təkcə bir millətin ruhunda yaşatmaqla bərabər dövlət siyasətinə çevirən bir xalqın azərbaycanlılara qarşı zaman-zaman törətdiyi əməlləri gənc nəslin unutmaması üçün hərtərəfli iş görmək bizim öhdəmizə düşür. Tariximizi öyrənməli və tarixdən dərs çıxarmalıyıq. Müzəffər ordumuzun və dövlətimizin uğurlu siyasəti sayəsində əldə etdiyimiz Qələbəni və siyasi uğurları, dövlətimizin ərazi bütövlüyünü və müstəqilliyini qoruyub saxlamaq hər bir Azərbaycan vətəndaşının müqəddəs amalıdır.

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı, professor***

# Süni intellekt və Azərbaycanın rəqəmsal gələcəyi

## *Hədəflər, prioritetlər, vəzifələr*

**Prezident İlham Əliyevin 19 mart 2025-ci il tarixli sərəncamı ilə təsdiq edilən “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”nda bir sıra prioritet istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bu zaman süni intellektin inkişafını şərtləndirən milli prioritet sektorları üzrə məsul dövlət orqanlarının müəyyənləşdirilməsi, süni intellekt sistemlərinin dizaynı, tətbiqi və istifadəsi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin aydınlaşdırılması, eləcə də həmin risklərin qarşısının alınması qaydalarının təsdiqlənməsi qarşıya önəmli vəzifə kimi qoyulub.**



Strategiyada süni intellektin idarə edilməsinin inkişafı və təkmilləşdirilməsini şərtləndirən əsaslandırma məsələləri də diqqətə çatdırılıb. Belə ki, sənəddə innovasiya yönümlü sərmayələrin cəlbini sürətləndirən, cəmiyyətin maraqlarını və dəyərlərini qoruyan süni intellekt üzrə idarəetmə sisteminin yaradılmasının zəruriliyi xatırladılıb. Eyni zamanda, dünyada süni intellektin inkişafı üçün beynəlxalq tərəfdaşlarla əməkdaşlıq qurulması sözügedən strategiyanın prioritet istiqamətlərindən biri kimi dəyərləndirilib. Beləliklə, innovatorların, tədqiqatçıların və sahibkarların fəaliyyətini dəstəkləyən, stimullaşdıran, eləcə də əhalinin süni intellekt texnologiyalarına inamını reallaşdıran idarəetmə sisteminin formalaşdırılması nəzərdə tutulub.

“Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”nda gözlənilən nəticə indikatorları isə aşağıdakı kimi sıralanıb:

**– innovasiya yönümlü investisiyaları cəlb edən və cəmiyyətin maraqlarını qoruyan süni intellekt idarəetmə sisteminin qurulması;**

**– süni intellektin təsirini artırmaq və resurslardan daha səmərəli istifadəni gerçəkləşdirmək məqsədilə kənd təsərrüfatı, səhiyyə, nəqliyyat, təhsil və digər prioritet sektorların müəyyənləşdirilməsi;**

**– süni intellekt tətbiqlərində şəffaflığı, ədalətliyi və etik prinsiplərə uyğunluğu reallaşdırmaq məqsədilə hüquqi çərçivənin hazırlanması, habelə beynəlxalq standartlara uyğun milli normativ hüquqi bazanın işlənilməsi və tətbiqi;**

**– süni intellekt ekosistemində qlobal səviyyədə Azərbaycan Respublikasının mövqeyini gücləndirmək məqsədilə regional və beynəlxalq tərəfdaşlıqların inkişafının sürətləndirilməsi.**

Sənəddə strategiyanın icrasında yarana biləcək riskləri neytrallaşdırmaq məqsədilə süni intellektin tətbiqi potensialı və tələblərini nəzərə almaq şərtilə hər bir sektorda ətraflı təhlillərin aparılacağı, mütəxəssislərin və ekspertlərin fikirləri, təklifləri əsasında prioritet sektorların müəyyənləşdiriləcəyi, pilot layihələrin həyata keçiriləcəyi və resursların balanslı şəkildə bölüşdürüləcəyi də nəzərdə tutulur.

Strategiyada qeyd edilib ki, məlumat idarəetməsinin və infrastrukturunun təkmilləşdirilməsi rəqəmsal transformasiyanın formalaşmasında əsas rol oynayacaq, bununla da dövlət orqanları və özəl sektor üçün etibarlı, səmərəli və innovativ həllərin inkişafı təmin ediləcək. Eyni zamanda, məlumatların səmərəli idarə olunması, açıq məlumatların genişləndirilməsi, yüksəksəviyyəli hesablama imkanlarının artırılması və Təbii Dil Emalı (TDE) texnologiyalarının gücləndirilməsi süni intellektin və data əsaslı qərar qəbuletmənin inkişafına töhfə verəcək.

Bütün bunların reallaşdırılması üçün yüksəksəviyyəli hesablama infrastrukturunun inkişafı, TDE üzrə istiqamətlərin gücləndirilməsi, məlumatlardan səmərəli istifadə, onların təhlükəsizliyinin və fərdi məlumatların mühafizəsinin gerçəkləşdirilməsi və məlumatyönümlü idarəetməyə keçidin təşkili istiqamətlərində layihələr reallaşdırılacaq.

Strategiyada yuxarıda sadalananlarla yanaşı, süni intellekt üzrə istedad və bacarıqların təkmilləşdirilməsi, əlverişli biznes mühitinin yaradılması kimi məsələlərin də həllinin zəruriliyi vurğulanıb və bu istiqamətlərdə həyata keçiriləcək tədbirlərin mahiyyəti açıqlanıb.

### Ekspert rəyi

*Ayaz MUSEYİBOV,*
***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini***



Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”nın məqsədi ölkədə süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarını təkmilləşdirmək, habelə ixtisaslı kadr potensialını gücləndirməkdir. Sənəddə nəzərdə tutulan tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsini Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcəkdir.

Strategiya Azərbaycanın qlobal inkişaf tendensiyalarına uyğun olaraq süni intellekt sahəsində beynəlxalq çağırışlara cavab vermək və ölkənin rəqabət qabiliyyətini artırmaq məqsədini daşıyır. Həmçinin yüksək hesablama infrastrukturunun inkişafı, süni intellektin etik və məsuliyyətli istifadəsi, qlobal standartların tətbiqi, məlumatların məxfiliyinin qorunması, eləcə də innovativ həllərin risklərinin azaldılması da hədəflər arasındadır.

Strategiya çərçivəsində həyata keçiriləcəyi nəzərdə tutulan prioritet istiqamətlər məqsədə çatmaq üçün süni intellektin inkişafını dəstəkləyəcək, müvafiq infrastrukturu quracaq, etik və hüquqi çərçivə yaradacaq, kadr potensialını gücləndirəcək, eyni zamanda, əlverişli biznes mühitinin yaradılmasını şərtləndirəcək.

Süni intellektin idarə edilməsinin inkişafı, eləcə də təkmilləşdirilməsi prioritetinin icrası nəticəsində innovasiyaların təşviqi və sərmayələrin cəlbi ilə ölkə iqtisadiyyatı gücləndiriləcək, eyni zamanda, etik və hüquqi çərçivə yaradılması ilə cəmiyyətin maraqları qorunacaq, süni intellektin tətbiqi zamanı şəffaflıq və ədalət reallaşdırılacaq. Bu, həmçinin süni intellektə olan etimadı artıraraq sosial və iqtisadi faydaların daha geniş yayılmasına imkan verəcək.

Strategiyada “Məlumatların idarəedilməsinin və infrastrukturunun təkmilləşdirilməsi” prioritetinin icrası məlumatların səmərəli idarə olunmasını, təhlükəsizliyini və yüksək hesablama infrastrukturunun inkişafını təmin edəcək. Təbii Dil Emalı (TDE) texnologiyalarının gücləndirilməsi müxtəlif sektorlarda məlumatların təhlilini asanlaşdıracaq və qərar qəbuletmənin səmərəliyini artıracaq. Bu, eyni zamanda, süni intellektin tətbiqi üçün lazımi texnoloji bazanın yaradılmasına, məlumatların daha düzgün və təhlükəsiz istifadəsinə və məlumatəsaslı qərar qəbuletmənin gücləndirilməsinə xidmət edəcək. Nəticədə rəqəmsal transformasiyanın inkişafına və müasir texnologiyaların səmərəli istifadəsinə imkan yaranacaq.

“Süni intellekt sahəsində istedad və bacarıqların təkmilləşdirilməsi” prioritetinin icrası süni intellekt sahəsində ölkənin kadr potensialını gücləndirərək mütəxəssislərin hazırlanmasını gerçəkləşdirəcək və dövlət orqanlarının rəhbər heyətinin süni intellektin tətbiqi sahəsində biliklərini artıracaq. Bu, həm də dövlətin və özəl sektorun rəqəmsal transformasiyasını sürətləndirəcək, ölkənin süni intellekt sahəsində beynəlxalq mövqeyini möhkəmləndirəcək. Eyni zamanda, tədqiqatların təşviqi ilə cəmiyyətdə texnologiyalara inam gücləndiriləcək və süni intellektin tətbiqinin etik və məsuliyyətli şəkildə yayılması təmin ediləcək.

“Əlverişli biznes mühitinin yaradılması” prioritetinin icrası isə süni intellekt sahəsində sərmayə qoyuluşunu artırmağa, innovasiyaları dəstəkləməyə və bazar iştirakçıları üçün əlverişli şərait yaratmağa xidmət edəcək. Dövlətin təşviq etdiyi qanunvericilik dəyişiklikləri və təşviqatlar vasitəsilə startaplar və texnoloji şirkətlər üçün daha əlverişli iş mühiti yaradılacaq. Bu, həmçinin müstəqil sahibkarlığın inkişafını sürətləndirəcək, yerli və beynəlxalq investorların diqqətini cəlb edəcək və süni intellektin inkişafına töhfə verəcək. Nəticədə iqtisadiyyatda yeni iş imkanları yaradılacaq və rəqabət qabiliyyəti güclənəcək.

# Aqrar sığorta meyvəçiliyi də himayə edir

## *Ötən müddətdə bu sahədə ödənişlər 18 dəfə çoxalıb*

**Ölkəmizdə dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmindən faydalanan fermerlərin sayı və onlara edilən ödənişlərin məbləği getdikcə artır. Sığorta ödənişlərinin həcmində meyvə bağları daha çox üstünlük təşkil edir.**



Aqrar Sığorta Fondunun məlumatına görə, 2024-cü ildə meyvə bağlarında baş verən müxtəlif hadisələr nəticəsində dəyən zərərlər üzrə bağını sığorta etmiş fermerlərə, ümumilikdə, 721 min manat ödəniş edilib. Bu da əvvəlki ilin göstəricisinə nisbətən 18 dəfə artıqdır. Xatırladaq ki, 2023-cü ildə meyvə bağları üzrə, ümumilikdə 39 min manat sığorta ödənişi edilmişdi.

Ötən il fermerlərin aqrar sığorta barədə məlumatlılıq səviyyəsinin daha da yüksəlməsi, sığortalanan meyvə bağlarının sahəsinin genişlənməsi və təbiət hadisələrinin tezliyinin artması nəticəsində sığorta ödənişləri kəskin artımıb. İl ərzində meyvə bağları üzrə aqrar sığorta ödənişləri ölkənin bütün iqtisadi regionlarında həyata keçirilib. Ən çox sığorta ödənişləri üzüm, gilas, alma, badam, ərik, alça, armud, şaftalı, qoz, limon, naringi, nektarin, xurma və sair məhsullar üzrə həyata keçirilib.

Sığorta ödənişinə səbəb olan əsas hadisələr isə fırtına-qasırğa, dolu, şaxtavurma halları olub. Belə ki, 2024-cü ildə meyvaə bağlarına edilmiş sığorta ödənişlərindən 130 min manatı şaxtavurma hadisəsi üzrə həyata keçirilib. Hazırda müxtəlifi meyvə bağları və əkinlər üzrə sığortalanma prosesi davam edir. Xatırladaq ki, 2024-cü ildə aqrar sığorta mexanizmindən istifadə edən fermer və təsərrüfatlara müxtəlif hadisələr üzrə, ümumilikdə 6,4 milyon manat sığorta ödənişi edilib. Bu isə əvvəlki illə müqayisədə 2 milyon manat çoxdur.



Yeri gəlmişkən, ölkəmizdə meyvə bağlarının şaxtadan və digər risklərdən sığortası mövsümü başlayıb. Aqrar Sığorta Fondunun məlumatına görə, meyvə bağı olan fermerlər və təsərrüfat sahibləri aqrar sığorta vasitəsilə bağlarını çoxsaylı risklərdən sığorta edə bilərlər. Qeyd edək ki, aqrar sığorta əkin sahələrini, o cümlədən meyvə bağlarını 30-a yaxın riskdən qoruyur. Buraya şaxtavurma (donvurma), dolu, doludan keyfiyyət itkisi, fırtına, qasırğa, normadan artıq qar yağıntıları, sel-subasma, vəşhi heyvanların və quşların hücumu, leysan yağaşları və sair aiddir.

Fonddan o da bildirilib ki, fermerlər aqrar sığorta vasitəsilə bağdakı meyvələri, ağacları və tingləri sığorta edə bilərlər. Meyvə bağına bu hadisələr nəticəsində zərər dəydikdə 10 faizlik azadolma məbləği çıxılmaqla qalan ziyan fermerə ödənilir. Bağ sahibləri üçün aqrar sığortanın əsas üstünlüyü sığorta haqqına olan 50 faizlik dövlət dəstəyidir. Məlum olduğu kimi, meyvə bağı sığortasında sığorta haqqının tən yarısını fermerə dəstək məqsədilə dövlət tərəfindən ödənilir. Nəticədə, fermerlər cüzi ödənişlə bağlarını sığorta edə bilərlər. Məsələn, meyvə bağında 1000 manatlıq məhsulu sığortalamaq üçün sığorta haqqı şaftalı-nektarin üzrə 12,8 manatdan, ərik üzrə 11,2 manatdan başlayır. Gilas və albalı bağında 1000 manatlıq məhsulun sığortalanması üçün fermerin ödədiyi məbləğ 17-18 manatdan, xürmada 11 manatdan, alça və gavalı bağlarında isə 17,6 manatdan başlayır.

Bununla yanaşı, 1000 manatlıq alma və armud məhsulllarını sığorta etdirmək üçün 16,4 manat, heyva üçün 13 manat, hər 1000 manatlıq nar məhsulunun sığortası üçün isə cəmi 8,2 manat tələb olunur. Naringi-portağal bağlarında 1000 manatlıq meyvənin sığortası 12,9 manatdan, qoz-fındıq bağlarında isə 7-10 manatdan başlayır.

Göründüyü kimi, ölkədə meyvə bağlarının sığortası və baş verən hadisələrə görə sığopta ödənişlərinin həcmi ildən-ilə artır. Aqrar sığorta məhsulları, əkinlərin və heyvanların sığortalanması şərtləri və sığorta haqları barədə ətraflı məlumatları isə Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsindən (asf.gov.az), eləcə də 1651 çağrı mərkəzinə müraciət etməklə almaq mümkündür.




# İsveçrə “Stadler”i Abşeron dairəvi dəmir yolunda

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti (ADY) sərnişin məmnuniyyətinin təmin edilməsi və sərnişin sıxlığının qismən tənzimlənməsi məqsədilə aprelin 1-dən Abşeron dairəvi marşrutu üzrə qatarların hərəkət cədvəlinin optimallaşdırılması çərçivəsində bu xətt üzrə ilk dəfə olaraq İsveçrənin “Stadler” şirkətinin istehsalı olan FLIRT qatarını istifadəyə verib. Yeni qatar şəhərətrafı istiqamət olan Bakı–Xırdalan–Bakı istiqaməti üzrə xəttə buraxılıb.**

ADY-dən verilən məlumata görə, birmərtəbəli, 5 vaqonlu müasir qatarın sərnişin tutumu 550 nəfərədək (268 oturacaq olmaqla) təşkil edir. Qatarın maksimal sürəti 125 kilometr-saat, orta sürəti isə 85 kilometr-saat təşkil edir.

FLIRT qatarının istifadəyə verilməsi ilə əlaqədar olaraq Biləcəri stansiyasında 550 mm-lik yeni platforma tikilib, Sumqayıt istiqamətində mövcud 1100 mm-lik platformanın bir hissəsi endirilərək 550 mm-lik ölçüyə salınıb. Xırdalan stansiyasında isə mövcud platforma 550 mm-lik ölçüyə uyğunlaşdırılıb.

Qatar gündəlik 10 reys həyata keçirir, Bakıdan Xırdalana 21, Xırdalandan Bakıya olan məsafəni isə 22 dəqiqəyə qət edir. Yeni qrafikə əsasən, Xırdalandan saat 06:53-də hərəkətə başlayan qatar paytaxta saat 07:15-də çatır. Bu da iş vaxtı saat 8-də başlayanlar üçün əlavə imkanlar yaradır. FLIRT qatarı ilə Xırdalandan Bakıya növbəti reys saat 08:00-a təyin olunub.

Yeni FLIRT qatarı hərəkət intervalına nəzarət və qatarların optimal məsafədə saxlanılması, sürət həddinin avtomatik tənzimlənməsi və aşılması halında xəbərdarlıq edilməsi, təcili dayanma mexanizmi, qəza və ya icazəsiz hərəkət hallarında qatarın dayandırılması, siqnal sistemləri ilə inteqrasiya, maşinistin xəbərdarlıq və təlimatları alması kimi müasir təhlükəsizlik sistemlərini dəstəkləyir. Həmçinin qatar məlumatların qeydə alınaraq fayl kimi saxlanılması və nasazlıqların təhlilini təmin edir.

ADY-nin qatarla maneəsiz, sürətli, təhlükəsiz daşımalar, Abşeron dairəvi dəmiryol marşrutu üzrə qatarburaxma, eləcə də sərnişindaşıma və ötürücülük qabiliyyətinin yüksəldilməsi məqsədilə həyata keçirdiyi tədbirlər “Bakı şəhəri və ətraf ərazilərdə 2025–2030-cu illər üzrə mobilliyin transformasiyası proqramı” və “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”nda göstərilən əsas hədəflərə çatmaqda önəmli rol oynayır, şəhər mobilliyinin təmin olunmasına ciddi töhfə verir.

*Səhifəni hazırladı:*
*V.BAYRAMOV,*
*M.YAQUBZADƏ*
*XQ*

**Ağa Mehdiyev – 105**

# "Ruhun rəssamı"nın "rənglər bayramı"

**Koloritdən güclü emosional təsir vasitəsi kimi istifadə edən, öz əsərlərini ahəngdar və dekorativ rəng çalarlarında işləyən Xalq rəssamı Ağa Mehdiyev gözəlliklər yurdu İsmayıllının yeddi dağ arasında yerləşən Lahıc qəsəbəsində dünyaya göz açaraq rəngarəng yaradıcılıqla dolu həyat yolu keçib. Novruz bayramına təsadüf edən doğum günü, Girdiman çayının, uca dağ şəlalələrinin, bulaqların axdığı, misgərlərin çəkic zərbləri ilə həmahəng, nəfis ornamentli xalçalar diyarı olan bu torpaqda dünyaya gəlişi həyatı boyu yaratdığı tabloların rəng və koloritində özünü coşqunluqla büruzə verib.**



Onun qardaşları elmi, özü isə təsviri sənəti seçmişdi. Manaf Süleymanov öz kitabında bu barədə belə yazır: "...Ağa Cəfərin övladlarından Soltan Mehdiyev kimya elmləri üzrə akademik, Əlövsət Mehdiyev tibb elmləri doktoru, professor idi, Ağa Mehdiyev isə istedadlı rəssamdır".

Ağa Mehdiyev 1938-ci ildə Azərbaycan Rəssamlıq Texnikumunu bitirəndən sonra bir çox respublika və ümumittifaq sərgilərində iştirak edərək müxtəlif mövzu və janrlarda yaddaqalan əsərlər yaradıb. Rəssam "Gizli "Nina" mətbəəsi", "Savadlılar ailəsi", "Partizan", "Zaqatala peyzajı", "Fərhad dağ çapır", "Bakıda "Kommunist" küçəsi", "Qatır Məmmədin dəstəsi", "Qurzuf", "Xəzər neftçiləri", "Tərbiyəçi", "Lahıc", "Girdiman", "Göyçay", "Köhnə neft mədənində", "Ayıdağ" və s. kimi ilkin yaradıcılıq əsərlərində kompozisiyanın bütövlüyünə, rənglərin ifadəli çıxmasına nail olub. Yaradıcılığında kitab tərtibatına da yer verib. "Xoruz", "Qarı və buzov", "Balaca maşinist" kimi kitablara uşaqların zövqünə uyğun gözəl rəsmlər çəkib.

Əgər XX əsrin 20-30-cu illəri Azərbaycanda peşəkar rəngkarlıq sənətinin formalaşma dövrü kimi əlamətdardırsa, 50-60-cı illər isə rəngkarlığın yeni sənət üfüqlərinə, orijinal ifadə tərzinə, janr rəngarəngliyinə yüksəlməsi dövrü olub. Bu dövr ciddi yaradıcılıq axtarışları aparan, sənətdə öz dəst-xətti ilə seçilən yeni rəssamlar nəslinin yetişdiyi mərhələ idi. Azərbaycan incəsənətində dəzgah boyakarlığının özünəməxsus kolorit zənginliyi ilə seçilən Ağa Mehdiyev məhz bu dövrdən öz sözünü bacarıqla deyən rəssamlarımızdan olub.

Onun əsərləri 20-dək ölkədə uğurla nümayiş etdirilib, dəfələrlə fərdi sərgiləri keçirilib. Məsələn, Yaponiyada rus və sovet incəsənətinin fəal təbliğatçısı kimi tanınmış kolleksiyaçı xanım Nakamura rəssamın 12 peyzajını əldə etmiş və 1976-cı ildə "Müasir sovet rəngkarlığı" sərgisinin kataloqunda onun Tokiodakı şəkil qalereyasında olan 3 peyzajı yer almışdı. Güclü rəng hissiyyatına malik olan sənətkarın "Türkiyədə" seriyasına daxil olan tablolarında heyrətamiz mənzərələr, arxitektura özəllikləri peşəkar yetkinliklə tamaşaçı müzakirəsinə təqdim edilib. Ağa Mehdiyevin "M.Ə.Rəsulzadənin portreti" əsəri M.Ə.Rəsulzadə tərəfindən Ankarada qurulan (1949) "Azərbaycan Kültür Dərnəyi"ndə daimi ekspozisiyada yer alıb.

Şərtilik yalnız rəsmlərin kompozisiya quruluşu və obrazların həllində deyil, rəssamın ümumi təsvir dilində, metodunda özünü göstərirdi. Ağa Mehdiyevin rəsmlərinin koloroti də şərti dekorativ xarakter daşıyırdı. Onun "Yolasalma", "İntizar", "Eyvanda", "Səhər", "Xalçaçı", "Nar yığımı", "Uca dağlarda", "Bahar", "Kamança çalan", "Yaylaqda", "Xalq bayramı", "Güləş", "Yağışdan sonra", "Qızmar gün", "Abşeron", "Köhnə həyət", "Sakitlik", "Qayıqlar", "Dağlar", "Qala", "Çoban", "Dağlı qadın", "Lahıclı qız", "Günəşli gün", "Təndir başında", "Payız", "Bürkü", "Şər qarışanda" və s. kimi əsərlərində Azərbaycanın dilbər guşələrini, sadə insanların portretlərini, zəhmətini, gözəlliyini görürük. Rəssam hadisələrin cərəyan etdiyi mühiti, hava və işıq effektlərini inandırıcı verə bilir, günəşli palitraya meyl edirdi. Buna görə də onun tablolarında parlaq günəş işıqları bərq vurur.



Tanınmış şair, ədəbiyyatşünas Rəfiq Zəka Xəndan 1996-cı ildə Türkiyədə nəşr olunan "Candaş" qəzetində Ağa Mehdiyevi "Ruhun rəssamı" adlandırmışdı. Çünki onun əsərləri ruh oxşayır. Rəssam sanki predmetin yox, rəngin, kompozisiyanın axtarışındadır. Məşhur fransız rəssamı Ejen Delakruanın sözləri ilə desək, "Hər bir tablonun birinci təəssüratı bayram olmalıdır". Ağa Mehdiyevin tabloları rənglərin bayramıdır, mövzusundan asılı olmayaraq, çılğın rəng çalarlarının bir-biri ilə vəhdəti bunu sübut edir. Rəssamın yaradıcılığında şəxsiyyətlərin xarakterik cizgilərini büruzə vermək, obrazlarda tipik cəhətləri üzə çıxarmaq bacarığı bütün tablolarında müşahidə edilir.

Azərbaycan təsviri sənəti tarixində iz qoymuş Ağa Mehdiyev 83 il ömür sürüb. Onun incəsənətimizin qiymətli nümunələri olan əsərləri sənətkarı yaddaşlarda daim yaşadacaq.

***Könül ƏZİMOVA,***
***Rəssamlar İttifaqının üzvü, sənətşünas***

**Bir fotonun tarixçəsi**

**Düz 55 il əvvəl ekranlara çıxmış məşhur filmin əsas qəhrəmanları çəkilib bu fotoda. Yazıçı-ssenarist Yusif Səmədoğlunun atası - Xalq şairi Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında yazdığı "Yeddi oğul istərəm" filminin 7 məşhur obrazı çay süfrəsi arxasında dincələrkən tarixin yaddaşına köçürülüblər.**

Yəqin ki, tanıdınız. Soldan-sağa: Elçin Məmmədov (Mirpaşa), Rafiq Əzimov (Şahsuvar), Həsən Məmmədov (Bəxtiyar), Ələsgər İbrahimov (Zalımoğlu), Şahmar Ələkbərov (Qəzənfər), Ənvər Həsənov (Cəlal) və Əbdül Mahmudov (Qasım) əyləşiblər.

Bəlkə də at məsələsi yada düşüb. Filmdə gündəlik çəkilişlərə görə aktyorlara 25, hər at üçün isə sahibinə 50 manat qonorar verilirmiş. Bunu eşidən kütləvi səhnə ifaçısı Eldəniz Zeynalov rejissora yanaşaraq deyib: "Qədeş, xahiş edirəm, məni kinoda at ştatına yaz. Onlara verilən pul mənə veriləndən çoxdur"...

# "Yeddi oğul istərəm"



Sovet quruculuğu dövründə vətəndaş qarşıdurmasına həsr olunsa da, Tofiq Tağızadənin rejissorluğu ilə ərsəyə gələn "Yeddi oğul istərəm" bir tarixdir və əslində, ötən əsrin 20-ci illərində komsomolun mübarizəsini deyil, xalqın o zamankı taleyini əks etdirir. Özü də Azərbaycan kinosunun incilərindən biridir. Gözəl aktyor ansamblı, maraqlı ssenari, yüksək ifaçılıq, rejissor və operator işi ilə seçilir. Vaxtilə Ümumittifaq Lenin komsomolu mükafatına layiq görülüb.

Bu foto film ekranlara çıxmazdan 1 il öncə çəkilib. Nə barədə danışıb-güldüklərini təxmin etmək çətindir. Bəlkə də çəkilişlərdə başlarına gələnləri xatırlayıb gülürlər. Axı, çətinliklərlə üzləşdikləri az olmayıb. Məsələn, Həsən Məmmədovun qıçı, Əbdül Mahmudovun isə qabırğaları sınıb, atın dişi Rafiq Əzimovun başını yaralayıb, amma buna baxmayaraq, onlar rollarına davam ediblər. İsmayıl Osmanlı (Kələntər dayı) da xətərsiz ötüşməyib. Ssenaridə Ənvər Həsənov ona şillə vurmalıydı. Gənc aktyor utandığından bunu edə bilmirmiş. Sonda İsmayıl Osmanlı təkid edib ki, bərk vursun, Ənvər Həsənovun şilləsi necə alınıbsa, aktyorun bir dişi düşüb...

Filmin bu gün həyatda olan bir neçə ifaçısı var – Xalq artistləri Əbdül Mahmudov (hazırkı Şeyx Əbdül), Rafiq Əzimov, bu şəkildə olmayan Əməkdar artist Fərhad İsrafilov (Qəqəni). Bir də Humay rolunun ifaçısı, kinodan erkən getmiş Zemfira İsmayılovanın hazırda İsraildə yaşadığı söylənir. 2 ay əvvəl "Mədəniyyət" kanalında gedən "Yaşananlar" verilişində Rafiq Əzimovun dediklərini xatırlayırıq: "Yeddi oğul istərəm" dünyanı fəth eləyib, hətta Amerikada etiraf olunub. "Filmin bəstəkarı, rəhmətlik Xəyyam Mirzəzadə deyirdi ki, ABŞ-da Brodveyi gəzərkən böyük bir reklam şitində "Yeddi oğul istərəm"in qəhrəmanlarının atların belində çapdıqlarını görüb. Təəccüb edib ki, Amerika hara, "Yeddi oğul istərəm" hara? Və ixtiyarsız olaraq gözlərindən yaş axıb".

Filmdə bir şeir səhnəsi var: Bəxtiyargil lampa işığında "Sirrini verməyir sirdaşa dünya" – deyirlər. Həqiqətən də, elədir. Biz isə filmin yaradıcılarına sevgilərlə bu fotonun bəzi "sirr"lərinə işıq tutmaq istədik.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Zaqatalada unudulmaz anlar...



**... Yanımda əyləşib. Tədbirin başlanmasına hələ bir az qalıb. Hamıdan tez gəlib. Üzündə təbəssüm var, sevinc var. Tanış oluruq. Xanım Muxtarova uzun illər rayon xəstəxanasında çalışıb. İndi təqaüddədir. Öyrənirəm ki, bu məktəbə Şıxəli Qurbanovun adı 1967-ci ildə verilib. Odur ki, elə həmin ilin sentyabrında əlinə çanta götürüb ilk dəfə dərsə gəlməsindən danışır: "İndiyədək yadımdadır, – deyir, – anamın başıma lent bağlamağı da, əlimdən tutub qonşu uşaqlarla birlikdə dərsə gətirməyi də... İnanın ki, hamıdan əvvəl biz gəlmişdik, lap bugünkü kimi. Sinif yoldaşlarımın hamısını, müəllimlərimi yaxşı xatırlayıram. Onların arasında sağ qalanlar da var, dünyasını dəyişənlər də..."**

... Görüş başlayır. Yaxından, uzaqdan çoxlu qonaq gəlib. Azərbaycan Yazıçılar Birliyinin Şimal-Qərb Regional Bölməsinin sədri Əlmaniz Ələkbərli də burdadır. Məktəb rəhbərliyinin əli kimə çatıbsa, dəvət eləyib. Aralarında çağırılmayanlar da var. Eşidib özləri gəliblər.

Tədbirin Novruz günlərində keçirilməsinin də ayrı ləzzəti var. İclas salonu başdan-başa bəzənib. Bu da təsadüfi deyil. Zaqatala şəhərindəki Şıxəli Qurbanov adına 3 saylı məktəbdə böyük ədibin 100 illik yubileyi keçirilir.

Bəri başdan deyim ki, yubileyə əməlli-başlı hazırlıq görülüb. Məktəbin həyətində qoyulmuş büst bərpa edilib. Ətrafı abadlaşdırılıb. Birinci mərtəbədə görkəmli ictimai-siyasi xadimin həyat yolunu əks etdirən panno quraşdırılıb.

İlk söz məktəbin direktoru Vüsal Qurbanova verilir. O, məktəbin yaranması tarixindən, ona 58 il bundan əvvəl Şıxəli Qurbanovun adının verilməsindən, həyətdə görkəmli ictimai-siyasi xadimin həmin büstünün qoyulmasından danışır. Böyük monitorda Şıxəli Qurbanovun həyat və fəaliyyətini əks etdirən şəkillər, video-süjetlər nümayiş etdirilir. Salona qızı Gülnarə Qurbanovanın səsi yayılır. O, atasına göstərilən bu diqqətə görə rayon rəhbərliyinə, Şəki–Zaqatala Regional Təhsil İdarəsinə, məktəbin kollektivinə və bir də bu tədbirin keçirilməsində xidməti olan hər kəsə Qurbanovlar ailəsi adından təşəkkürünü bildirir.

Sonra məktəbin şagirdlərinin ifasında yubilyarın şeirləri səsləndirilir, sözlərinə yazılmış mahnılar ifa olunur. "Əcəb işə düşdük" komediyasından parçalar nümayiş etdirilir.

Salondakılara baxıram. Novruz bayramının keçirilməsində böyük xidmətləri olan və bu bayrama pasport verən Şıxəli Qurbanovun belə xatırlanması hamıda iftixar hissi yaradıb.

Şəki–Zaqatala Regional Təhsil İdarəsinin rəisi Günay Mahmudova da gələn qonaqların arasındadır. Çıxış üçün söz ona verilir. Günay xanım tədbirdən çox razı qaldığını bildirir, gələcəkdə də belə tədbirlərin keçirilməsini tövsiyə edir.

... Aradan neçə gün keçib. Düşünürəm ki, hamı bu tədbirdə xoş anlar yaşayıb. Mənim isə ölməz bəstəkar Süleyman Ələsgərovun Şıxəli Qurbanovun sözlərinə yazmış olduğu və respublikanın əməkdar artisti Ehtiram Hüseynovun oxuduğu "Nə gözəlsən, mənim Şuşam" mahnısı yadımdan çıxmır.

**Hər yay sənin yaylağına,**
**Uçub gələn azad quşam.**
**Nə gözəlsən, mənim Şuşam,**
**Cəlalına vurulmuşam.**

Çox qəribədir ki, bütün tədbir boyu bu mahnını zümzümə eləmişəm. Özü də çox illər qabaq, təxminən 40 il bundan əvvəl, bu gün daha da gözəlləşən Şuşamızda olduğu kimi...

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Özbəkistan teatrında Azərbaycanın "Dostluq səhnələri"

**Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə Mukimi adına Özbəkistan Dövlət Akademik Musiqili Teatrında Beynəlxalq Teatr Günü münasibətilə Azərbaycan teatr sənətinə həsr olunmuş "Dostluq səhnələri" adlı təqdimat keçirilib.**



Teatr direktorunun müavini Xayrulla İnağamov bildirib ki, Özbəkistan teatrları zaman-zaman klassik Azərbaycan musiqili komediyalarına müraciət edib, həmişə də uğur qazanıb. O, Azərbaycan Dövlət Musiqili Komediya Teatrı və ölkəmizin digər teatrları ilə geniş əlaqələrinin olduğunu və iki il əvvəl Bakıda Məcid Şamxalovun "Qaynana" komediyası ilə çıxış etdiklərini söyləyib.

Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli isə bildirib ki, 152 yaşlı Azərbaycan teatrı bütün Şərqdə, o cümlədən Özbəkistanda teatrın yaranması və inkişafına böyük töhfə verib. Bu yaxınlarda Mədəniyyət Mərkəzində gənclərdən ibarət truppa yaradılıb və azərbaycanlı müəlliflərin əsərləri səhnələşdirilir. Bununla yanaşı, klassik və müasir azərbaycanlı müəlliflərin pyeslərinin də özbək dilinə tərcümə edilməsinə də start verilib.

Sonra teatrın aktyorları Üzeyir Hacıbəylinin "Arşın mal alan", Məcid Şamxalovun "Qaynana", AMM-nin teatr truppası isə "O olmasın bu olsun" musiqili komediyalarından səhnələr göstəriblər. Mədəniyyət Mərkəzinin "Azərbaycan" rəqs ansamblı səhnəçiklərdə çıxış edib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# Bakı Teatrının Şəki səfəri

**Mədəniyyət Nazirliyi teatrların regionlara təşkil olunan qastrol səfərlərini 2025-ci ildə də davam etdirir. Məqsəd regionlarda mədəni həyatın fəallaşdırılması, əhalinin, xüsusilə də gənclərin asudə vaxtının keyfiyyətinin yüksəldilməsi, yerli yaradıcı kollektivlərlə daha sıx ünsiyyət və faydalı təcrübə mübadiləsinə şərait yaratmaqdır. Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı "Xurşidbanu Natəvan" tamaşasını Şəki Dövlət Dram Teatrında Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı nümayiş etdirib.**

Teatrdan bildirilib ki, Xalq yazıçısı İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesi əsasında səhnəyə qoyulan eyniadlı yaradıcılıq işinin quruluşçu rejissoru Xalq artisti Azər Paşa Nemətov, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı Xalq artisti Siyavuş Kərimidir.

Səhnə əsərində Xalq artistləri Məleykə Əsədova, Kazım Abdullayev, Rafiq Əzimov, Hacı İsmayılov, Əməkdar artistlər Anar Heybətov, Elşən Cəbrayılov, Elnar Qarayev, Mirzə Ağabəyli, Kazım Həsənquliyev, Əlvida Cəfərov, Ayşad Məmmədov, Elşən Rüstəmov, aktyorlar Elçin Əfəndi, Cavidan Novruz, Vüsal Mustafayev, Ramin Şıxəliyev, Lalə Süleymanova, Məhsəti Tahirzadə, Rüstəm Rüstəmov və başqaları iştirak edirlər.

Tamaşa Şəki tamaşaçıları tərəfindən maraqla qarşılanıb.

***XQ***

Turan elləri

# Türkçülüyün nəzəri yaradıcısı

*“Ziya Göyalp olmasa idi, Atatürk də olmazdı”*

**O, ötən əsrin əvvəllərində Türkiyədə gəncliyin məfkurə axtarışında olduğu bir dönəmdə özündən əvvəlki böyük türkoloqların ideyalarını sistemləşdirib türkçülüyün milli ideologiyasının elmi əsaslarını yaradıb. O, bu tarixi missiyanı o qədər heyrətamiz bir şövq və vəcdlə görüb ki, Turanın dünəni, bugünü və sabahı ilə bağlı parlaq fikir və düşüncələri milyonların qəlbinə yol tapıb. Bu böyük şəxsiyyətin adı və soyadı Ziya Göyalpdır!**



Onun uca və sevimli milləti qarşısında xidmətləri o qədər böyükdür ki, fikrimcə, bu barədə yazmaq üçün hansısa bir səbəb axtarmağa, yaxud təqvimin uyğun günlərini gözləməyə ehtiyac yoxdur. Bu dahi fikir və düşüncə adamını tez-tez xatırlayıb yada salmaq bir vəfa borcumuzdur. Z.Göyalpın və məsləkdaşlarının türkün, bütövlükdə, Turanın tərəqqi və inkişafı naminə başladıqları missiyanın daşıyıcıları və davamçıları olmaqdan şərəfli nə ola bilər?!

Ziya 1876-cı il martın 23-də Diyarbəkirdə anadan olub. Atası Mehmet Tofik dövrünün istedadlı qəzetçilərindən idi. Övladlarını doğma yurda, torpağa sonsuz sevgi, sədaqət ruhunda tərbiyə edərək böyüdüb. Misal üçün deyək ki, bu evdə ünlü şair, mütəfəkkir Namiq Kamalın Vətəni vəsf edən gözəl şeirləri xüsusilə çox sevilib.

1895-ci ildə qardaşı Nihat bəy 19 yaşlı Ziyanı özü ilə İstanbula aparıb. Gənc, çılğın Ziya Baytarlıq məktəbinə daxil olsa da, o dövrdə rejim əleyhinə çalışanlarla əlaqə yaradıb. O, çap etdirdiyi “Bahar” məcmüəsini gizli şəkildə yaydığına görə, 1898-ci ildə həbs edilərək 10 ay Taşkışla, sonrakı 3 ay müddətində isə Zəptiyyə həbsxanalarında saxlanılıb. Həbsdən sonra onun doğma Diyarbəkirə yalnız göz dustağı olaraq qayıtmasına icazə verilib.

Ziya rəhmətə getmiş əmisinin qızı Vəcihə xanımla evlənib və şəhərdəki ticarət idarəsində məmur kimi çalışmağa başlayıb. Amma yenə də “dinc” oturmayıb, siyasi mövzularda iti qələmini işə salıb. “Diyarbəkir” qəzetində cəmiyyəti narahat edən mövzularda aktual yazılar çap etdirib. 1908-ci ildə II Məşrutiyyət elan ediləndə, “İttihad və tərəqqi” cəmiyyətinin Diyarbəkir şöbəsini yaradıb, “Diyarbəkir” qəzetilə əməkdaşlıq ilə yanaşı, özünün nəşr etdirdiyi “Peyman” qəzetində vətənpərvər fikirlərini yayıb.

Diqqət yetirsək görərik ki, bu dövrdə Ziya Göyalp hələ türkçü deyil, osmançı və islamçı idi. 1909-cu ildə “İttihad və Tərəqqi” cəmiyyətinin Salonikidə keçirilən qurultayına Diyarbəkirdən təmsilçi olaraq qatılan Z. Göyalp burada dövrün ən böyük sosioloqlarından sayılan Emil Dürkheymin əsərlərinin təsiri ilə Türkiyənin sosial və siyasi məsələlərini dərindən öyrənib. Və məhz həyatının bu dönəmində türkün əbədi səadəti naminə aradığı idealları özündən əvvəlki türkçülərin irəli sürdüyü turançılıqda tapıb və bu amal uğrunda mübarizəni həyatının mənasına çevirib.

Populyar “Gənc qələmlər” dərgisində yazılar çap etdirən Z.Göyalp xüsusilə “Turan” şeiri ilə bu jurnala turançılıq ideyası ilə yep-yeni bir ruh gətirib. Bu dövrdə türk gəncliyi millətin xilas yolunu göstərən bir məfkurə arayırdı ki, Z.Göyalpın “Turan” şeiri, onun şərh və təsviri ilk qığılcım rolunu oynadı. Bəli, “Turan” şeiri Z.Göyalpın fikri inkişafında bir dönüş nöqtəsi idi:

**Vətən nə Türkiyədir türklərə,**
**nə Türküstan,**
**Vətən böyük və əbədi**
**bir ölkədir –Turan!**

1912-ci ildə Erqani bölgəsindən millət vəkili seçilən Z.Goyalp İstanbula gələrək, burada həm “İttihad və Tərəqqi” partiyasında siyasi fəaliyyətini davam etdirmiş və həm də sosiologiyanı çox gözəl tədqiq etdiyi üçün darülfünunda bu bölməni yaratmış, orada bu fəndən dərs demişdir. O, bu partiya tərəfindən o dövrdə həyata keçirilən bir çox sosial islahatların müəllifi və icracısı olmuşdur.

Onun parlaq publisistikası kütlələrin fikir və düşüncələrinə hakim kəsilirdi. Ziyalılar, gənc zabitlər onun milli ruh və qələbə əzmi aşılayan əsərlərini oxuyaraq ruhlanırdılar. Osmanlı imperiyasının bətnindən yeni Türkiyə doğulurdu! O dönəmdə Z.Göyalpın ən həyəcanlı oxucularından biri türk xalqına istiqlal yaşadan Mustafa Kamal Atatürk olmuşdur. Mustafa Kamal sonralar demişdi ki, Ziya Göyalp olmasaydı, Atatürk də olmazdı.

Z.Göyalp sanki həyatın ona zaman limitini xəsisliklə ayırdığından xəbərdar idi, Türkiyə dövləti və milləti ayağa durması naminə sonsuz bir enerji ilə qurub-yaratmağa tələsirdi. 1918–1922-ci illərdə Türk tarix və mədəniyyətini yeni bir görüşlə araşdıraraq elmi milliyyətçiliyin əsaslarını işləyib hazırlamışdır. O, bu elmi ilə yanaşı, dünyagörüşünü və ideyasını anladan şeirlər də yazmışdır. Göyalp yeni fikirləri ilə bu illərdə vücuda gələn Türk milli ədəbiyyat cərəyanının təşəkkülündə mühüm rol oynamış, milli ədəbiyyata xalq dilinin, türk tarix, əfsanə və xalq ədəbiyyatının qapılarını açmış, onları küll halında məfkurəvi mübarizələrin bir sözcüsü halına gətirmişdi.

Onun həyatı canından çox sevdiyi Vətəni kimi, fırtına və təlatümlərlə dolu idi. 1919-cu ildə İstanbulu işğal edən ingilislər “İttifad və Tərəqqi” partiyasının üzdə olan nümayəndələrini, o cümlədən Z.Göyalpı həbs edərək Əhməd bəy Ağaoğlu və digərləri ilə bərabər Malta adasına sürgün etmişdilər. Z.Göyalp 1921-ci ildə sürgündən qayıtdıqdan sonra Diyarbəkirə gələrək “Kiçik məcmuə” adlı dərgi nəşr etdirməyə başlamışdı.

Bu dövrdə artıq türkçülük bir məfkurə halına gəlmiş və Türk dövlətini idarə edənlərdə məmləkətdən kənarda olan türk-müsəlman qardaşlarına qarşı yaxınlıq hissləri artmış, Z.Göyalpın dərin bir inam hissilə anlatmağa çalışdığı “Turan” ölkəsi anlayışı zehinlərdə yer tutmağa başlamışdı. Onun ideyalarını və yaradıcılıq yolunu təqib və təqlid edən bir sıra yazıçı və şairlər də türkçülük və turançılıq ruhunda əsərlər yazmağa başlamışdılar.

Z.Göyalpın təsiri ilə türkçülük Türkiyə hökumətinin rəsmi ideologiyasına çevrilmişdi. Hətta dövlətin hərbi naziri Ənvər Paşa və xarici işlər naziri Tələt Paşa turançılığı dövlətin xarici siyasətinin əsas amili kimi qəbul etmiş və bu yöndə konkret addımlar da atmışdılar. Bu mərama sadiq qalaraq onlar Qafqaz Türk İslam Ordusunu yaratmış, Azərbaycana və Şimali Qafqaza göndərmişlər. Bu ordunun sayəsində erməni daşnaklarının burada türk-islam əhalisinə qarşı törətdiyi soyqırımlara son verilmişdir. Beləliklə, Quzey Azərbaycan və Şimali Qafqaz öz müstəqilliyini əldə etmişdir.

**Nuru paşa at belində**
**Türkiyədən – Qarsdan gəlir.**
**“Azərbaycan” deyə-deyə,**
**Yaralanmış aslan gəlir...**

Bu misralar Xalq şairi Nəriman Həsənzadənin “Nuru paşa” poemasındandır. XX əsrin əvvəllərində bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru paşanı göydən enmiş xilaskar mələk kimi qarşılamışdı. Qısa müddət sonra isə türk qardaşlarımızı Bakını erməni-daşnaklarından xilas edəcəkdilər. Qədirbilən Azərbaycan xalqı bu yaxşılığı heç vaxt unutmayacaq!

Z.Göyalp Bakının azad edilməsi xəbərini eşidəndə dünyalar qədər sevinmişdi. Türk əsgərinin bu tarixi zəfəri onun Turanın gələcəyinə olan dərin inamını daha da gücləndirmişdi. O, öz fikir və mülahizələrini proqram şəklinə salaraq sonradan onu “Türkçülüyün əsasları” adı ilə nəşr etdirmişdir. Bu əsər Ziya Göyalpın qələmindən çıxan ən dəyərli əsərlərdəndir. Müəllif belə yazmışdır: “Millət nə irqi, nə qövmi, nə coğrafi, nə siyasi və nə də iradi bir zümrə deyildir. Millət, dilcə, dincə, əxlaqca və gözəllik duyğusu baxımından müştərək olan, yəni eyni tərbiyəni almış fərdlərdən ibarət olan bir toplumdur”.

Osmanlı imperiyası Birinci Dünya müharəsində uduzub süqut etsə də, qəhrəman türk xalqını heç bir xarici qüvvə yenə bilməzdi. Qazi Mustafa Kamalın öndərliyi ilə Anadoluda başlayan istiqlal mücadiləsi qələbə ilə nəticələndi. Böyük Atatürk bir “Təlif və tərcümə heyəti” yaradaraq fikirlərinə dərin hörmət bəslədiyi Z.Göyalpı da bu heyətə daxil etdi. 1923-cü ildə Diyarbəkirdən Türkiyə Millət Məclisinə vəkil seçilən Z.Göyalp arzusunda olduğu milli dövlətin – Türkiyə Cümhuriyyətinin ideologiyasının təməl prinsiplərini təkmilləşdirməyə başladı, fəqət, 1924-cü ildə xəstələnərək 48 yaşında ikən 25 oktyabrda gözlərini bu dünyaya əbədi olaraq yumdu.

Z.Göyalpın ölümü bütün türk dünyasında böyük üzüntü yaratmış, o dövr Türkiyə qəzet və dərgilərində onun dəyərini anladan xeyli yazı dərc edilmişdi. Yaxın dostu və məsləkdaşı Əhməd bəy Ağaoğlu yazmışdı: “Heç bir zaman, heç bir vəziyyətdə sayın Göyalpın ruhuna çarəsizlik kimi zəifliklər girməmişdir. Ən müşkül və ən qaranlıq zamanlarda o, daim ətrafına iman və ümid saçmışdır”.

Z.Göyalp bir vaxtlar yazmışdı: “Türklərin mədəniyyət əsrinə girmələri üçün yalnız keçmişlərinə dönüb baxmaları kifayərdir”. Bu gün bu dahi şəxsiyyətin Turanla bağlı arzuları həyata keçməkdədir. Böyük bir coğrafi məkanda müstəqil türk dövlətləri yaranaraq sürətli iqtisadi, mədəni inkişaf yolu keçir. Bəli, “Düşmənin ölkəsi viran olacaq, Türkiyə böyüyüb Turan olacaq!” – deyən Z.Göyalpın ruhu şaddır!

***Məsaim ABDULLAYEV***
***XQ***

Mübariz Əkbərov – 70

# Silahı gözəlliyə çevirən rəssam

**Şeyx Nizami yurdu olan qədim Gəncə böyük şəxsiyyətlər yetirməklə yanaşı, tarixi ənənələri qoruyan istedadları ilə də tanınır. Onlar da öz yaradıcılıqları ilə doğma şəhərin adını ucaldırlar. Əməkdar rəssam, “Turan” Elmlər Akademiyasının fəxri akademiki Mübariz Əkbərov da belələrindəndir.**



Mübariz Səməd oğlu Əkbərov 2 aprel 1955-ci ildə Gəncədə anadan olub. Burada Rəssamlıq məktəbini, Pedaqoji Texnikumun “Rəssamlıq” fakültəsini, həmçinin Bakıda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. Onun yaradıcılıq uğurları 1993-cü ildə Bakıda təşkil edilən “Azərbaycan folkloru” müsabiqə-sərgisində 2-ci dərəcəli diploma layiq görülməsi ilə təsdiqini tapıb. Daha 2 il sonra Əlyazmalar İnstitutunda fərdi sərgisi təşkil olunub. Ardınca Bakıda “Dekorativ tətbiqi sənət”, “Dədə Qorqud–1300” müsabiqə-sərgilərində qalib gəlib. Müxtəlif vaxtlarda fərdi sərgiləri ilə sənətsevərləri heyran qoyub. 1997-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü,



2007-ci ildən Əməkdar rəssamdır.

Tələbəlik illərində dekorativ-tətbiqi sənət yaradıcılığını məşhur Xalq rəssamı Lətif Kərimovdan yetərincə öyrənib. Bu barədə söhbət düşəndə Mübariz Əkbərov deyir: “Lətif Kərimovun tövsiyəsi ilə bu sənətə gəldim. Tədricən təkmilləşdirdikcə sənətin incəliklərini daha dərindən öyrənə bildim. Bu gün xoşbəxtəm ki, dünya şöhrətli sənət əsərləri sayılan işlər ərsəyə gətirə bilmişəm”.

Ustadının anadan olmasının 110 illiyi münasibətilə Azərbaycan Xalça muzeyində Mübariz Əkbərovun dekorativ-tətbiqi sənət əsərlərindən ibarət “Metalda həkk olunmuş gözəllik” adlı sərgisi uğur qazanıb. Sərgi muzeydə “Beynəlxalq Türk dünyasının ortaq dili naxışlar” adlı 1-ci simpozium ərəfəsində təşkil edilmişdi. Xüsusi olaraq qeyd etmək lazımdır ki, daha öncə, 2008-ci il oktyabrın 10-da Bakıda ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunan rəngkarlıq və tətbiqi incəsənət müsabiqə-sərgisində onun əl işləri birincilik qazanıb.

Bildiyimiz kimi, azərbaycanlıların əzəli yurdlarından hələ XVIII əsrdən başlanıb. Bu dövrdə məhz Qərbi Azərbaycandan soydaşlarımız 3 mərhələdə didərgin salınıblar. Mübariz Əkbərovun ailəsi də 1948-ci ildə Azərbaycanın Kür–Araz ovalığına köçürülənlərdən olub. Sonra onlar Gəncədə məskən salıblar. O illəri xatırlayan Mübariz müəllim deyir: “Hüseyn babam deportasiya edildikdə özü ilə “Qara dəstə” adlı xəncərini gətirmişdi. Mən doğulandan babamın həmin yadigarı hər zaman yastığımın altında olub. Sənətə gəldikdən sonra bu xəncəri yenidən hazırlamağı qərara aldım və bacardım”.

Sənətkar bu dövr ərzində ağsaqqalların təklifi ilə İrəvan xəncərinin də hazırlanaraq ərsəyə gəlməsinə nail ola bilib. O, bütün əl işlərini milli ornamentlərlə bəzəməyi sevir. Məhz onun düzəltdiyi qılınç və xəncərlər nəfis naxışlarla bəzədilmiş sənət nümunələri kimi Azərbaycanımızın milli-mənəvi dəyərləri, tarixi-mədəni irsi olaraq təqdim edilir. Bunlar təkcə forma və işlənmə texnikası ilə deyil, zərifliyi və incəliyi ilə də göz oxşayır. Mübariz Əkbərov sənət nümunələrində müxtəlif orijinal variasiyalarla yanaşı, işlərinin yüksək bədiiliyi ilə diqqət mərkəzində olmağı bacarır. “Düzdür, mən rəngkarlığı bitirmişəm, – deyir. – Ancaq qədim silahlara yeni ömür verməyi sevirəm. Bu, bir sənətkar olaraq tarix qarşısında vətəndaşlıq borcum hesab edilə bilər”.

Onun evindəki kiçik emalatxanasında böyük məhəbbətlə hazırladığı əsərləri arasında ispan və ingilis xanımlarının istifadə etdiyi “pika”, ərəblərə məxsus “yamən”, Nepala xas olan “kukri”, fransızlara məxsus “şpaqa” və Yaponiyanın simvoluna çevrilən “katana” kimi əl işləri və digər nümunələr tarixi özündə yaşatmaqdadır. Bu gün sənətkarın əl işləri olan qılınçlar dünyanın məşhur muzeylərində və fərdi kolleksiyalarda qorunub saxlanır. Parlaq yaradıcılıq yolu olan Mübariz Əkbərov özünün sənət nümunələri ilə Almaniya, Böyük Britaniya, Danimarka, Fransa, Rusiya və Türkiyədə təşkil olunan bir sıra beynəlxalq sərgilərdə ölkəmizi uğurla təmsil edir. Müxtəlif ölkələrdən dəvətlər alsa da, ustad sənətkar qədim Gəncəni tərk etmir. Məsələn, Londonda istedadını görüb təklif ediblər ki, daimi olaraq orada qalsın. O isə doğma Gəncəni nəinki Londona, heç bir başqa yerə dəyişməyi ağlına belə gətirmədiyini bildirib.

Mübariz Əkbərovun xəncər, qılınç qəbzə və qınları, buynuzdan hazırladığı badələr, əsalar, döyüş libasları, kəmərlər və digər işləmələri müxtəlifliyi və zənginliyi ilə diqqət çəkir. 2009-cu ildə ekranlara çıxan “Cavad xan” tammetrajlı bədii filmində istifadə edilən Gəncə xanının hərbi geyim dəsti və qılınçı da məhz Mübariz Əkbərovun əl işidir. Onun dekorasiyalarda işlədiyi şəbəkə texniki üsulu hər zaman dünyanın gözəllik harmoniyasını duymaq bacarığı qədər həssas duyğularla müşayiət edilməkdədir. Sənətkar hazırladığı hər bir silahın kimə məxsusluğunu, adını və yaranma tarixini də dəqiqliklə öyrənir. Xalqımızın məğrurluq mentalitetinə xas olan etik-mənəvi normaları, özünəməxsus davranış qaydalarını zərgərlik nümunələrində mütləq nəzərə alır. Axı, müxtəlif yaraq-yasaq təyinatından savayı, həm də yüksək sənətkarlıq örnəkləridir. Tutaq ki, xəncər yaraq olmaqdan əlavə, həm də kişilərin ənənəvi üst geyim komplektini tamamlayan dekorativ bəzək növüdür. Bu səbəbdən də hər zaman məhz onun qınının və qəbzəsinin yaraşıqlı görünməsinə xüsusi diqqət yetirir.

Ömrünün 70-ci baharını yaşayan Əməkdar rəssam Mübariz Əkbərov öz sənət incilərinin parlaq işığının şöləsində yoluna davam edir.

***Anar Ərtoğrul BURCƏLİYEV***

Beynəlxalq həyat

# “Qoca qitə” “hərbi yuxu”dan oyanırmı?

**Avropa ölkələri narahatdırlar: ABŞ NATO-dakı öhdəliklərini yerinə yetirəcəkmi? Yəni hansısa bir hücum olduğu təqdirdə Vaşinqton “qoca qitə”yə hərbi dəstək göstərəcəkmi? Birləşmiş Ştatların Avropanı nüvə qalxanından məhrum edəcəyi barədə hələlik hər hansı bir rəsmi açıqlama yoxdur. Hətta şəxsi söhbətlərdə Ağ evin NATO-dakı öhdəliklərinə sadiq qalacağı barədə informasiyalar yayılır. Bununla belə, Avropada hərbi sahədə güclənməyi düşünürlər. Xüsusilə də qitənin ən böyük iqtisadi gücünə malik Almaniyada hərbi xərclərə milyardlarla dollar xərcləməyi planlaşdırırlar. Mütəxəssislər də ABŞ–Avropa münasibətlərində yaşanan son hadisələrin “qoca qitə”ni hərbi “yuxu”dan oyanmasına səbəb olduğunu düşünürlər.**

Hərbi sahədə ən böyük dəyişiklik Almaniyada müşahidə olunur. Federal seçkilərdən sonra növbəti kansler olacaq Fridrix Merts parlamentdə hökumət borclarını məhdudlaşdırmaq mexanizmini ləğv etmək üçün səsvermədə qalib gəldi. Prinsipcə, qanun dəyişikliyi müdafiə və təhlükəsizlik üçün qeyri-məhdud xərclərə icazə verir. Mütəxəssislər bu addımın növbəti on il ərzində Almaniyada 600 milyard avronu (652 milyard dollar) aşacağını gözləyirlər. Bəs Almaniyanın hərbi güclənməsi perspektivi Berlinə və qitəyə nə vəd edir?

Almaniyanın hərbi güclənməsi perspektivi bir çox amillərdən, o cümlədən ölkənin daxili siyasətindən, Avropa İttifaqı və NATO-nun mövqeyindən, qlobal geosiyasi vəziyyətdən asılı olan mürəkkəb məsələdir. Almaniya artıq 2022-ci ildən sonra müdafiə xərclərini artırıb və NATO tələblərinə uyğun olaraq ÜDM-in 2%-nə çatmağı hədəfləyib. Bundesverin modernləşdirilməsi üçün 100 milyard avroluq xüsusi fond yaradılıb. Silahların sənaye istehsalının genişləndirilməsi istiqamətində addımlar atılır. Kibertəhlükəsizlik və elektron müharibə imkanları gücləndirilir.



Amma alman cəmiyyətinin bir hissəsi militarizasiyaya qarşıdır. Bunun da konkret səbəbləri var. İkinci Dünya müharibəsindən sonra Almaniyanın tarixi məhdudiyyətləri və pasifist ənənəsi mövcuddur. Tarixən Almaniya XVIII əsrdə Prussiyadan başlayaraq, hərbi şücaət kultunun milli kimliyin bir hissəsi olduğu dövrdə intensiv hərbiləşmə dövrlərindən keçib. XIX əsrdə Otto fon Bismark ordunu gücləndirən və Almaniyanın birləşməsinə kömək edən hərbi islahatlar həyata keçirməsi ilə tarixə düşüb. Ancaq hazırkı şəraitdə onilliklər boyu davam edən sülhsevər siyasətdən sonra Almaniya hərbi xərclərini artırmağa məcburdur ki, bu da geosiyasi vəziyyətin, o cümlədən Ukraynadakı müharibənin dəyişməsi ilə bağlıdır.

Almaniyanın hərbi gücünü artırması onun beynəlxalq münasibətlərinə necə təsir edəcək? Mütəxəssislərin sözlərinə görə, Berlinin hərbi sahəyə milyardlarla dollar ayırması onun beynəlxalq münasibətlərinə, xüsusən də indiki geosiyasi vəziyyət kontekstində mühüm təsir göstərəcək. Belə ki, hərbi xərclərin artması və Almaniyanın silahlı qüvvələrinin modernləşdirilməsi onun NATO və Avropa İttifaqındakı mövqeyini gücləndirəcək. Bu, Almaniyaya Ukrayna münaqişəsi fonunda xüsusilə vacib olan Avropa təhlükəsizliyinin təmin edilməsində daha fəal rol oynamağa imkan verəcək. Bundan başqa, Almaniya beynəlxalq missiya və təşəbbüslərdə iştirak edərək qlobal oyunçu kimi mövqeyini möhkəmləndirməyə çalışır. Ordunun gücləndirilməsi və qitədə güclü hərbi dövlət statusunu artırması Berlinə onun maraqlarını və dəyərlərini dünya səhnəsində təbliğ etməsinə şərait yaradacaq.

Beləliklə, indiki şəraitdə Almaniyanın hərbi güclənməsi qaçılmazdır və artıq fəal şəkildə davam edir. Lakin onun tempi və miqyası siyasi iradədən, iqtisadi imkanlardan və beynəlxalq vəziyyətdən asılı olacaq. Uzunmüddətli perspektivdə Almaniya Avropanın aparıcı hərbi oyunçularından birinə çevrilə bilər, lakin eyni zamanda NATO və Aİ-nin kollektiv müdafiəsinin bir hissəsi olaraq qalacaq.

Avropada üc mərkəzi kimi çıxış etməyə çalışan Fransa da eyni addımları atacağını bildirir. 2024-cü ildə Fransanın hərbi büdcəsi 47,2 milyard avro idi və 2030-cu ilə qədər yeni hərbi proqrama əsasən 413 milyard avroya çatmalıdır. Bu, “soyuq müharibə”dən bəri müdafiə xərclərinin ən böyük artımıdır.

Bəs Avropa İttifaqının yaradıcıları olan Almaniya və Fransa arasında hərbi ittifaqın gücləndirilməsinin perspektivi varmı? Əlbəttə, Almaniya və Fransa Avropanın əsas hərbi və iqtisadi gücləridir və onlar arasında daha dərin hərbi ittifaq ideyası müntəzəm olaraq müzakirə olunur. Bununla belə, birgə təşəbbüslərə baxmayaraq, ölkələr arasında təhlükəsizlik və müdafiəyə yanaşmalarda ciddi fərqlər qalmaqdadır. Doğrudur ki, hər iki ölkə “Avropa ordusu” konsepsiyasını dəstəkləyir, lakin Almaniya daha çox NATO-yönümlüdür, Fransa isə bu məsələdə daha çox müstəqillik tərəfdarıdır. Almaniya hərbi xərcləri artırsa da, hələ də ABŞ və NATO-dan asılı olaraq qalır. Fransa nüvə dövləti kimi hərbi siyasətdə daha müstəqil rol oynamağa çalışır.

İki ölkənin hərbi müttəfiqliyinin güclənməsinə müxtəlif müdafiə strategiyalarının olması da maneə yaradır. Fransa strateji muxtariyyət konsepsiyasına, Almaniya isə NATO vasitəsilə kollektiv müdafiə konsepsiyasına sadiqdir. Fransanın nüvə silahı var, Almaniyanın yoxdur və Berlin nüvə çəkindirməsinə malik olmaqda maraqlı deyil. Bundan başqa, Fransa milli istehsalçıları (Dassault, Thales) dəstəkləyir, Almaniya isə Avropanın müdafiə sənayesinə daha çox inteqrasiya edir. Bütün bu məqamlar belə deməyə əsas verir ki, strategiyalar və siyasi yanaşmalardakı fərqliliklərə görə yaxın gələcəkdə Almaniya və Fransa arasında tamhüquqlu hərbi ittifaq mümkün deyil.

Bununla belə, onların müdafiə sektorunda əməkdaşlığı birgə layihələr və Aİ təşəbbüsləri vasitəsilə dərinləşməkdə davam edir. Onlar gələcəkdə daha müstəqil Avropa hərbi strukturunun əsasını təşkil edə bilərlər, lakin hələlik onların müdafiə siyasətləri fərqli olaraq qalır. Bu günün qlobal çağırışları Almaniya və Fransanın müdafiə strategiyalarına əhəmiyyətli dərəcədə təsir göstərir və onları yeni çağırışlara uyğunlaşmağa məcbur edir. ABŞ-Aİ münasibətlərində müşahidə olunan qeyri-müəyyənlik, hətta bəzi məsələlərdəki gərginlik (tarif müharibələri və s.) Avropanı hərbi gələcəyinə daha məsuliyyətlə yanaşmağa vadar edir və bu prosesin daha sürətlə gedəcəyi düşünülür.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 62 (30756) 2 aprel 2025-ci il, çərşənbə

Baharın elçiləri

# Qaranquşlar gələndə...

## *Onlar özləri ilə yazı da geri qaytarırlar*



**Qaranquşlar, adətən, hər il aprelin əvvəllərində yurdumuzun səmasında pərvaz etməyə başlayırlar. Bir də gördün ki, lap yaxından, az qala, gözlərimizin özündən uçub gedirlər. Onlar özləri ilə yazı da geri qaytarırlar.**

Qaranquşlar bizimlə aylənsələr də, onlar daim "iş başında"dır. Belə ki, gölməçələrin kənarındakı qurumamış palçığı dimdikləri ilə gətirərək kiçik və səliqəli yuvalar tikirlər. Evlərin tirlərinə, taxta divarların və damların çıxıntılarına yapışmış yuvalar sanki onların "yay mənzilləri"dir.

Belə bir inanc var ki, qaranquşlar yuva qurduqları evlərə ruzi, bərəkət gətirirlər. Elə ki, özlərinə sığınacaq qurdular, artıq öz quş dillərində gözəl mahnılar oxuyurlar.

Bəzən dəcəl sərçələr qaranquşların yuvalarına girirlər. Bu zaman qaranquşlar çağırılmamış qonağı qovmağa çalışır, təlaşla yuvanın ətrafında dövrə vururlar. Sərçələr tərslik edəndə, qaranquşlar çarəsiz qalıb köhnə yuvanın yaxınlığında yenilərini tikməyə başlayırlar.

Qaranquşlar, demək olar ki, ömürlərini havada – uçmaqla keçirirlər. Onlar həşəratlarla qidalanırlar. Hesablanıb ki, hər bir qaranquş yay fəslində orta hesabla yarım milyondan bir milyona qədər mığmığa, ağcaqanad və mənənə ovlayır.

Qaranquşların sinoptikliyi də var. Belə ki, onlar havalar kəskin dəyişəndə, xüsusilə yağışdan öncə alçaqdan uçurlar. Qaranquşların bu hərəkətini müşahidə edən insanlar tezliklə yağış yağacağını başa düşürlər.

Qaranquşlarda "dəqiq və ədalətli əmək bölgüsü" də mövcuddur. Adətən, dişi qaranquşun kürt yatdığı yuvada 4–6 yumurta olur. Erkək qaranquş bu zaman "xanım"ına yem gətirir, sonra isə hər ikisi balalara qayğı göstərir. Cücələr yuvada 3 həftə yemlənir, yuvadan uçduqdan sonra onlara bir neçə gün ov etmək öyrədilir. Sonda "ata-ana" onları tərk edir.

Qaranquşlar planetimizin əksər bölgələrinə yayılıblar. Onlara Avropa və Asiyada, Afrikanın şimalında, Şimali Amerikada daha çox rast gəlinir. Avropa qaranquşları Ekvatorial və Cənubi Afrikada, Asiya qaranquşları Hindistandan Filippinə qədər olan ərazilərdə, Şimali Amerika qaranquşları isə Cənubi Amerikanın şimalında qışlayır. Avropa qaranquşları mart–aprel aylarında bala çıxarmaq üçün geri qayıdır. Ərazisindən böyük miqrasiya yolları keçdiyinə görə, Azərbaycan həm köçəri, həm də oturaq quşlar üçün əlverişli məkan sayılır.

Böyük Səməd Vurğun yurdsevərlik himnimiz olan "Azərbaycan" şeirində yazırdı:

**Afrikadan, Hindistandan,**
**Qonaq gəlir bizə quşlar**

Yeri gəlmişkən, 1906-cı il aprelin 1-də quşların mühafizəsinə dair Beynəlxalq Konvensiya imzalanıb və həmin gün dünyada Beynəlxalq Quşlar Günü kimi qeyd edilir.

Qaranquşlara yazın, "baharın elçiləri" də deyirlər. Onların gəlişi ilə torpaqda əkin-biçin işləri artır, insanlar ruzi qazanmaq üçün tarlalara, bağlara üz tuturlar. Evdə oturmaq, bekar qalmaq günah sayılır.

Azərbaycan poeziyasında qaranquşlar həmişə sevgi ilə vəsf edilib. Onlara musiqi də qoşulub. Bəstəkar Hikmət Aslanovun şairə Dilərfuz Hüseynqızının sözlərinə yazdığı populyar bir mahnıda deyilir:

**Bahar yurda gələndə,**
**Lalə bitər çəməndə,**
**Görüşərik səninlə,**
**Qaranquşlar gələndə.**

Qaranquş gözəl, yaraşıqlı quşdur. O, iti uçuşu ilə istər tutqun, istər yağışlı, istərsə də açıq yay səmasına bir canlanma, həyat eşqi gətirir. Qaranquşları seyr etməyin ayrı bir səfası var. Qoy onlar yurdumuzun səmasını daim bəzəsinlər!

***MH ACIXANLI***
***XQ***

İdman

## 192 idmançımız gimnaziadada

**Serbiyada ISF U-15 Gimnaziada İdman Oyunları keçiriləcək.**




Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, yarışda ölkəmiz 18 idman növündə - idman gimnastikası (Novi-Sad), kamandan oxatma, 3x3 basketbol, çimərlik voleybolu, boks, şahmat, tennis (Zlatibor), badminton, parabadminton, üzgüçülük, paraüzgüçülük, stolüstü tennis (Ujiçe), taekvondo, karate (Pojeqa), cüdo, güləş (Luçani), qılıncoynatma (Nova-Varoş), atletika (Priboy) üzrə ümumilikdə 192 idmançı ilə təmsil olunacaq.

Yarışlar aprelin 4-dən 14-dək davam edəcək. Oyunların açılış mərasimi aprelin 5-də, bağlanışı isə 12-də Zlatibor şəhərində keçiriləcək.

## Şahmatçılarımız Avropa çempionatında

**Yunanıstanın Rodos adasında qadın şahmatçılar arasında Avropa çempionatı start götürüb.**



Qitə birinciliyində qadın şahmatçılarımız Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Gülnar Məmmədova, Ayan Allahverdiyeva, Türkan Məmmədyarova, Səbinə İbrahimova, Nərmin Abdinova və Lalə Hüseynova mübarizə aparırlar. İsveçrə sistemi üzrə keçirilən və 11 turdan ibarət olan yarış aprelin 11-də başa çatacaq. 137 şahmatçının qatıldığı turnirin reytinq favoriti Nino Batsiaşvilidir (Gürcüstan).

Qeyd edək ki, Avropa çempionatında ilk 10 yeri tutacaq şahmatçılar Dünya Kubokuna vəsiqə qazanacaqlar.

## Dopinqə görə 3 illik cəza

**Pauerliftinqçi Rəşad Əliyev cəzalandırılıb.**



AMADA-dan verilən məlumata görə, buna idmançının doping qaydalarını pozması səbəb olub. Onun orqanizmində S1 Anabolik Androgenik Steroidlər aşkarlanıb. Pauerliftinqçi 36 aylıq idmandan kənarlaşdırılıb. Ona tətbiq olunan sanksiya fevralın 19-dan hesablanmağa başlayıb.

***LQ URBANOVA***
***XQ***

Yeni nəşrlər

## "Aşıq dastanları" – canlı söyləmələr

**Azərbaycan Aşıqlar Birliyində nəşrə hazırlanan "Aşıq dastanları" çoxcildliyinin 3-cü cildi işıq üzü görüb.**



Kitab, Azərbaycan Aşıqlar Birliyi və "Mədəniyyət" kanalının birgə layihəsi olan "Saz-söz məclisi" verilişində (2022–2024) oxunan dastanların əsasında işlənib hazırlanıb. Ustad aşıqlar və yeni nəsil ifaçıların repertuarından videoyazıya alınan dastan-rəvayətləri əhatə edən bu cild özündən əvvəlki toplular kimi dastançıların təhkiyə tərzini, eləcə də dil-üslub özəlliklərini qoruyan epik mətnlərlə zəngindir.

"Aşıq dastanları" üçcildliyi gələcək dastan nəşrlərinin ortaya çıxması üçün bir təkan olmaqla yanaşı, yeni nəsil aşıqlar, folklorçular və musiqişünaslar üçün də faydalı mənbə rolunu oynayır.

Cildin elmi məsləhətçisi Azərbaycan Aşıqlar Birliyinin sədri, Dövlət mükafatı laureatı Məhərrəm Qasımlı, nəşrə hazırlayanlar Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu və filologiya üzrə fəlsəfə doktoru, dosent Altay Məmmədlidir. Cildin redaktoru, filologiya üzrə fəlsəfə doktoru dosent Aynur Xəlilovadır.

***S.FİDAN***
***XQ***

## Fıstıq yağı – gümrahlıq qaynağı

**Günə 1 qaşıq fıstıq yağı ilə başlamaq axşama qədər yüksək enerji verməklə yanaşı, bir çox sağlamlıq faydaları ilə də diqqət çəkir. Fıstıq yağı xüsusilə səhərlər tövsiyə olunur.**



Bədənin ehtiyac duyduğu enerjini təmin etdiyi üçün fıstıq yağını müntəzəm yemək olar. Səhər acqarına yeməyin faydaları isə daha çoxdur.

Fıstıq yağı sağlam yağlar və zülallarla zəngindir. Tərkibindəki sağlam yağlar və protein qan şəkərinin daha yavaş yüksəlməsinə imkan verir. Fıstıq yağı mono doymamış və doymamış yağlarla zəngindir və ürək sağlamlığını dəstəkləyir.

Müntəzəm olaraq yeyildikdə pis xolesterini (LDL) azalda bilər.

Xüsusilə idman edənlər üçün səhər yeməyində faydalıdır.

Tərkibindəki vitamin E antioksidan xüsusiyyətlidir və dərinin sağlamlığını qoruyur. Onun sağlam və gənc görünməsinə kömək edir.

***Z.HÜSEYNLİ***
***XQ***

HAVA

## Abşeronda yağmursuz, bölgələrdə dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 2-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq.**

Əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 11-14°, gündüz 18-22° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 755 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin səhər dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 20-25°, dağlarda gecə 5-10°, gündüz 12-17° isti olacaq.

***QQ ASIMOV***
***XQ***

## "Bakışəhərtikintimexanikləşdirmə" ASC səhmdarlarının nəzərinə!

19 may 2025-ci il saat 12.00-da Bakı şəhəri, Nizami rayonu, Abdulla Mirzəyev küçəsi 18 nömrəli ünvanda "Bakışəhərtikintimexanikləşdirmə" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncagın gündəliyi:

1. 2024-cü ilin maliyyə hesabatının təsdiq edilməsi.
2. Cəmiyyətin ləğv edilməsi.
3. Ləğvetmə komissiyasının yaradılması.
4. Ləğvetmə komissiyasının səlahiyyətlərinin müəyyənləşdirilməsi.
5. Cəmiyyətin müşahidə şurasının və icra orqanının səlahiyyətlərinə xitam verilməsi.
6. Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərarın qəbul edilməsi.
7. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan-17.00-dək 050-316-99-98 nömrəli telefonla əlaqə saxlaya bilərlər.

## "Sumqayıt Ərzaq-73" ASC səhmdarlarının nəzərinə!

17 may 2025-ci il saat 11.00-da "Sumqayıt Ərzaq-73" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2024-cü ilin maliyyə hesabatlarının təsdiq edilməsi.
2. ASC-nin bölünməsi və bölünmə şəklində yenidən təşkili.
3. Bölünmə balansının təsdiq edilməsi.
4. ASC-nin bölünmüş əmlakının təhvil verilməsi qaydasının müəyyən edilməsi.
5. ASC-nin bölünməsi nəticəsində yenidən təşkil olunan MMC-nin təsis edilməsi və nizamnamə kapitalının formalaşması.
6. ASC-yə məxsus səhmlərin bir hissəsinin ləğv edilməsi və dövriyyədən çıxarılması.
7. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan-17.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə nömrəsi - (050) 345-57-08.

Ünvan - Sumqayıt şəhəri, 17-ci mikrorayon 62.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə qayınatası

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi iş yoldaşları Aydın Ələsgərova anası

**NİYAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi Rayon Qaravəlli Bələdiyyəsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Bərdə Regional Ədliyyə İdarəsi rəisinin müavini Eldəniz İbrahimova əzizi

**ADİLƏ ABDULLAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon Avşar Bələdiyyəsinin sədri Vaqif Kazımov Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Bərdə Regional Ədliyyə İdarəsi rəisinin müavini Eldəniz İbrahimova əzizi

**ADİLƏ ABDULLAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon Təzəkənd Bələdiyyəsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Bərdə Regional Ədliyyə İdarəsi rəisinin müavini Eldəniz İbrahimova əzizi

**ADİLƏ ABDULLAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Bələdiyyəsinin sədri İsmayıl Rəsulov və kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Bərdə Regional Ədliyyə İdarəsi rəisinin müavini Eldəniz İbrahimova əzizi

**ADİLƏ ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi Rayon Hüsülü Bələdiyyəsinin sədri Arzu Həsənov və kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Bərdə Regional Ədliyyə İdarəsi rəisinin müavini Eldəniz İbrahimova əzizi

**ADİLƏ ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cahangir Mustafayev ailəsi ilə birlikdə

**AFİQ İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kollektivi baş laborant Miranə Cabbarovaya həyat yoldaşı

**HƏSƏN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi Rayon Boyat Bələdiyyəsinin sədri Günay Abdullayeva Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Bərdə Regional Ədliyyə İdarəsi rəisinin müavini Eldəniz İbrahimova əzizi

**ADİLƏ ABDULLAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3227
SİFARİŞ 642
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00